Xalqın qəzeti!

# Xalq qəzeti

№ 155 (30559) 25 iyul 2024-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az


## İlham Əliyev Şavkat Mirziyoyevi təbrik etdi



**İyulun 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevə zəng edib.**

Dövlətimizin başçısı Şavkat Mirziyoyevi ad günü münasibətilə təbrik edərək, ona möhkəm cansağlığı və prezidentlik fəaliyyətində yeni uğurlar arzulayıb.

Şavkat Mirziyoyev göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Prezidentlər bu il iyulun 5–6-da Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün və bu tədbir çərçivəsində təmasların əhəmiyyətini qeyd ediblər.

Telefon söhbəti zamanı dövlət başçıları ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, əlaqələrimizin bundan sonra da möhkəmlənəcəyinə əminlik ifadə edib, əməkdaşlığın perspektivləri və gələcək təmaslar barədə fikir mübadiləsi aparıblar.

**Prezidentin Mətbuat Xidməti**

# Prezident İlham Əliyev Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda Zəfər parkında aparılan tikinti işləri ilə tanış olub.**



"PMD Projects" şirkətinin direktoru Nəriman Topçibaşev parkda görülən işlər barədə dövlətimizin başçısına məlumat verdi.

Prezident İlham Əliyevin 2020-ci il dekabrın 3-də imzaladığı Sərəncamda Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi zəfərin yaddaşlarda yaşadılması və ictimaiyyətə nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə Bakıda Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin yaradılması tapşırılmışdı. Sərəncamdan dərhal sonra Vətən Müharibəsi Memorial Kompleksinin və Zəfər Muzeyinin layihələri hazırlandı və tikinti işlərinə başlanıldı.

Qeyd edək ki, 2023-cü il sentyabrın 27-də Anım Günündə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda inşası davam etdirilən Zəfər parkında olublar.



Dövlətimizin başçısı və birinci xanım burada görülən işlərlə tanış olublar.

8 Noyabr prospektində inşa olunan Zəfər parkının ərazisi 9 hektardan çoxdur.

Parkın girişində 44 tağ elementindən istifadə edilib. Tağlar Qələbəyə aparan rəmzi yolun başlanğıcını tərənnüm edir. İnşası davam edən tağın hündürlüyü 44 metr, eni isə 22 metrdir.

Parka keçid hissədə 8 Noyabr – Zəfər Gününü əks etdirən memorial abidə ucaldılacaq. Abidə Zəfər Gününü və sarsılmaz birliyi təcəssüm etdirəcək. Memorial abidənin ətrafında Qarabağ xalçalarındakı naxış və bəzək elementlərini əks etdirən yaşıllıq salınacaq.

Zəfər Muzeyinə park ərazisindən 2 istiqamətdə giriş olacaq. Sahəsi 9 min 200 kvadratmetr olan muzeyin yan divarında Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan əsgər və zabitlərin adları qeyd ediləcək.

Ziyarətçilər muzeyi gəzdikdən sonra park hissəsinə daxil ola biləcəklər. Zəfər parkında, həmçinin tematik bağça, kaskad tipli şəlalə, Qarabağ yaddaş bağçası və parka ümumi baxış nöqtəsi yaradılacaq. Parkın sonunda Azadlıq Bayrağı Meydanının inşası da nəzərdə tutulur.

Yaddaş bağçası parkın son hissəsində yaradılacaq. Bu hissəyə enən cığır hündür haşiyəli çiçək və yaşıllıqlarla əhatə olunacaq. Yaddaş bağçasının ətrafında istirahət guşələri yaradılacaq, oturacaqlar qoyulacaq. Su hövzəsinin mərkəzində isə Azərbaycan Bayrağı dalğalanacaq.

***AZƏRTAC***

## Bakı–İrəvan təmasındakı Rusiya təşəbbüsü

### *Reallıq nədir, qeyri-reallıq nə?*



**"Rusiya Federasiyası Azərbaycan və Ermənistan nümayəndələri arasında danışıqlarda öz platformasını təqdim etməyə və onlar üçün ən rahat şərait yaratmağa hazırdır". Bunu Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova həftəlik brifinqində Prezident İlham Əliyevin II Şuşa Qlobal Media Forumunun açılışında Ermənistanla sülh müqaviləsi ilə bağlı fikirlərinə münasibət bildirərkən deyib.**

Qeyd edək ki, ölkəmizin lideri həmin forumda sülh sazişinin mətni üzərində danışıqların davam etdiyini, lakin indi bununla bağlı daha az nikbin olduğunu vurğulamış və diqqəti Ermənistan baş naziri Nikol Paşinyanın Britaniyada görüşməkdən imtina etməsinə yönəltmişdi. Prezident İlham Əliyev görüş təklifinin Britaniya hökumətinin təşəbbüsü olduğunu da bildirmişdi: "Lakin Ermənistan tərəfi bu təklifi rədd etdi. Biz buna çox təəccübləndik".

*(ardı 4-cü səhifədə)*

# Ermənilərin "Qərbi Ermənistan" təxribatı

## Bu avantürist "ideya"nın müəllifi və ev sahibi Fransa olub

**Ermənistan baş naziri Nikol Paşinyanın da iştirak etdiyi hökumətin son iclaslarından birində ölkənin təhsil müəssisələrində tədris olunan dərs vəsaitlərində dəyişikliklərin edilməsi məsələsi müzakirəyə çıxarılıb. Artıq hökumət təhsil nazirliyinin belə bir qərarını təsdiq edib ki, məktəblərdə tədris olunan "Erməni tarixi" əvəzinə "Ermənistan tarixi" fənni öyrədilsin. Yəni, kitabın adı dəyişdiriləcək. Bundan əvvəlki dərsliklərdə "Qərbi Ermənistan" ərazilərindən danışılır, "Böyük Ermənistan" xəyalı edilir və bunlar erməni gəncliyinin irqçi, şovinist ruhda böyüməsinə, əsl erməni dövləti düşüncəsinin isə gerçəklikdən uzaq salınmasına, qonşularla problemlərin yaranmasına səbəb olurdu.**




Uzun illər "Qərbi Ermənistan" təxribatı Ermənistan dövlətinin rəsmi siyasəti halına gətirilmişdi ki, bu da erməni fəlsəfi fikrinə süni surətdə, məkrli məqsədlərlə daxil edilmiş "nəzəriyyə" idi. Elan olunmuş qondarma "Qərbi Ermənistan Respublikası"nın Türkiyə və Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması, sülh əldə edilməsi ilə bağlı danışıqlarının getdiyi bir zamanda maneələrdən biridir. Ötən il Türkiyəyə qondarma "Qərbi Ermənistan Respublikası" "rəhbərlərinin" səfərləri olmuşdu və onlar erməni hesab etdikləri adamlara pasportlar paylamışdılar. Türkiyə dövləti bu təxribatın qarşısını almışdı. Əslində, bu Türkiyə– Ermənistan münasibətlərinin normallaşması işinə qarşı diaspor erməniliyinin və onları qızışdırıb ortaya atanların təxribatı idi və bu "fəaliyyət", təbii ki, Ermənistan hakimiyyətini düşünməyə vadar edir. İndi Paşinyan bu təxribatı önləmək tədbiri kimi dərs vəsaitlərində "Qərbi Ermənistan" anlayışının ortadan qaldırılmasını istəyir, ardınca isə başqa addımların da atılacağını vəd edir, yəni erməni cəmiyyətində ötən illərdə Türkiyənin Şərqi Anadolu vilayətlərində "Qərbi Ermənistan vətəndaşı" pasportlarının paylanması və digər təxribatçı hərəkətlər danışıqlar prosesinə təsir etmək deyil, onu pozmaq cəhdi kimi qiymətləndirilməlidir. Əslində, erməni diasporu bununla Türkiyə ilə Ermənistanın münasibətlərinin düzəlməsini istəmədiyini açıq şəkildə ortaya qoyur. Nəzərə alsaq ki, bu üzdəniraq qurumun özü və onun mətbuat və TV-ləri erməni diasporunun nəzarətindədir, belə nəticə hasil olur: Bəzi ölkələr də bu təxribatın iştirakçılarıdır, çünki erməni diasporu özü həmin ölkələrin siyasi alətinə çevrilmişdir.

Mərkəzi ofisi Fransanın Sevr şəhərində olan "Qərbi Ermənistan Respublikası" necə meydana gəlib? Onun hədəfləri nədir? Bu, nə kimi zərərli nəticələr verə bilər?

*(ardı 6-cı səhifədə)*

## ABŞ-də prezident seçkiləri: milyarder, yoxsa keçmiş prokuror?



Səhifə ⇨ 11

# Sənayedə qeyri-neft sektorunun payı artır

## *Cari ilin 6 ayında bu sahədə 8,8 milyard manatlıq məhsul istehsal edilib*



**Ölkə iqtisadiyyatının əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabət qabiliyyətli müasir istehsal müəssisələrinin yaradılması, bu sahədə infrastruktur təminatının yaxşılaşdırılması sahəsində çoxsaylı layihələr icra olunur, bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Bu da sənaye sahəsində ümumi istehsalın artmasına səbəb olmaqla yanaşı, qeyri-neft sektorunun inkişafına mühüm töhfələr verir.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar–iyun aylarında Azərbaycanın sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 31 milyard 483,5 milyon manatlıq sənaye məhsulu istehsal olunub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur. Sənaye məhsulunun 65 faizi mədənçıxarma sektorunda, 29,2 faizi emal sektorunda, 4,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal olunub.

*(ardı 7-ci səhifədə)*

# "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1** Müəyyən edilsin ki:

1.1. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 46-1-ci maddəsinin VI hissəsində (hər iki halda), 46-2-ci maddəsinin I hissəsinin 2-ci (hər iki halda), 5-ci və 6-cı bəndlərində, 53-cü maddəsinin VII hissəsinin birinci və beşinci (hər iki halda) cümlələrində, IX hissəsinin ikinci və üçüncü (hər iki halda) cümlələrində, XI hissəsinin üçüncü cümləsində, XIII hissəsinin ikinci cümləsində və XVII hissəsinin üçüncü cümləsində, 83-cü maddəsinin II hissəsinin ikinci cümləsində və 84-cü maddəsinin birinci hissəsinin 6-1-ci bəndində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 46-1-ci maddəsinin VI hissəsində (hər iki halda), 46-2-ci maddəsinin I hissəsinin 2-ci bəndində (birinci halda) və 53-cü maddəsinin IX hissəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 46-2-ci maddəsinin I hissəsinin 2-ci bəndində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

1.4. həmin Qanunun 46-2-ci maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərində və 53-cü maddəsinin VII hissəsinin beşinci cümləsində "orqanın (qurumun) mərkəzi informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

1.5. həmin Qanunun 53-cü maddəsinin VII hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 53-cü maddəsinin VII hissəsinin beşinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

1.7. həmin Qanunun 53-cü maddəsinin IX hissəsinin üçüncü cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

1.8. həmin Qanunun 53-cü maddəsinin IX hissəsinin üçüncü cümləsində (ikinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

1.9. həmin Qanunun 53-cü maddəsinin XI hissəsinin üçüncü cümləsində, XIII hissəsinin ikinci cümləsində və XVII hissəsinin üçüncü cümləsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

1.10. həmin Qanunun 83-cü maddəsinin II hissəsinin ikinci cümləsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarına əməl edilməsinə nəzarət məqsədilə istifadə olunan xüsusi texniki vasitələrə münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

1.11. həmin Qanunun 84-cü maddəsinin birinci hissəsinin 6-1-ci bəndində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

1.12. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 81.2-ci maddəsində, 122.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 122.5-ci maddəsinin ikinci cümləsində, 123.2-ci maddəsinin üçüncü cümləsində, 124.4-cü maddəsinin birinci və dördüncü cümlələrində, 124.5-ci maddəsinin üçüncü cümləsində, 124.6-cı maddəsinin üçüncü cümləsində, 125.1-ci (birinci halda), 125.2.3-cü (birinci halda) maddələrində, 125.3-cü maddəsinin ikinci cümləsində (ikinci halda) və 126.3-cü maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.13. həmin Məcəllənin 81.2-ci maddəsində və 122.5-ci maddəsinin ikinci cümləsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarına əməl edilməsinə nəzarət məqsədilə istifadə olunan xüsusi texniki vasitələrə münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

1.14. həmin Məcəllənin 122.1-ci maddəsinin birinci cümləsində, 123.2-ci maddəsinin üçüncü cümləsində, 124.4-cü maddəsinin birinci və dördüncü cümlələrində, 124.5-ci maddəsinin üçüncü cümləsində, 124.6-cı maddəsinin üçüncü cümləsində, 125.1-ci, 125.2.3-cü maddələrində, 125.3-cü maddəsinin ikinci cümləsində və 126.3-cü maddəsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarının pozulmasına münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

1.15. həmin Məcəllənin 122.1-ci maddəsinin üçüncü cümləsində (Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən çıxarılan inzibati xəta haqqında iş üzrə qərarlara münasibətdə) "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur.

**2** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. üç ay müddətində:

2.1.1. yuxarı səlahiyyətli orqana (vəzifəli şəxsə) və ya məhkəməyə şikayət etmək hüququ təmin olunmaqla yol hərəkəti qaydaları, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi və avtomobil yollarından istifadə qaydaları əleyhinə olan inzibati xətalar haqqında işlər üzrə protokollar və qərarların rəsmi qaydada verilməsi prosedurlarının elektronlaşdırılması istiqamətində normativ hüquqi aktların təkmilləşdirilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin müəyyən edilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.3. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun 46-1-ci maddəsinin VI hissəsinə uyğun olaraq, kiçik elektrik nəqliyyat vasitələri üçün parklanma yerlərinin müəyyən edilməsi, parklanma yerlərinə dair tələblər və onlardan istifadə qaydalarını, habelə kiçik elektrik nəqliyyat vasitələri operatorlarının kiçik elektrik nəqliyyat vasitələrinin ərazi (zona) üzrə say hədlərini təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.4. həmin Qanunun 46-2-ci maddəsinin I hissəsinin 2-ci bəndinə uyğun olaraq, kiçik elektrik nəqliyyat vasitəsinin icarəyə (istifadəyə) verilməsinə, habelə onların sürətinə və lokasiyasına nəzarətin həyata keçirilməsi məqsədilə kiçik elektrik nəqliyyat vasitələrinin operatorları tərəfindən ötürülən səfər və operator barədə məlumatların siyahısını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.1.5. həmin Qanunun 53-cü maddəsinin IX hissəsinin ikinci cümləsinə uyğun olaraq, xidməti parklanma yerləri təşkil olunan dövlət orqanlarının (qurumlarının) siyahısını, onlara ayrılan yerlərin sayını və həmin parklanma yerlərinin olduğu parklanma məntəqələrinin ünvanını müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**3** "Yol hərəkəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 22 noyabr tarixli 24 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 11, maddə 666 (Cild I); 2024, № 3, maddə 260) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bəndə "32-ci maddəsinin 2-ci hissəsində," sözlərindən sonra "46-1-ci maddəsinin VI hissəsində (hər iki halda), 46-2-ci maddəsinin I hissəsinin 2-ci (hər iki halda), 5-ci və 6-cı bəndlərində," sözləri, "71-ci maddəsinin 2-ci hissəsində," sözlərindən sonra "83-cü maddəsinin II hissəsinin ikinci cümləsində, 84-cü maddəsinin birinci hissəsinin 6-1-ci bəndində," sözləri əlavə olunsun və həmin bənddə "1-ci və 2-ci hissələrində, 7-ci hissəsinin birinci və üçüncü (birinci halda) cümlələrində, 12-ci hissəsinin ikinci cümləsində, 13-cü hissəsinin birinci cümləsində, 14-cü hissəsinin 3-cü bəndində, 19-cu hissəsinin ikinci və üçüncü cümlələrində və 25-ci" sözləri "I və II hissələrində, VII hissəsinin birinci və beşinci (hər iki halda) cümlələrində, IX hissəsinin ikinci və üçüncü (hər iki halda) cümlələrində, XI hissəsinin üçüncü cümləsində, XII hissəsinin ikinci cümləsində, XIII hissəsinin ikinci cümləsində, XVII hissəsinin üçüncü cümləsində, XIX hissəsinin ikinci və üçüncü cümlələrində və XXV" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bənddə "23-cü maddəsinin 2-ci hissəsinin ikinci cümləsində," sözləri "9-cu maddəsinin IX hissəsində (ikinci halda), 23-cü maddəsinin II hissəsinin ikinci cümləsində, 46-1-ci maddəsinin VI hissəsində (hər iki halda), 46-2-ci maddəsinin I hissəsinin 2-ci bəndində (birinci halda), 53-cü maddəsinin IX hissəsinin ikinci cümləsində və" sözləri ilə əvəz edilsin;

3.3. 2.5-ci bənddə "üçüncü, səkkizinci və doqquzuncu (hər iki halda) hissələrində, on ikinci" sözləri "III və VIII hissələrində, XII" sözləri ilə əvəz edilsin;

3.4. 2.5-1-ci və 2.10-cu bəndlər ləğv edilsin;

3.5. 2.6-cı bənddə "1-ci, 2-ci və 3-cü hissələrində" sözləri "I hissəsində, II hissəsinin birinci cümləsində və III hissəsinin birinci cümləsində" sözləri ilə əvəz edilsin;

3.6. 2.7-ci bənddə ", dördüncü abzasının birinci cümləsində, 53-cü maddəsinin yeddinci hissəsinin üçüncü cümləsində (ikinci halda), on birinci hissəsində, on üçüncü hissəsinin ikinci cümləsində və on yeddinci hissəsində, 83-cü maddəsinin II hissəsinin ikinci cümləsində və 84-cü maddəsinin 6-1-ci bəndində" sözləri "və dördüncü abzasının birinci cümləsində" sözləri ilə əvəz edilsin;

3.7. 2.31-ci, 2.31-1-ci, 2.34-cü və 2.35-ci bəndlər aşağıdakı redaksiyada verilsin:

"2.31. həmin Qanunun 46-2-ci maddəsinin I hissəsinin 2-ci bəndində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

2.31-1. həmin Qanunun 46-2-ci maddəsinin I hissəsinin 5-ci və 6-cı bəndlərində və 53-cü maddəsinin VII hissəsinin beşinci cümləsində (ikinci halda) "orqanın (qurumun) mərkəzi informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;";

"2.34. həmin Qanunun 53-cü maddəsinin I və II hissələrində, XIX hissəsinin ikinci və üçüncü cümlələrində və XXV hissəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;

2.35. həmin Qanunun 53-cü maddəsinin VII hissəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi nəzərdə tutulur;";

3.8. aşağıdakı məzmunda 2.35-1 – 2.35-3-cü, 2.36-4-cü və 2.36-5-ci bəndlər əlavə edilsin:

"2.35-1. həmin Qanunun 53-cü maddəsinin VII hissəsinin beşinci cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə yerli icra hakimiyyəti orqanları nəzərdə tutulur;

2.35-2. həmin Qanunun 53-cü maddəsinin IX hissəsinin üçüncü cümləsində (birinci halda) "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi nəzərdə tutulur;

2.35-3. həmin Qanunun 53-cü maddəsinin XI hissəsinin üçüncü cümləsində, XIII hissəsinin ikinci cümləsində və XVII hissəsinin üçüncü cümləsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;";

"2.36-4. həmin Qanunun 83-cü maddəsinin II hissəsinin ikinci cümləsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarına əməl edilməsinə nəzarət məqsədilə istifadə olunan xüsusi texniki vasitələrə münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

2.36-5. həmin Qanunun 84-cü maddəsinin birinci hissəsinin 6-1-ci bəndində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;";

3.9. 2.36-2-ci bəndə "Qanunun" sözündən sonra "53-cü maddəsinin IX hissəsinin üçüncü cümləsində (ikinci halda) və" sözləri əlavə edilsin;

3.10. 2.37-ci bənddə "346-1.2-ci, 346-1.3-cü və 346-1.4-cü maddələrində nəzərdə tutulmuş inzibati xətaların törədilməsi halları ilə bağlı Bakı şəhərinin inzibati ərazisində Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 346-1.5-ci maddəsində nəzərdə tutulmuş inzibati xətanın" sözləri "346-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətaların" sözləri ilə əvəz edilsin.

**4** "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissə üzrə:

4.1.1. 4.1-ci bəndə "81-1.2-ci," sözlərindən sonra "81.2-ci," sözləri, "99.1.1-ci maddəsində," sözlərindən sonra "122.1-ci maddəsinin birinci və üçüncü cümlələrində, 122.5-ci maddəsinin ikinci cümləsində, 123.2-ci maddəsinin üçüncü cümləsində, 124.4-cü maddəsinin birinci və dördüncü cümlələrində, 124.5-ci maddəsinin üçüncü cümləsində, 124.6-cı maddəsinin üçüncü cümləsində, 125.1-ci (birinci halda), 125.2.3-cü (birinci halda) maddələrində, 125.3-cü maddəsinin ikinci cümləsində (ikinci halda), 126.3-cü," sözləri əlavə edilsin və həmin bənddən "127-2.4-cü maddəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) və ikinci cümləsində, 127-2.6," sözləri çıxarılsın;

4.1.2. 4.8-ci bənd aşağıdakı redaksiyada verilsin:

"4.8. həmin Məcəllənin 110.3-cü, 122.2-ci, 123.1-ci, 125.6-cı və 339.5-ci maddələrində "müvafiq icra hakimiyyəti orqanının mərkəzi informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;";

4.1.3. aşağıdakı məzmunda 4.8-1 – 4.8-3-cü bəndlər əlavə edilsin:

"4.8-1. həmin Məcəllənin 81.2-ci maddəsində və 122.5-ci maddəsinin ikinci cümləsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarına əməl edilməsinə nəzarət məqsədilə istifadə olunan xüsusi texniki vasitələrə münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

4.8-2. həmin Məcəllənin 122.1-ci maddəsinin birinci cümləsində, 123.2-ci maddəsinin üçüncü cümləsində, 124.4-cü maddəsinin birinci və dördüncü cümlələrində, 124.5-ci maddəsinin üçüncü cümləsində, 124.6-cı maddəsinin üçüncü cümləsində, 125.1-ci, 125.2.3-cü maddələrində, 125.3-cü maddəsinin ikinci cümləsində və 126.3-cü maddəsində "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi, Bakı şəhərinin inzibati ərazisində parklanma qaydalarının pozulmasına münasibətdə isə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin "AYNA" informasiya sistemi nəzərdə tutulur;

4.8-3. həmin Məcəllənin 122.1-ci maddəsinin üçüncü cümləsində (Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən çıxarılan inzibati xəta haqqında iş üzrə qərarlara münasibətdə) "orqanın (qurumun) müvafiq informasiya sistemi" dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;";

4.1.4. 4.52-ci bənddə ", 97.3-cü maddəsinin birinci cümləsində, 127-2.4-cü maddəsinin birinci cümləsində (birinci və üçüncü hallarda) və ikinci cümləsində, 127-2.6-cı maddəsində" sözləri "və 97.3-cü maddəsinin birinci cümləsində" sözləri ilə, "Bakı Nəqliyyat Agentliyi" sözləri "Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi" sözləri ilə əvəz edilsin;

4.2. 5-ci hissə üzrə:

4.2.1. 5.33-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"5.33-1. həmin Məcəllənin 346-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Bakı şəhərinin inzibati ərazisində isə Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi qismində Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi baxır;";

4.2.2. 5.33-2-ci bənd ləğv edilsin.

**5** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 25-ci hissəyə "338.10," rəqəmlərindən sonra "338-1," rəqəmləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 48-2-ci hissə əlavə edilsin:

"48-2. Məcəllənin 454-1-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi adından – bu Siyahının 1-ci və 25-ci hissələrində nəzərdə tutulan vəzifəli şəxslər;".

**6** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I); 2024, № 2, maddələr 147, 158; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 6.1.14-cü yarımbənd ləğv edilsin;

6.2. 6.1.18-ci yarımbənddə ", elektron tərəzilərin və parkomatların" sözləri "və elektron tərəzilərin" sözləri ilə əvəz edilsin;

6.3. 7.4.8-ci yarımbənddə "parkomatlarda" sözü "SMS və ya xüsusi proqram təminatında" sözləri ilə əvəz edilsin;

6.4. 7.5-ci bənddə ", elektron tərəzilər və parkomatlar" sözləri "və elektron tərəzilər" sözləri ilə əvəz edilsin.

**7** Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 29 iyul tarixli 2258 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 7, maddə 983 (Cild I) ilə təsdiq edilmiş "Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə Qaydası"nın 2.1.2-ci yarımbəndindən "parkomatların," sözü çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2024-cü il**

# N.X.Hacıyevin "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiyinə görə general-leytenant Niyazi Xanbaba oğlu Hacıyev "Hərbi xidmətlərə görə" medalı ilə təltif edilsin.

**2.** Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2024-cü il**

# Azərbaycanın olimpiya və paralimpiya çempionlarına dövlət dəstəyinin artırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycanın paralimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi paralimpiya təqaüdü təsis olunsun və onun aylıq məbləği minimum aylıq əməkhaqqı məbləğinin 2 (iki) misli miqdarında müəyyən edilsin.

**2.** Müəyyən edilsin ki, bu Fərmanın 1-ci hissəsi ilə təsis edilən təqaüd Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına ödənilir.

**3.** Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdünün məbləği minimum aylıq əməkhaqqı məbləğinin 4 (dörd) misli miqdarında müəyyən edilsin.

**4.** "Azərbaycanın olimpiya çempionları üçün Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 10 oktyabr tarixli 798 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 10, maddə 594 (Cild I) 1-ci hissəsində "1300 (min üç yüz) manat məbləğində" sözləri "minimum aylıq əməkhaqqı məbləğinin 4 (dörd) misli miqdarında" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2024-cü il**

# “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1191-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1191-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 127-1.1-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 127-1.2-ci, 127-1.3-cü, 127-1.5-ci (hər iki halda) və 127-1.8-ci maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 127-1.2-ci, 127-1.5-ci (birinci halda) və 127-1.8-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 127-1.3-cü maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 127-1.1-ci maddəsinin ikinci cümləsində və 127-1.5-ci maddəsində “orqanın (qurumun) mərkəzi informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

1.5. həmin Məcəllənin 127-1.1-ci maddəsinin ikinci cümləsində “orqanın (qurumun) informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin “AYNA” informasiya sistemi nəzərdə tutulur.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1191-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**3.** “Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə üzrə:

3.1.1. 4.1-ci bənddə “127-1.2-ci (ikinci halda), 127-1.4-cü (ikinci halda), 127-1.6-cı (ikinci halda) və 127-1.8-ci (ikinci halda) maddəsində” sözləri “127-1.1-ci maddəsinin ikinci cümləsində (hər iki halda), 127-1.2-ci, 127-1.3-cü, 127-1.5-ci (hər iki halda) və 127-1.8-ci maddələrində” sözləri ilə əvəz edilsin;

3.1.2. 4.9-cu bənddən “127-1.2 (birinci halda), 127-1.3, 127-1.4 (birinci halda), 127-1.6 (birinci halda), 127-1.8-ci (birinci halda) maddələrində,” sözləri çıxarılsın;

3.1.3. 4.15-1-ci bənd aşağıdakı redaksiyada verilsin:

“4.15-1. həmin Məcəllənin 127-1.1-ci maddəsinin ikinci cümləsində “orqanın (qurumun) informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin “AYNA” informasiya sistemi nəzərdə tutulur;”;

3.1.4. 4.15-2-ci bənd 4.15-4-cü bənd hesab olunsun və aşağıdakı məzmunda 4.15-2-ci və 4.15-3-cü bəndlər əlavə edilsin:

“4.15-2. həmin Məcəllənin 127-1.1-ci maddəsinin ikinci cümləsində və 127-1.5-ci maddəsində “orqanın (qurumun) mərkəzi informasiya sistemi” dedikdə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi nəzərdə tutulur;

4.15-3. həmin Məcəllənin 127-1.2-ci, 127-1.5-ci (birinci halda) və 127-1.8-ci maddələrində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi nəzərdə tutulur;”;

3.1.5. 4.53-cü bəndə “cümləsində” sözündən sonra “və 127-1.3-cü maddəsində” sözləri əlavə edilsin;

3.2. 5.1-ci bənddə “353.1–353.4, 353.6” rəqəmləri “353” rəqəmləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci və 2.2-ci bəndlərdə “353.1–353.4, 353.6” rəqəmləri “353” rəqəmləri ilə əvəz edilsin;

4.2. 2.3-cü bənddə “353.2” rəqəmləri “353.1, 353.2, 353.4, 353.5” rəqəmləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 4 iyun tarixli 83 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı”nın 25-ci hissəsindən “353.5,” rəqəmləri çıxarılsın.

**6.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 sentyabr tarixli 1845 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 9, maddə 1034 (Cild I); 2024, № 2, maddələr 147, 158; Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 6 iyun tarixli 88 nömrəli Fərmanı) ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sistemi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

6.1. 6.1.12-ci yarımbənddə “, 127-1.4-cü və 127-1.6-cı” sözləri “və 127-1.5-ci” sözləri ilə əvəz edilsin;

6.2. 7-ci hissə üzrə:

6.2.1. 7.4.9-cu yarımbənddə “xətalar üzrə icraatın aparılması qaydasını tənzimləyən 127-1.4-cü və 127-1.6-cı maddələrində” sözləri “xətalarla bağlı 127-1.5-ci maddəsində” sözləri ilə əvəz edilsin;

6.2.2. 7.4.16-cı yarımbəndə “üzrə” sözündən sonra “, habelə həmin Siyahının 36-cı maddəsində nəzərdə tutulmuş icazə barədə” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2024-cü il**

# “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

“Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 30 mart tarixli 2553 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 3, maddə 258 (Cild I) birinci hissəsində “Samir Məmmədov” sözləri “Rəhman Hümmətov” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 24 iyul 2024-cü il**

# Prezident Administrasiyasının rəhbəri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi ilə görüşüb

**İyulun 24-də Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, COP29 üzrə Təşkilat Komitəsinin sədri Samir Nuriyev BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icraçı katibi Saymon Stil ilə görüşüb.**





Samir Nuriyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə COP29-a hazırlıq prosesi barədə məlumat verib, bu günlərdə ölkəmizin təşəbbüslərinin geniş ictimaiyyət üçün açıqlandığını, COP29-un müəyyən edilmiş Prezidentinin Çərçivə Konvensiyasının bütün tərəflərinə bu mötəbər tədbirlə bağlı planları, gözləntiləri əks etdirən müfəssəl məktub ünvanladığını bildirib.

Prezident Administrasiyasının rəhbəri COP29 Sədrliyinin bütün dövlətlərin və digər maraqlı tərəflərin mövqeyini öyrəndiyini, mühüm beynəlxalq toplantılarda iştirak etdiyini, fəal şəkildə çalışdığını diqqətə çatdırıb, ölkəmizin yeni iqlim maliyyəsinin məbləği üzrə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında konsensusa nail olunması üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

Samir Nuriyev, həmçinin COP29-a hazırlıq prosesi çərçivəsində Azərbaycanda keçiriləcək tədbirlər, konfransa qatılacaq nümayəndə heyətləri və digər iştirakçılar üçün yaradılacaq şərait, vətəndaş cəmiyyətinin COP29-da iştirakına dəstək, kommunikasiya sahəsində görülən işlərdən danışıb.

Saymon Stil Azərbaycan tərəfindən COP29-un uğurla keçirilməsi istiqamətində aparılan işlərdən, kiçik ada ölkələrinə dəstək verilməsinin Azərbaycanın gündəliyində yer almasından məmnunluğunu ifadə edib, BMT-nin COP29-un təşkili ilə bağlı Azərbaycana hər cür kömək göstərməyə hazır olduğunu bildirib.

***XQ***

# Azərbaycan–Türkiyə: Konstitusiya məhkəmələri əməkdaşlığı genişləndirirlər



**Ölkəmizdə səfərdə olan Türkiyə Konstitusiya Məhkəməsinin sədri Kadir Özkayanın başçılıq etdiyi nümayəndə heyəti ilə iyulun 24-də Azərbaycan Konstitusiya Məhkəməsində görüş keçirilib.**

Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev diqqətə çatdırıb ki, iki qardaş ölkə arasında hüquqi əməkdaşlıq uğurla inkişaf edir. Hər iki ölkənin Konstitusiya məhkəmələri də bu əməkdaşlığa öz töhfələrini verir. Azərbaycan və Türkiyə arasında olan sıx hüquqi əməkdaşlıq məhkəmə təcrübəsinin öyrənilməsi və aktual hüquqi məsələlər ətrafında fikir mübadiləsinin aparılması baxımından məhkəmə-hüquq təsisatlarının praktiki fəaliyyəti üçün çox vacibdir. Konstitusiya ədalət mühakiməsi orqanları arasındakı əməkdaşlıq həm ikitərəfli, həm Türk Dünyası Konstitusiya Yurisdiksiyaları Konfransı, həm də digər beynəlxalq təşkilatlar çərçivəsində uğurla inkişaf edir.

Türkiyə Konstitusiya Məhkəməsinin sədri Kadir Özkaya yüksək qonaqpərvərliyə görə Fərhad Abdullayevə minnətdarlığını ifadə edib. O bildirib ki, ölkələrimiz arasında bütün sahələrdə sıx əməkdaşlıq, o cümlədən hər iki məhkəmə arasında qarşılıqlı dəstək və anlaşma əsasında uğurla inkişaf edir. Konstitusiya məhkəmələri arasında məhkəmə-hüquq mübadiləsi konstitusiya ədalət mühakiməsinin səmərəliliyini artıracaq, beynəlxalq səviyyədə isə məhkəmələrin bir çox məsələlər üzrə bir mövqedən çıxış etməsinə xidmət göstərəcək.

Söhbət zamanı geniş fikir mübadiləsi aparılıb, məhkəmə-hüquq təcrübəsinə toxunulub, hüquqi məsələlər müzakirə olunub.

# Azərbaycan və Rusiya XİN-ləri arasında siyasi məsləhətləşmələr



**İyulun 23-də Moskva şəhərində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi ilə Rusiya Federasiyasının Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin növbəti raundu keçirilib.**

Məsləhətləşmələrdə nümayəndə heyətlərinə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Samir Şərifov, qarşı tərəfdən isə xarici işlər nazirinin müavini Mixail Qaluzin rəhbərlik ediblər.

Tədbirdə Azərbaycan–Rusiya ikitərəfli əməkdaşlığının mövcud vəziyyəti və inkişaf perspektivləri, gündəlikdə duran və qarşılıqlı maraq kəsb edən beynəlxalq və regional məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

Görüşdə iki ölkə liderləri arasında qarşılıqlı etimada əsaslanan və ikitərəfli gündəliyi formalaşdıran yüksək səviyyəli siyasi dialoqun dövlətlər arasında müttəfiqlik qarşılıqlı fəaliyyətin əsasını təşkil etməsi məmnunluqla vurğulanıb.

Siyasi məsləhətləşmələr zamanı iki ölkə arasında, həmçinin iqtisadi-ticarət, mədəni-humanitar, eləcə də beynəlxalq və regional təşkilatlar və formatlar çərçivəsində əməkdaşlıq və digər məsələlər müzakirə olunub, ikitərəfli müqavilə-hüquq bazası və baxılmaqda olan layihələr nəzərdən keçirilib.

Həmin gün nazir müavini Samir Şərifov ilə Rusiya xarici işlər nazirinin müavini Aleksandr Qruşko arasında da görüş keçirilib. Görüş zamanı beynəlxalq və regional təhlükəsizlik məsələləri, eləcə də hər iki ölkənin iştirak etdiyi regional formatlar çərçivəsində əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

S.Şərifov ilə Rusiya Federasiyası Prezidentinin xüsusi nümayəndəsi, Xəzər dənizi məsələləri üzrə danışıqlarda Rusiya nümayəndə heyətinin rəhbəri Mixail Petrakov arasında keçirilmiş görüşdə isə Xəzər məsələləri üzrə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf dinamikası müzakirə olunub.

# Ceyhun Bayramov İsrail Xarici İşlər Nazirliyinin baş direktoru ilə görüşüb

**İyulun 24-də xarici işlər naziri Ceyhun Bayramov ilə İsrail Dövlətinin Xarici İşlər Nazirliyinin baş direktoru Yakov Blitşteyn arasında görüş keçirilib.**



Görüş zamanı ikitərəfli və çoxtərəfli münasibətlərin müxtəlif aspektləri, o cümlədən ölkələrimiz arasında iqtisadi, təhlükəsizlik, yüksək texnologiyalar, təhsil, turizm, energetika, nəqliyyat və digər istiqamətlərdə əməkdaşlığın cari vəziyyəti və perspektivləri, həmçinin Qəzzada vəziyyət barədə geniş müzakirə aparılıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə postmünaqişə dövründə regionda mövcud vəziyyət, Azərbaycan–Ermənistan normallaşma prosesi barədə məlumat verib.

Ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində iki ölkə arasında əməkdaşlıq üçün əlavə imkan yarandığı qeyd edilib.

***XQ***

# Bakı–İrəvan təmasındakı Rusiya təşəbbüsü

(əvvəli 1-ci səhifədə)

Dövlətimizin başçısı 4 ay əvvəl Almaniya Kansleri Olaf Şoltsun Münxendə belə görüş təşkil etdiyini yada salmışdı: "Britaniya hökuməti eyni təklifi verdi ki, Britaniyanın Baş naziri iştirak edəcək, sonra görüşdən çıxacaq. Baş nazir Paşinyan bundan imtina etdi. Yəni, o, mənimlə danışmaq istəmirsə, hansı sülh sazişindən söhbət gedə bilər? O, Britaniyanın Baş naziri ilə danışmaq istəmirsə, o, Londona və Oksforda niyə səfər edirdi? Yəni, bir çox məsələlərdə çox ciddi ziddiyyət var. Ancaq biz baxacağıq".

Prezident İlham Əliyev, eyni zamanda, Ermənistanla sülh sazişinə dair fikirlərini də açıqlamış və müqavilə mətninin 80-90 faizinin razılaşdırıldığını dilə gətirmişdi. Ölkəmizin lideri bildirmişdi ki, Ermənistan Qarabağla bağlı müddəanı və terminologiyanı oradan götürməyə razı oldu və beləliklə, normallaşma prosesində irəliləyiş baş verir. Amma sülh gündəliyi ilə bağlı hazırda iki məsələnin açıq qaldığını vurğulayan dövlətimizin başçısı bu fikirləri səsləndirmişdi: "Onlardan biri odur ki, Ermənistan bizim təkliflərə müsbət cavab verməlidir. İkincisi, həm Ermənistan, həm Azərbaycan birgə ATƏT-ə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Çünki bu qrup artıq uzun müddətdir fəaliyyətsizdir".

Onu da bildirək ki, Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev jurnalistlərə bir neçə gün əvvəlki açıqlamasında Ermənistanla sülh prosesi baxımından 2 məqamın üzərində dayanmışdı. Bunlardan birincisi Ermənistan konstitusiyası idi: "Azərbaycan Prezidentinin də qeyd etdiyi kimi, Ermənistanın konstitusiyası dəyişməlidir, çünki orada Azərbaycana qarşı birbaşa ərazi iddiaları var".

H.Hacıyev Azərbaycana qarşı ərazi iddialarına son qoyulmasının vacibliyindən danışarkən bildirmişdi ki, rəsmi Bakı sülh sazişi ilə bağlı vaxt çərçivəsi qoymur və Ermənistanın konstitusional əsasda Azərbaycana qarşı ərazi iddialarına son qoymasını gözləyir: "Biz başa düşürük ki, konstitusiya hər bir ölkənin daxili işidir. Amma burada başqa ölkəyə qarşı ərazi iddiası olmamalıdır. Konstitusiyada digər dövlətin ərazisinə qarşı iddialar varsa, bunlara son qoyulmalıdır və hüquqi çərçivə tam şəkildə ərazi iddialarına son qoyacaq formada olmalıdır ki, bunun əsasında biz irəli gedək".



Göründüyü kimi, Azərbaycanın sülhlə bağlı mövqeyi, kifayət qədər, konkret və sabitdir. Bu sabitlik fonunda müxtəlif Qərb dairələrinin oynadıqları oyunlar göz qabağındadır. Onlar reallıqları dəyişməyə çalışırlar. Məqsədləri Ermənistan üçün sərfəli sülh gündəmi formalaşdırmaqdır. Buna nail olmaq üçün təzyiq vasitəsi kimi qiymətləndirilə biləcək hərəkətlərə də yol verirlər. Məsələn, Ermənistanın silahlandırılması. Aydındır ki, proses Bakı ilə İrəvan arasındakı qüvvələr nisbətində balans yaratmağa hesablanıb. Qərb ikincini silah-sursatla təmin edib müharibəyə dair subliminal mesaj verməklə, Azərbaycanı tutduğu yoldan çəkindirmək niyyəti güdür. Mövcud durum, istər-istəməz, barış mühitinə mənfi təsir göstərir ki, əslində, N.Paşinyanın Londonda Prezident İlham Əliyevlə görüşdən boyun qaçırması da bu baxımdan dəyərləndirilə bilər. Deməli, dövlətimizin başçısının "biz baxacağıq" fikrində vəziyyətin perspektivi ilə bağlı qeyri-müəyyənlik motivi var. Bu motiv isə özlüyündə Qərb vasitəçiliyinin səmərəliliyini şübhə altına alır.

Vasitəçilikdən söz düşmüşkən, məlumdur ki, 44 günlük müharibədən sonra mövcud platformada üstünlük Rusiyaya məxsus idi. Lakin sonradan, loru dildə desək, Kremlin başının Ukraynaya qarışması fonunda Qərbin təşəbbüsə yiyələndiyinin şahidi olduq. Bu yiyələnmədə Ermənistanın Rusiyadan uzaq durmaqla bağlı strateji xətti də öz sözünü dedi. Lakin Qərb vasitəçiliyi effektiv nəticə vəd etmədi və bunu Rusiyada çox yaxşı görürlər. Elə ona görə də M.Zaxarova ölkəsinin rolunu qabardır. Doğrudur, bu qabartma sırf vasitəçilik xüsusunda olmasa da, hər halda Moskvanın durumdan yararlanıb təşəbbüsü ələ almaq istəkləri duyulur.

Bəli, M.Zaxarovanın brifinqdə açıqladığı fikirlər, müəyyən mənada, sülh naminə Qərb təşəbbüslərinin iflasa uğramasından doğan təbii fürsətcillikdir. Bu, anlaşılan gedişdir. Bir halda ki, Qərb yekun nəticəyə gələ bilmir, Rusiya niyə kənarda qalsın ki? O da məlumdur ki, birinci vasitəçiliyə ikincini Cənubi Qafqazdan sıxışdırmaq aləti qismində yanaşır. Mövcud durumda Kreml ona görə məsələni süngü ilə qarşılamır ki, Azərbaycanın balanslı yanaşacağına inanır.

Zaxarova da bunu bilir. Ona görə də ehtiyatlıdır və fikirlərini Rusiyanın vasitəçiliyi kimi yox, danışıqlar üçün platforma vermək istəyi formasında ortaya qoyur. Yəni, prinsip etibarilə tərəflərin bir-biri ilə qarşılıqlı əsasda danışıq aparmasının zəruriliyi amilinə söykənir. Bununla belə, Zaxarova ölkəsini üstün tutan məqamları da açıqlayır. Məsələn, onun sözlərinə görə, Rusiya hələ 2022-ci ildə (Rusiya, Ermənistan və Azərbaycan liderlərinin 31 oktyabr tarixli bəyanatında qeyd olunub) regionda davamlı və uzunmüddətli sülhə nail olmaq üçün ölkələr arasında sülh müqaviləsinin bağlanmasına fəal hazırlığın vacibliyini vurğulayıb, mövcud xüsusda tərəflərə yardım göstərməyə davam edəcəyinə söz verib. "Yəni bizim yanaşmamız nəinki sabitdir, həm də ölkəmizin imzaladığı sənəddə qeyd olunub ki, bu cür yardımın həcmi və forması danışıqlar aparan tərəflərin hər biri üçün məqbul olmalıdır", – deyən Rusiya XİN-in sözçüsü ölkəsinin sülh müqaviləsi layihəsi ilə bağlı Azərbaycan–Ermənistan danışıqlarının raundlarına evsahibliyini gerçəkləşdirdiyini də xatırladıb. O, mövcud təcrübəyə istinadən qeyd edib ki, Moskva hər iki nümayəndə heyətinin ikitərəfli formatda işləməsi üçün ən rahat şəraitin yaradılmasına zəmanət verir. "Biz müttəfiqlərimiz arasında balanslaşdırılmış sülh müqaviləsinin bağlanmasını regionda bölünməz təhlükəsizlik və davamlı iqtisadi inkişaf arxitekturasının qurulması üçün ilkin şərt hesab edirik", – deyən Zaxarova, həmçinin Bakı və İrəvan arasındakı fikir ayrılıqlarının tezliklə həllinə və ən yüksək səviyyədə ikitərəfli razılaşmalara uyğun olaraq, Ermənistan–Azərbaycan münasibətlərinin normallaşmasının digər sahələrində də uğurlu irəliləyişin olacağına ümid bəslədiyini bildirib.

Xanım sözçünün yekundakı optimizmi düşünməyə vadar edir. Əlbəttə, onun pozitivliyi 44 günlük müharibədən sonrakı bəzi məqamları yada salmağa əsas verir. Bir qədər əvvəl Rusiyanın vaxtilə malik olduğu təşəbbüsü əldən verdiyini və buna səbəb kimi Ukrayna müharibəsini göstərdik. Amma başqa səbəblər də var idi. Məsələ ondadır ki, Kreml İkinci Qarabağ müharibəsindən sonra daha çox Ermənistanı öz orbitinə qaytarmağı düşündü. Bu baxımdan hətta sırf Qarabağ məsələsinin müzakirəsi mümkünlüyünü də qabardıb İrəvanı, necə deyərlər, şirnikləndirməyə çalışdı. Belə yanaşma Azərbaycan tərəfindən məqbul qarşılanmadı.

Yaxın keçmişin hadisələrinin bütün detallarının üzərində dayanmağa lüzum görmürük. Ümumən, Rusiyanın sülh axtarışlarındakı ayrı-ayrı məqamlarda ermənipərəstlik meyilləri özünü göstərmişdi və belə bir durumda Moskvanın danışıqlar prosesindəki öncüllüyünü itirməsi heç də onun qeyri-obyektiv mövqe tutması yox, erməni iqtidarının Rusiyanın köməyindən imtinası ilə bağlı idi. İndi vəziyyət dəyişibmi? Xeyr! Əksinə, Ermənistanda anti-Rusiya ritorikası və Qərbyönümlü xətt bir qədər də güclənib. Deməli, Zaxarovanın haqqında söz açdığı məsələnin də praktik əhəmiyyəti qalmayıb. Hər halda, görünən mənzərə budur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# İrəvan bütün oyunlarda "piyada" qalacaq

## Onun "yeni dostlar"ına bağladığı ümidləri illüziyadan başqa bir şey deyil

**Sözdə özünü Ermənistanla Azərbaycan arasında sülh sazişinin tezliklə imzalanmasına tərəfdar olduğunu söyləyən, əməldə isə danışıqlar prosesini ən müxtəlif vasitələrlə ləngitməyə çalışan Qərbun "qovluğunda nə gizlətdiyi" tapmaca deyil. Burada Qərb deyəndə, aydın məsələdir ki, ABŞ və Fransanı nəzərdə tuturuq. Vaşinqton və Paris (bundan sonra "Vaşpar" – red.) Cənubi Qafqazın onların orbitindən birdəfəlik çıxacağı faktı ilə heç cür razılaşmaq istəmirlər.**

Bəs, onları narahat edən nədir? Əlbəttə, Ermənistanın taleyi deyil. Axı, Şərq məhsullarının dünya bazarına çıxışını təmin edəcək ən vacib nəqliyyat qovşağı sayılan Orta dəhlizin Zəngəzur qolu daha çox Türkiyə və Azərbaycanın nəzarəti altında, eləcə də Rusiya və Çinin yaxından iştirakı ilə reallaşacaq. İndi Qərb texnoloqları bu "risk"in qarşısının alınmasının ən effektiv yolu, transmilli layihənin reallaşmasına əsas əngəl kimi məhz Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanmamasını görürlər. Bundan ötrü Vaşpar İrəvanı Bakı ilə sülhə gəlməkdən çəkindirmək üçün ona hərbi-siyasi dəstəyini artırıb. Oyunun ssenarisinə görə, Ermənistan ona verilən silahlardan özünün revanşist planlarını reallaşdırmaq üçün istifadə etməyə çalışacaq. Bu isə hayların təkcə Rusiyadan deyil, həm də sülhdən uzaqlaşması demək olacaq. Nəticədə Orta dəhliz layihəsi qeyri-müəyən müddətə təxirə düşəcək və Vaşpar Cənubi Qafqazla bağlı planlarını həyata keçirməkdən ötrü vaxt qazanacaq.

* * *

ABŞ Dövlət katibinin müavini Uzra Zeya İrəvana səfərində açıqladığı kimi, bundan sonra Pentaqonun nümayəndəsi Ermənistan müdafiə nazirliyində çalışacaq. Yəni, bu, o deməkdir ki, Vaşinqton Ermənistanın, sadəcə, hərbi sahəsini deyil, bütövlükdə, onun siyasi fəaliyyətini də öz nəzarəti altına alır. Moskvanın İrəvanın bu addımına kəskin reaksiyasını eşitdik. Bəs, indiki durumda Ermənistanın Rusiya və KTMT, eləcədə Avrasiya İqtisadi İttifaqı ilə müttəfiqlik əlaqələrinin davam etdiyi vəziyyətdə bu ölkənin müdafiə nazirliyində amerikalı hərbi kəşfiyyatçının yerləşməsi onun üçün hansı nəticələrə gətirib çıxara bilər? Biz hələ Bakının ABŞ Dövlət katibi Antoni Blinkenə verəcəyi tam məntiqi sualını demirik. Yəni, onun "Azərbaycanla Ermənistan sülh sazişini imzalamağa həmişəkindən daha yaxındırlar" sözlərinin səmimiyyətinə necə inanaq? Məsələyə yerli və xarici ekspertlərin münasibətini öyrəndik. Onların birinci suala verdikləri cavablarını oxuculara təqdim edirik.




**Qırğızıstanlı siyasi ekspert, tarix elmləri doktoru, professor Əsgər Cakişev** belə hesab edir ki, Paşinyan hökumətinin son siyasi addımlarına diqqət yetirsək, bu, onun KTMT üzvlüyündən və Rusiya ilə strateji tərəfdaşlıqdan uzaq-



laşması, ABŞ-yə, kollektiv Qərbə doğru hərəkət etməsi mənasına gəlir: "Qeyd etmək lazımdır ki, "yeni dostları" ilə əməkdaşlıqdan Ermənistanın gözləntiləri, sadəcə, illüziyadır. İrəvanın bu təhlükəli oyuna baş vurması KTMT-yə üzv ölkələr və regiondakı qonşularla, xüsusilə, Ermənistanla bütün əməkdaşlıq sazişlərinə yenidən baxmağa məcbur olacaq İranla münasibətlərinə heç də pozitiv təsir göstərməyəcək".

Kollektiv Qərbin bu kimi məsələlərdə işlətdiyi taktikaya toxunan ekspertə görə, amerikalılar keçmişdə sınaqdan çıxardıqları "Anakonda" adlı doktrinanı yenidən həyata keçirməyə çalışırlar: "Yəni, ABŞ özünə dost saymadığı ölkələrin ətrafında ona düşmən ölkələrin qurşağını yaratmaqla sərhədlərinin perimetri boyu təzyiq göstərir. Bu yolla qlobal rəqibi mühasirəyə alıb boğur. Qlobal güclərin bölgədə müşahidə olunan güzəştsiz toqquşmasında İrəvan şahmat taxtasındakı piyada rolunu oynayır. Bu isə Ermənistanın öz tarixindən ibrət dərsi almadığını və növbəti dəfə erməni xalqını fəlakətə sürüklədiyini göstərir. Rəsmi İrəvanın bu cür siyasi avantüralara getməsi nəinki erməni xalqını böyük problemlərlə üz-üzə qoyacaq, üstəlik, o, oyunun sonunda öz dövlətçiliyini itirmək təhlükəsi ilə üzləşə bilər".

Qonşu ölkədə baş verənlər kənar müşahidəçidə daxildən və xaricdən çeşidli təzyiqlərlə üzləşən Paşinyan iqtidarının başını itirməsi qənaətini yaradır. Bu zaman məhz xalqın və dövlətin mənafeyinə xidmət edəcək sülh sazişini imzalamaq əvəzinə, kənardan, həm də Vaşpar kimi şübhəli niyyətli aktorlardan yardım gözləməsi onun növbəti avantüranın qurbanı olacağını tezləşdirəcək.

* * *

"Amerikanın Cənubi Qafqazda məqsədi aydın və şəffafdır: Ermənistanı özünün xarici siyasət orbitinə cəlb etmək və onu Rusiyadan tamamilə qopartmaq. Bunun Moskvada qıcıq yaratmasının və



reaksiyaların şahidiyik". Bu fikirləri səsləndirən **Qərbi Kaspi Universitetinin professoru, politoloq Fikrət Sadıqov** "XQ"-yə açıqlamasında onu da xüsusi olaraq qeyd etdi ki, Ermənistan Rusiya ilə münasibətləri birdəfəlik qırmağa hələ tələsmir: "Amma indi söhbət başqa məsələdən gedir. Yəni, ABŞ Ermənistanın müdafiə nazirliyinə xüsusi nümayəndə göndərməklə, yaxud birgə təlimlər keçirməklə məqsədinə çata biləcəkmi? Ermənistanda hansısa fors-major hal yaranacağı təqdirdə, okeanın o tayından gəlib onun arxasında duracaqmı? Şəxsən mənim buna böyük şübhələrim var. Çünki postsovet məkanında baş verən proseslər bu ehtimalın əksini nümayiş etdirir. Gürcüstanın timsalında bunu gördük. Onlar 2008-ci ildə, faktiki olaraq, iki müxtar vilayətlərini itirdilər. O zaman Qərb, ABŞ ona kömək edə bilmədilər. Yaxud Ukraynanı götürək. Vaşinqton Kiyevə həm silah verir, həm də maliyyə yardımı göstərir. Eyni zamanda, xəbərdarlıq edir ki, onun raketləri ilə Rusiya ərazisinə zərbə endirməsin. Buna nə ad vermək olar? Bəs, Qərbin Ermənistana hərbi yardımının arxasında nə gizlənir? Hər şey ortalıqdadır. Onların Ermənistanı özlərinin maraq dairəsinə salmaq, ondan maşa kimi istifadə etmək niyyətləri göz qabağındadır. Gürcüstan kimi, sabah Ermənistanda da vəziyyət qəlizləşsə, ABŞ-nin onun arxasında dayanacağına inanmıram. Sadəcə olaraq, məlumdur ki, Vaşinqton və Parisin oyunları müəyyən xəttə qədərdir. O xətti keçənə dərhal arxa çevirirlər. ABŞ-nin Ermənistanı müdafiə etmək naminə ora qoşun yeridəcəyi və ya hərtərəfli müdafiə edəcəyi ağlabatan məsələ deyil. Yuxarıda sadaladığım nümunələr vaxtilə bunun tam əksini sübuta yetirib".

Doğrudan da, son nəticədə ABŞ bölgədə nəyə nail olmağa çalışır? Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tam bərpa etməsi Cənubi Qafqazda çoxdan qurulmuş hərbi-siyasi konfiqurasiyasını dəyişdi. Bakı dost və qardaş Türkiyənin, eləcə də etibarlı portnyorlarının dəstəyi ilə Vaşpar kimi bölgəyə bayraqlarını sancmaq istəyən kənar güclərin maraqlarına ciddi zərbə endirdi. Azərbaycan hakimiyyəti regionda maraqları toqquşan həmin güclərə onun iradəsindən kənar hərəkət troyektoriyası tanımadığını sübut elədi. Prezident İlham Əliyevin II Şuşa Qlobal Media Forumunda ABŞ-nin demokratik administrasiyası ilə münasibətlərlə bağlı çıxışında bölücü xətlərin yolverilməz olduğunu xüsusi vurğulaması təsadüfi deyildi. Yəqin Ağ ev bu tezisin altında nəyin nəzərdə tutulduğunu anlamamış deyil.

* * *

**Ankara Universitetinin professoru, politoloq Toğrul İsmayıl** da hazırda bölgədə geosiyasi oyunların getməsi versiyası ilə razılaşdığını bildirdi: "Amerikalılar həmişə Qafqaz regionunda maraqlı olublar. Hazırda ABŞ-nin bölgədə ən böyük səfirliyi İrəvandadır. Bu, onu deməyə əsas verir ki, amerikalılar Ermənistanın ondan özünün geosiyasi maraqları üçün istifadə etmək istəyini çoxdan görüblər. Ermənistan həmişə bu cür manevrlər edir, böyük dövlətlərlə oynamağa çalışır və sonda öz siyasətçilərinin ağılsız hərəkətləri ucbatından erməni xalqının



başı ağrıyır. Bu səbəbdən onlar bütün dünyaya səpələniblər. Reallıq ondan ibarətdir ki, Ermənistan həm Rusiya, həm də KTMT ilə razılaşmaları pozur. Bu da Ermənistanın özünə problemlər yaradır. Amma təəssüf ki, onlar öz hərəkətləri ilə bütün Cənubi Qafqazı böyük dövlətlərin oyunları üçün platsdarma çevirirlər".

İrəvanın Moskva və KTMT ilə gələcək münasibətlərinin onun öz ixtiyarında olduğunu deyən politoloq bundan Azərbaycanın və Türkiyənin narahat olmadığına diqqəti çəkdi: "Çünki Bakının artıq həm Rusiya, həm də ABŞ ilə normal münasibətləri var. Qoy Ermənistanın başbilənləri, erməni xalqı bunlarla necə davranacağını düşünsün. Bəli, onun üçün heç də hər şey asan deyil. Düşünürəm ki, bu proseslər erməni cəmiyyətində daha böyük stressə səbəb olacaq və ciddi fəsadların yaranması mümkündür. Axı, Ermənistan ərazisində Rusiyanın hərbi bazası, əsgərləri, texnikası var və zəif İrəvan üçün bu keçmiş "varidat"dan qurtulmaq asan olmayacaq. Vaşinqton isə Ermənistandan bölgədə öz məqsədlərinə çatmaq üçün istifadə edə, sonra da onu tam unuda bilər. Deməli, ermənilərin öz başları ilə düşünməyə başlamasının vaxtı çatıb".

Bundan ötrü Bakı İrəvana kifayət qədər vaxt və imkan verdi. İndi böynuna götürdüyü öhdəliyin yerinə yetirməyin, verdiyi vədə əməl etməyin məqamıdır. Ermənistan konstitusiyasında qonşularına torpaq iddialarını təmizləməli, Minsk qrupunun "de-yure" buraxılması üçünə ATƏT-ə müraciət etməli, Zəngəzur dəhlizin ilə bağlı mövqeyini dəqiqləşdirməlidir. Bunlar Bakının sülh sazişinin mətninə onuncu əlavə və təklifləri deyil, dəyişməz şərtləridir. Əks-təqdirdə İrəvan nəinki sülh müqaviləsini unutmalı, üstəlik, 1987-1988-ci illərdə doğma yurdlarından qovduğu azərbaycanlıların Ermənistana qayıtmasını təmin etməli, onların bu hüququna hörmətlə yanaşmalı və təbii istəklərini yerinə yetirməlidir. Məgər beynəlxalq hüquq, həmçinin dəstəyinə arxalandığı Vaşparın insan hüquqları ilə bağlı müəllifi olduqları konvensiyalar bunu tələb etmir?

***İmran BƏDİRXANLI***
***XQ***



## Milli Məclisə seçkilərə 37 gün qaldı

**SEÇKİYƏ GƏL, SƏS VER, SEÇİLMİŞLƏRDƏN OL!**



# Tahir Budaqov MDB PA-nın müşahidə missiyasının üzvləri ilə görüşüb




**İyulun 24-də Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının təşəbbüsü ilə Yeni Azərbaycan Partiyası Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla MDB PA Şurası Katibliyi rəhbərinin müavini, MDB PA yanında Demokratiyanın, parlamentarizmin inkişafı və vətəndaşların seçki hüquqlarına riayət olunmasının monitorinqi beynəlxalq institutunun (DİMBİ) direktoru İvan Muşket və müşahidə missiyasının digər üzvləri arasında onlayn formatda görüş keçirilib.**

Görüşdə İvan Muşket müşahidə missiyasının tərkibi və fəaliyyəti haqqında məlumat verib, missiyanın işini dövlətlərin suverenliyinə hörmət və daxili işlərinə qarışmama, obyektivlik və qərəzsizlik prinsipləri, həmçinin MDB-yə üzv dövlətlərdə demokratik seçkilərin standartları, seçki hüquq və azadlıqları haqqında Konvensiya əsasında qurduğunu deyib.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Tədbirlər Planı əsasında görülmüş və nəzərdə tutulan işlər barədə də məlumat verib.

# MSK və DİN-in birgə layihəsinə start verilib

**2024-cü il sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Daxili İşlər Nazirliyi ilə birgə layihəsi çərçivəsində iyulun 24-dən etibarən regional seminar-müşavirələrə başlanılıb.**

İlk tədbir dünən Mərkəzi Seçki Komissiyası və Daxili İşlər Nazirliyi təmsilçilərinin də iştirakı ilə Bakı şəhər Baş Polis İdarəsində təşkil olunub.

Milli Məclisə seçkilərdə polis əməkdaşlarının xidməti fəaliyyətinə həsr olunan seminar-müşavirələrdə ölkə üzrə bütün seçki dairələri dairə seçki komissiyalarının sədrləri və polis orqanları nümayəndələrinin iştirakı nəzərdə tutulur.

Tədbirlərdə Mərkəzi Seçki Komissiyasının üzvləri, Komissiya Katibliyinin əməkdaşları və Daxili İşlər Nazirliyinin müvafiq qurumlarının nümayəndələri tərəfindən Milli Məclisə seçkilərin hazırlanıb keçirilməsində, seçkiqabağı təşviqat dövründə, habelə səsvermə günü və ondan sonrakı proseslərdə polis əməkdaşlarının qanunvericiliklə müəyyənləşdirilmiş rol və vəzifələri barədə təqdimatlar keçirilir, çıxışlar dinlənilir və müzakirələr aparılır.




Maarifləndirmə və məlumatlandırma xarakterli seminar-müşavirələr növbəti mərhələdə iyulun 25-də Gəncədə, iyulun 26-da Şəkidə, iyulun 29-da Şirvanda və iyulun 30-da Naxçıvanda keçiriləcək.

Qeyd edək ki, Milli Məclisə seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyası Daxili İşlər Nazirliyi ilə birgə "Polis əməkdaşları üçün yaddaş kitabçası" da hazırlayıb və aidiyyəti üzrə çatdırılıb.

# Xınalıq yüksək seçki ab-havasına köklənib



**Azərbaycanın ən yüksək yaşayış məntəqələrindən olan Xınalıq kəndində növbədənkənar parlament seçkilərinə ciddi hazırlıq işləri davam edir. Şəhid Rüfət Kəlbiyev adına Xınalıq kənd internat tam orta məktəbində yerləşən 13 saylı seçki məntəqəsi 59 saylı Quba seçki dairəsinin əhatəsindədir. Məntəqə seçki komissiyasının sədri Yunis Dəmirov bizimlə söhbət zamanı dedi ki, Quba rayonunun mərkəzindən 60 kilometr uzaqda, Baş Qafqaz və Yan silsilələri arasında, dəniz səviyyəsindən 2300 metr yüksəklikdə yerləşən Xınalıqda əhali seçki ab-havasındadır. Altı ay əvvəl keçirilmiş növbədənkənar prezident seçkilərində havanın kəskin soyuq, qarlı-şaxtalı olmasına baxmayaraq, hamı səsvermədə iştirak etdi. İndi isə kənd sakinləri parlament seçkilərinə hazırlaşır.**





Y.Dəmirov ixtisasca filoloqdur. Xınalıqda doğulub, böyüyüb. Xınalıq kənd internat tam orta məktəbinin müəllimidir. İyirmi ildən çoxdur ki, seçki prosesində fəaliyyət göstərir. O, dedi ki, Xınalıq əhalisinin məşğuliyyətinə və yaşam tərzinə görə də çox unikal bir yerdir. Buradakı köç prosesi, hər il yaylaqda və qışlaqda məskunlaşma olduqca maraqlıdır. Prezident İlham Əliyevin sərəncamı ilə Azərbaycanın mədəni irsi üçün əhəmiyyətli olan köç yolunun yerləşdiyi ərazinin qorunması, vahid idarəetmə modelinin yaradılması və burada məsuliyyətli turizmin inkişaf etdirilməsi məqsədilə "Xınalıq və Köç Yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğu yaradılıb. Dövlət Turizm Agentliyinin tabeliyində olan qoruqda mədəniyyət və turizm əhəmiyyətli tarixi, memarlıq, arxeoloji, etnoqrafik və digər abidələr yerləşir. UNESCO-nun Səudiyyə Ərəbistanının Ər-Riyad şəhərində keçirilən Ümumdünya İrs Komitəsinin 45-ci sessiyasında "Xınalıq kəndi və Köç yolu"nun bu təşkilatın mədəni irs siyahısına salınması barədə qərar verilib.

Məntəqə sədri dedi ki, parlament seçkilərində 1209 seçicinin səs verməsi gözlənilir: "80–90 yaş arası 15 seçicimiz var. Seçki keçirilən gün 18 yaşı tamam olanların sayı isə 14-dür. Dediyim kimi, kəndimiz turistlərin daha çox gəlib-getdiyi məkandır. Seçki günü seçicilərimizin sayı arta da bilər. Çünki həmin gün əlində qeydiyyatdançıxma vəsiqəsi olan turistlər bizim seçki məntəqəsində səs vermək hüququna malikdirlər. Seçki məntəqəsindəki hazırlıq işlərinə gəlincə, artıq səsverməyə hazırıq. Seçki üçün nə tələb olunursa, məntəqəyə verilib. Məntəqənin daimi elektrik enerjisi ilə təmin olunması məqsədilə gətirilmiş generator işlək vəziyyətdədir.

Ağsaqqal və ağbirçəklər ucqar dağ kəndinə çəkilmiş rahat yola, yaradılmış şəraitə görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya minnətdarlıqlarını bildirdilər:

**Mürsüd Zeynalov:** – Yaşım 90-nı haqlayıb. Gözümü açandan Xınalıqda yaşamışam. Möhtərəm Prezidentimiz İlham Əliyevin tapşırığından sonra yolumuzun genişləndirilməsi, asfaltlanması bizə böyük sevinc bəxş etdi. Yolun çətinliyi üzündən illərlə Xınalığa həsrət qalanlar yenidən doğma yurda qayıtdılar. Hamımız seçki günün səbirsizliklə gözləyirik.

**Ərkinaz Dəmirova:** – Xınalığa çəkilən yolun yaxın ərazilərdəki 12 kəndin əhalisi üçün də mühüm əhəmiyyəti var. Ucqar dağ kəndində yaradılan şəraitdən hamımız razıyıq. Biz də dövlətin tədbirlərində hamılıqla iştirak edib, istədiyimiz namizədə səs verəcəyik.

**Tamam Əsədova:** Kəndimiz uzunömürlülər məkanı kimi də tanınıb. Maşallah, hamımız özümüzü yaxşı hiss edirik. Bizə deyirlər ki, seçki məntəqəsinə gəlməyə çətinlik çəkirsinizsə, yaşadığınız evə qutu göndərək. Biz razı deyilik. Qışda seçki məntəqəsinə gəldiyimiz kimi, bu dəfə də gələcək və səsvermədə iştirak edəcəyik.





**Ələddin Babayev:** – Mən uzun müddət müəllim işləmişəm. Hazırda pensiyadayam. Seçkilərin siyasi əhəmiyyətli kampaniya olduğunu yaxşı bilirəm. Bu barədə yeri gəldikcə, cavanları və yeniyetmələri də məlumatlandırıram. Onsuz da kənddə seçkilərlə aparılan işlərdən hamıya bəllidir ki, sentyabrın 1-də parlament seçkiləri keçiriləcək. Biz bu seçkilərdə də mütəşəkkil iştirak edəcəyik. Qoy füsunkar təbiəti, gözoxşayan gözəllikləri, meşələri, dağları, rahat yolu ilə respublikada tanınan Xınalıq mütəşəkkil seçki keçirilən məkan kimi də tanınsın.




# Qadınların fəallığının yüksəldilməsinə həsr olunan "dəyirmi masa"

**2024-cü il sentyabrın 1-nə təyin olunmuş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə layihəsi çərçivəsində iyulun 24-də "dəyirmi masa" keçirilib.**

MSK-nın müxtəlif statuslu seçki iştirakçılarını əhatə edən genişmiqyaslı maarifləndirmə proqramı əsasında gerçəkləşdirilən layihə cəmiyyətdəki aktiv mövqeyi, məqsədyönlü fəaliyyətləri günbəgün güclənən Azərbaycan qadınlarının qarşıdan gələn seçkilərdə fəallıqlarının daha da yüksəldilməsi üçün yaradılan geniş və hərtərəfli imkanların müzakirəsinə həsr olunub.

Tədbirdə çıxış edən MSK sədri Məzahir Pənahov qurumlararası sıx əməkdaşlıq sayəsində ərsəyə gələn müxtəlif layihələrin qadınların seçkilərdə azad və sərbəst fəaliyyətinin təkmilləşdirilməsi, məlumatlılığının artırılması, eyni zamanda, fəallığı baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb. O ölkəmizdə keçirilən seçkilərdə qadınların rolunun çox böyük olduğunu, həmçinin seçicilərimizin çoxunun qadınlar olduğunu bildirib. Seçkilərdə fəallığı baxımından gözə görünməyən, amma effektli olanlar da qadınlardır.

Artıq yeni bir Azərbaycanda yaşadığımızı qeyd edən MSK sədri deyib: "Azərbaycan 2020-ci ildə Ali Baş Komandanın rəhbərliyi ilə bu xalqın, yenilməz Ordumuzun nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi. Bu dövrdə yaşamağımız bizə nəsib olan çox böyük bir xoşbəxtlikdir. Azərbaycan yüz illərdir arzu etdiyi, həsrətində olduğu halların reallaşdığını görür. Ona görə çalışmalıyıq ki, bizə aid olan sahələrdə öz fəaliyyətimizi həmin standartlar üzərində quraq. Azərbaycan ərazi bütövlüyünün və suverenliyinin tam bərpasından sonra artıq ikinci dəfə seçki keçirəcək. Birincisi fevral ayında keçirilən prezident seçkiləri idi. Biz onu "Zəfər seçkisi" adlandırırdıq. Mən hesab edirəm ki, o, prezident seçkiləri ilə bağlı Zəfər seçkiləri idi, bu isə Milli Məclisə seçkilər baxımından Zəfər seçkisi olmalıdır".

Dəyirmi masada çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova vurğulayıb ki, istər qadın, istər kişi olaraq biz, ilk növbədə, hüquqlarımızı bilməliyik. Hər bir Azərbaycan vətəndaşının ölkənin ictimai-siyasi həyatında, bütün səviyyələrdə bərabər şəkildə iştirak hüququ var. Bu hüquqdan bərabər istifadə edək, bərabər iştirak edək və təmsil olunaq. Eyni zamanda, nəticələrə məsuliyyətlə cavabdehlik daşıyaq.

Komitə sədri deyib ki, bizim bu qəbildən olan məlumatlandırma kampaniyalarımızın məqsədi bu bərabərliyi təmin etməkdir. Biz bütün demokratik ölkələrin əksəriyyətindən əvvəl qadınlara seçmək və seçilmək hüququ vermişik. Keçdiyimiz inkişaf yolu, əldə etdiyimiz nailiyyətlər bizi o həddə gətirib çıxarıb ki, biz kişilərdən öndə olmalı deyil, onlarla çiyin-çiyinə, bərabər şəkildə qurduğumuz bu dövlətə töhfələrimizi verməliyik, bərabər iştirak etməliyik, bərabər cavabdehlik daşımalıyıq.

Sonra "dəyirmi masa"nın gündəliyinə uyğun olaraq Mərkəzi Seçki Komissiyası və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi təmsilçilərinin təqdimatları dinlənilib. İştirakçılar seçki hüququnun konstitusion əsasları, onun təmin edilməsi və həyata keçirilməsi formaları, eləcə də Milli Məclisə seçkilərdə qadınların fəallıqlarını daha da artırması üçün imkanlar barədə ətraflı məlumatlandırılıb.

Tədbirdə Mərkəzi Seçki Komissiyası və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin rəhbərləri və digər təmsilçiləri ilə yanaşı, qadın məsələləri üzrə təşkilatlar, vətəndaş cəmiyyəti institutları və ictimai birliklərin nümayəndələri iştirak ediblər.

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası

**Məzahir Pənahovun sədrliyi ilə iyulun 24-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın iyulun 22-də keçirilən iclasının protokolu təsdiq edilib.

Sonra bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi məsələsinə baxılıb. Mərkəzi Seçki Komissiyasının qərarı ilə 5 saylı Babək–Naxçıvan–Culfa və 68 saylı Sabirabad–Şirvan seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişiklik olunub.

Daha sonra 2024-cü il sentyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərlə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Maraqlı subyektlərin də bilavasitə iştirakı ilə Komissiya üzvlərinin geniş müzakirəsi nəticəsində vətəndaşların seçki hüquqlarının daha səmərəli və effektiv təmin olunması üçün hərtərəfli və obyektiv araşdırılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Media mənsubları tərəfindən operativ işıqlandırılan iclasda, həmçinin cari məsələlərə də baxılıb.

**XQ**

*Səhifəni hazırladı:*
*Əliqismət BƏDƏLOV*
*XQ*

# Dezinformasiyaya qarşı mübarizə: Prezidentin yeni tarixi mesajları

**Biz diqqətimizi xalqımıza, ölkəmizə yönəltdik, dedi-qodulara, Avropa Parlamentində və ya Avropa Şurasında hansısa bəyanatlara fikir vermədik.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**





**III MƏQALƏ**

## İnformasiya savaşının yeni mərhələsi

Azərbaycan Prezidentinin Şuşadan yeni səslənişləri dövlətin regionda geosiyasi duruşunu, multiregional miqyasda isə əsas məqsəd və niyyətlərini yaxşı ifadə edir. Bu baxımdan İlham Əliyevin KİV-i regionda və Azərbaycanda baş verən hadisələrə obyektiv yanaşmağa dəvət etməsi informasiya savaşında yeni mərhələnin başlanğıcıdır. Bu mərhələ öncəki dövrlərdən asan deyildir. Əksinə, daha məsuliyyətli və fəal olmağın zamanıdır. Dövlət başçısı bu məqamı müxtəlif kontekstlərdə dəfələrlə təkrar edir. Çünki yeni mərhələnin özəlliyini, əhəmiyyətini və Azərbaycan dövlətinin qarşısına qoyduğu məqsədlər baxımından onun strateji dəyərini izah edir.

Bəs yeni mərhələnin hansı özəllikləri var? Azərbaycan cəmiyyətindəki informasiya prosesləri göstərir ki, kənar təsirlər özünün fərqli tərzinə qədəm qoymuşdur. İndi informasiya müharibəsi aparanlar həm təsir üsullarını, həm də onun dərəcəsini yeniləşdirmişlər. Təsir üsullarında, əsasən, cəmiyyətin daxilindəki əhval-ruhiyyəni dövlətçilik əleyhinə dəyişməyə yönəldilmişdir. Onlar dolayısı ilə dövlətin başçısına və xalqın liderinə inamsızlıq yaratmağa istiqamətlənmişdir. Lakin bunu sosial məsələlər kontekstində reallaşdırmağa çalışırlar ki, bu da əsl niyyəti maskalamağa xidmət edir.

## Preventiv informasiyalar və təxribatlar

"Preventiv" termininin latın və fransızcada mənası "xəbərdaredici", "önləyici"dir. Hər hansı bir prosesi ya önləməyə cəhd etmək, ya da onu başqa istiqamətə yönəltmək məqsədi ilə informasiya müharibəsində də istifadə olunur. Adətən, preventiv informasiyalar birbaşa hədəfə yönəldilmir – ona ən yaxın olan məqamlara istiqamətlənir ki, bu da seçilən hədəfin ətrafında nəzərdə tutduğu informasiya mühitini korlamaq məqsədini daşıyır.

Burada təhlükəli cəhət informasiya mühitini təhrif etmək və ya reallığa uyğun olmayan kontekstdə süniləşdirməklə, zəncirvari olaraq cəmiyyətdə rəyi dəyişə bilmələri ilə bağlıdır. Azərbaycan Prezidenti Şuşadakı tədbirdə bu cür informasiyaların mümkün nəticələrini dəqiq ifadə etmişdir. İlham Əliyev demişdir ki, natamam, qeyri-dəqiq informasiyalar elə olur ki, "gündəlik həyatımıza çevrilir". Onun nəticələrindən biri də belə növ situasiyalarla mübarizə aparmağın çətinliyi ilə əlaqəlidir. Onda belə təxribatçı informasiyalara qarşı həqiqi informasiyalardan preventiv yararlanmaq səmərəli ola bilər. Bunun üçün isə dəqiq önləyici tədbirlər və informasiyaları təbliğ etmək mexanizmləri işlənməlidir.

İndi Azərbaycan cəmiyyətində preventiv informasiya savaşının əlamətləri vardırmı? Bizcə, onu bir neçə istiqamətdə müşahidə etmək olar. Son zamanlar cəmiyyətdə sosial-psixoloji problemlərin artdığı təəssüratı yaratmaq üçün müəyyən qaydada seçilmiş informasiyaları yaymağa çalışırlar. Ayrı-ayrı adamların şəxsi həyatından yalnız neqativ xarakterli informasiyanı seçir və özlərinə sərf edən məzmunda yayırlar. Adətən, bu kimi cəhətlər Azərbaycan ailəsində ona xas olmayan halların xüsusi kəskinliklə tədqimatında özünü göstərir. Bir neçə milyonluq ailələrdən müsbət əhval-ruhiyyə yaradan faktları deyil, mənbəyi bəlli olmayan neqativliyi təqdim edirlər.

Məsələn, azərbaycanlı gənc oğlan və ya qızın cəmiyyətdə kifayət qədər müsbət hərəkətləri olur. Onlardan ötəri yazırlar. Azərbaycan ailəsinin başçısının öz həyat yoldaşı və övladları üçün fədakarlıq nümunələrinin sayı-hesabı yoxdur. Bu informasiya nümunələrinə də nadir hallarda rast gəlinir. Əvəzində isə "şok" adı ilə valideynin öz övladlarına əl qaldırmasından, ailə xəyanətlərindən, bəzi məşhurların həyatının neqativ tərəflərindən bol-bol yazırlar.

Başqa bir istiqaməti xüsusi olaraq dövlətin polisinə qarşı təxribatçı informasiyaların yayılması təşkil edir. Çox müxtəlif qondarma situasiyalar təsvir edirlər və polisi günahkar çıxarmağa çalışırlar. Araşdırmalar isə tamam başqa reallığı ortaya qoyur.

Son zamanlar Azərbaycanın bölgələri arasında intriqa yaratmağa belə yönəlmiş qondarma informasiyalara yer verilir. Həmin növdən yaxın keçmişdə 6-7 ay bundan öncə ABŞ-də baş vermiş bir cinayət hadisəsini anti–Azərbaycan ruhda yenidən informasiya məkanına çıxarmışlar. Orada yazırlar ki, bir regiondan olan filankəs başqa regiondan olan iki soydaşımıza zərər yetirmişdir. Belə çıxır ki, zərər görənlər soydaşımızdır, o birisi deyil. Bu kimi primitiv üsul bəzən insanların şüuruna pis təsir edir.

İndi Azərbaycanda tanınmış mədəniyyət (əsasən musiqi) adamlarının şəxsi həyatı haqqında cəmiyyətin ruhuna uyğun olmayan tərzdə informasiyalar verirlər. Yenə də həmin "şok" və ailə ənənələrinə uyğun olmayan məlumat. Filan müğənni və ya aktyor ailə qurmur, lakin sevgili olmaqdan şaddır. Və yaxud bir uşaq dünyaya gətirir, lakin atası...bilinmir.

Sözün həqiqi mənasında, bunları yazmaq bir azərbaycanlı üçün çox ağırdır. Lakin buna bənzər informasiyaları son zamanlar çox hallandırırlar və bu da zəncirvari olaraq insanların psixologiyasına təsir edə bilər.

Hətta dilimizə böhtan atırlar. Onu təhrif edirlər. Danışıqda və yazıda xarici ifadələrdən elə istifadə edirlər ki, elə bil təmiz Azərbaycan dili elə belə olmalıdır. Bir zamanlar Anadolu kəlmələrinə üsyan edənlər indi lal-kardırlar. Adət-ənələrimizə dil uzadanların qınağına az rast gəlinir. Məqsəd nədir? Son məqsəd cəmiyyətdə insanların bir-birinə inamsızlığını yaratmaqdır. Bu proses genişlənəndə insanlar bir-birinə qarşı aqressiv olurlar, çünki KİV-dən aldığı məlumatlara görə, vətəndaş qarşısına çıxanı ləyaqətsiz, fırıldaqçı, topluma, millətə, doğru insanlara düşmən olan birisi kimi görürlər. Buna görə də hər sözə aqressiv reaksiya verə bililər ki, bu da intriqalara, ixtilaflara səbəb olur. Hətta, bütöv cəmiyyətdə belə bir əhval-ruhiyyəni yaratmaq üçün ən yeni elmi istiqamətlərdən də (məsələn, nanopsixologiyadan) istifadə edə bilirlər. Həmin elmdə qondarma "informasiya memləri" (xüsusi psixoloji kodlar) yaradırlar və incə üsullarla insanların beyinlərinə yeridirlər. Bu, uğurlu olsa, cəmiyyətin psixoloji durumu təhrif olur ki, onda da artıq gecdir.

Beləliklə, preventiv təxribatçı informasiyaların təsiri cəmiyyətin bütövlüyü baxımından faciəvi ola bilər. İlk baxışdan lokal məişət hadisəsi kimi görünən hadisə qəfil bütün cəmiyyətim problemi səviyyəsinə yüksələ bilər.

## Regional miqyasda dezinformasiya ilə mübarizə

İndi Cənubi Qafqazda konkret bir cəmiyyətdə parçalanma və başqa dağıdıcı tendensiyalar yaratmaqla kifayətlənmirlər. Çünki İlham Əliyev faktiki olaraq region miqyasında bir geosiyasi düzən, qayda və əməkdaşlıq mühiti yarada bilmişdir. Şuşada məsələnin bu tərəfinə işarə edən Azərbaycan Prezidenti demişdir: "Region ölkələri ilə sıx əlaqələr bizə iqtisadi problemlərin böyük əksəriyyətini həll etməyə imkan verdi". Bunun da kökündə Azərbaycan Prezidentinin yeritdiyi regional siyasət dayanır. Çünki Azərbaycan "qarşılıqlı hörmət, qarşılıqlı anlayış, qarşılıqlı maraqların gözlənilməsi və uzun əsrlər boyu xalqlarımız arasında əlaqələrə əsaslanaraq münasibətləri formalaşdırır".

Əlbəttə, bunları bizə dost olmaq istəməyən dairələr də görür və mənasını anlayırlar. Onlar başa düşürlər ki, Cənubi Qafqaz yalnız geosiyasi deyil, həm də müxtəlif xalqların birgə yaşadığı məkan kimi dəyişir. Cənubi Qafqazın lideri dövlətləri, xalqları birləşdirir və faktiki olaraq burada yeni tarix başlayır. Deməli, bu prosesin qarşısını almaq üçün Lideri gözdən salmaq, ona qarşı inamsızlıq yaratmaq lazımdır. Həmin məqsəd daxilində də yerli xalqlar arasında yeni intriqalar meydana gətirmək, tarixi təhrif etmək, birinin digərlərindən daha üstün olduğu qənaətini yaratmaq, əməkdaşlığın xalqa xeyri olmadığı təəssüratı formalaşdırmaq və digər məkrli niyyətlər yer almaqdadır.

Buna bir neçə dəfə cəhdlər oldu. Məsələn, Azərbaycanla Gürcüstan arasında mədəniyyət sahəsində (sərhəddəki kilsə məsələsi), məişət səviyyəsində (Dmanisidə svanlarla azərbaycanlıların savaşını təşkil edib, onu internetdə yaymaq) və digər cəhdləri xatırlamaq olar.

Azərbaycanla Ermənistan arasında qarşılıqlı etibarsızlıq və inamsızlığı alovlandırmağa yönəlmiş saysız-hesabsız addımları hər kəs görür. Kənardan çalışırlar ki, bu iki xalq bir-biri ilə heç vaxt anlaşmasın, daim düşmən kimi qalsın. Onlar bilirlər ki, bu yolda ən böyük əngəl İlham Əliyevin liderlik məharətidir.

İndi regional miqyasda vəziyyəti məcrasından çıxarmaq üçün Gürcüstanda, Rusiyada və İranda azərbaycanlılara qarşı təxribat törədə bilərlər. Xüsusilə, Rusiya və Gürcüstan bu aspektdə daha həssas bir nöqtəyə gəlmişlər. Rusiyada dini radikalizmdən istifadə edə bilərlər. Gürcüstanda isə avropapərəstlərlə rusiyapərəstlərin savaşında azərbaycanlılardan müəyyən məqsədlə vasitə kimi istifadə etməyə cəhdlərin edilməsi istisna deyildir.

Bunların fonunda Ermənistanı müəyyən hərbi-ideoloji təxribata sövq edib, regional etibarsızlıq mühiti yarada bilərlər. İnformasiya savaşının başqa növlərindən də istifadə istisna deyildir.

Bütün bunlar Azərbaycan Prezidentinin Şuşadan etdiyi xəbərdarlıqların nə dərəcədə əhəmiyyətli olduğunu təsdiqləyir. İlham Əliyev üçün informasiya müharibəsinin yeni mərhələsi regional və multiregional miqyasda həyata keçirdiyi inteqrasiya, əməkdaşlıq, sülh, barış və təhlükəsizlik proqramlarının qarşısına çıxarılan əngəlləri aşmağı ifadə edir.

## Yenə də ön cəbhədə

Şuşadakı dialoq yeni mərhələnin ön cəbhəsində KİV nümayəndələri ilə Prezidentin ilk ünsiyyəti oldu. Azərbaycan Prezidenti yeni tarixi mərhələdə informasiya sferasında qarşıda duran aktual məsələləri aydınlaşdırdı. Bu prosesdə Azərbaycanın rolunu ifadə etdi. Qərbin də siyasi dairələrində Azərbaycanı anlamağa çalışan qüvvələrin artdığına işarə verdi. İlham Əliyev dedi: "Vaxt keçdikcə Qərbdə siyasi dairələrdə reallıq daha çox üzə çıxır və Azərbaycana bərabər tərəfdaş kimi yanaşılır". Bu o deməkdir ki, informasiya müharibəsində keyfiyyətcə yeni dinamika meydana gələ bilər. Artıq Azərbaycanın dünyada dostları kifayət qədərdir və onlar yeni informasiya savaşı mərhələsində İlham Əliyevə dəstək verə bilərlər. Bu da KİV üçün yeni nikbinlik mənbəyi ola bilər ki, prosesləri daha obyektiv işıqlandırmaqdan çəkinməsinlər.

Bunun fonunda İlham Əliyev qonşu böyük dövlətlərin də Azərbaycana münasibətinin müsbət mənada ciddi dəyişdiyini jurnalistlərə çatdırdı. Dövlət başçısı ifadə etdi ki, "Rusiya ilə ikitərəfli münasibətlərdə həll oluna bilməyən məsələ mövcud deyildir". Türkiyə ilə strateji müttəfiqliyin səviyyəsi məlumdur, təkrara ehtiyac yoxdur. İranın yeni hakimiyyətinin isə Azərbaycana münasibətinin müsbətə doğru dəyişəcəyinə inananlar az deyildir.

Deməli, dövlət başçımızın regional və multiregional miqyasda dezinformsiya halları ilə uğurlu mübarizə aparması üçün lazım olan siyasi-informativ kontent artıq formalaşmaqdadır.

Bu fonda Prezident İlham Əliyevin yeni mərhələ üçün əsas faktorları xüsusi qeyd etməsi çox əhəmiyyətlidir. Həmin faktorlar ksenofobiya, islamofobiya və yeni müstəmləkiçiliklə mübarizənin davam etməsi və COP29-la bağlı ifadə etdiyi tezislərlə əlaqəlidir. Vurğulanan bu məqamlar Azərbaycan liderinin yeni mərhələdə multiregional miqyasda dezinformasiya ilə mübarizəsinin əhəmiyyətli özəlliklərini əks etdirir.

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# Ermənilərin "Qərbi Ermənistan" təxribatı

**(əvvəli 1-ci səhifədə)**

Ermənilərin fərziyyəsinə görə, keçmiş Osmanlı imperiyasının, Qars da daxil olmaqla, Van, Ərzurum, Elazığ, Bitlis, Van, Diyarbəkir, Sivas, Trabzon və b. vilayətləri "Qərbi Ermənistan"dır. O siyahıya Ahıskanı, Naxçıvanı və Qarabağı da daxil edirlər. "Altı erməni vilayəti" ifadəsi ilk dəfə 1878-ci ildə Berlin konqresində siyasi termin kimi işlədilsə də, bu ərazilərin ermənilərə aid olduğu anlamına gəlmir, ermənilərin toplu halında yaşadıqları ərazi kimi anlaşılırdı. Amma bu da faktdır ki, həmin vilayətlərin heç birində erməni əhali çoxluq təşkil etməyib. Erməni düşüncə sistemində bu, "Böyük Ermənistan" ideyasını yaradıb ki, sonralar bu xəyali dövlətin bir hissəsini ayıraraq "Qərbi Ermənistan" konsepsiyası irəli sürülüb. Əslində, ermənilərin dövlət yaratmaq ideologiyasında həmişə "üç Ermənistan"dan danışılıb:

a) Şərqi Ermənistan (Qafqaz Ermənistanı);

b) Qərbi Ermənistan (yuxarıda göstərilən 6 vilayət);

c) "Kilikiya Ermənistanı" (Çukurova, Kozan və s. ərazilər).

Bu torpaqlar bəhs etdiyimiz "dənizdən – dənizə böyük Ermənistan" adlı xəyali "dövlətin" sərhədləri hesab edilib və çoxsaylı saxta xəritələr uydurulub. Yüz ildən artıqdır ki, bu ideya erməni milli- şovinist ideologiyasında mərkəzi yer tutur. XX əsrin ilk illərindən erməni siyasi-ictimai fikrində "bu dövlətin" qurulacağına inananlar da olmuşdu, inanmayanlar da. Bölgədəki erməni üsyanlarının, qətliamlarının və soyqırımlarının səbəbi bu xəstə təxəyyül olmuşdur. Tarixə nəzər saldıqda bu ideyanın yeni olmadığının şahidiyik. "Qərbi Ermənistan" adlı "dövlət" qurmaq ideyası 1917-ci ildə Rusiyadakı inqilablar dövründə də süni şəkildə gündəmə gətirilmişdi. O zaman "Mühacirətdə Qərbi Ermənistan hökuməti" adlandırılan bu üzdəniraq qurumun 1919-cu ildə İrəvanda Ermənistan Respublikası hökümətinin himayəsində ikinci qurultayı keçirmişdi. Həmin qurultay əsas məsələ kimi "Qərb ermənilərinin" problemlərini həll etmək məqsədi ilə çağırılmışdı. Bu tədbirdə baş cəllad general Andranik Ozanyan və Paris Sülh Konfransında Ermənistan nümayəndə heyətinin rəhbəri Boğos Nubar paşa da iştirak və çıxış ediblər.




Ermənilər üçün bu qurultayın mühüm nəticəsi ondan ibarət idi ki, ilk Ermənistan Respublikası Azərbaycan torpaqlarında elan edilmişdi. Onlar üçün müəyyən dayaq nöqtəsi artıq var idi, 1920-ci il avqustun 10-da Osmanlı dövlətini pay-püş edilməsini nəzərdə tutan bədnam Sevr müqaviləsi imzalanmışdı. Ermənilər əməlli-başlı ümidlənmişdilər. O zaman bəzi erməni siyasi xadimlər hesab edirdilər ki, "Böyük Ermənistan" ideyasını həyata keçirməyə yaxındırlar. Amma "Sevr anlaşması" adlı bu kağız parçasını böyük öndər Mustafa Kamal Atatürk cırıb atdı. O, Türkiyə torpaqlarının bir hissəsini işğal etmiş Ermənistanı ta Gümrüyə qədər qovub çıxardı. 1920-ci ilin noyabrında Gümrü anlaşması ilə ermənilər təslim aktı imzaladılar ki, bu da erməni təxribatının qarşısını aldı.

Fəqət ermənilər bundan da nəticə çıxarmadılar. "Qərbi Ermənistan" təxribatı ideoloji olaraq yenə davam etdirilirdi. SSRİ zamanı Sovet Ermənistanı və xaricdəki erməni diaspor təşkilatları "Qərbi Ermənistan" məsələsini gündəmdə saxlamaq üçün hər cür üsula əl atırdılar. Bu məqsədlə 70-80-ci illərdə ASALA-nın gerçəkləşdirdiyi erməni terror fəaliyyətlərində məqsəd "Qərbi Ermənistan" adlı təxribatı dünyaya bəyan etmək, diqqəti bu məsələyə yönəltmək idi.

Ermənistan 1991-ci ildə müstəqilliyini əldə etdikdən sonra "Qərbi Ermənistan" məsələsi gündəmdən çıxarılmadı, bu mövzu həm diaspor erməniləri, həm də Ermənistan dövləti tərəfindən birinci yerə qoyuldu. Ermənistanın müstəqillik haqqında bəyannaməsində həm Türkiyənin məlum vilayətlərinə, həm də Azərbaycana ərazi iddiaları irəli sürüldü. "Erməni məsələsi"nin həll olunmadığını və ya "ədalətli" həllinə nail olunmadığını iddia edən erməni ideoloqlar Qarabağda Azərbaycan torpaqlarında ikinci erməni dövlətinin "yaradılması" fəaliyyətləri ilə kifayətlənmədilər. Yeni torpaqların işğalı rəsmi dövlət ideologiyasına çevrildi.

1990-cı illərin əvvəllərində könüllü olaraq Qarabağda Azərbaycana qarşı döyüşməyə gələn terroristlər "Qərbi Ermənistan" ideyasını yenidən gündəmə gətirdilər. Vaxtilə ASALA-nın üzvü olmuş Leonid Azgeldyan adlı terrorçu "Qərbi Ermənistan" ideyasının yeni nəzəriyyəçisi oldu. Ermənilərin Qarabağda müvəqqəti üstünlüyü erməni milli qurumları və siyasi partiyalarının "Qərbi Ermənistan" iddialarını aktuallaşdırdı.

2004-cü il dekabrın 17-də Ermənistanın işğalı altında olan Şuşa şəhərində yeni dövrdə birinci "Qərbi Ermənistan" qurultayı keçirildi. Məsələnin gündəmə gətirilməsinin məqsədlərindən biri də qondarma "erməni soyqırımı"nın qəbul edilməsinə dəstək vermək idi. Buna Türkiyəyə qarşı aparılan siyasətdə mühüm amil kimi baxılırdı. Ən əsası isə tarixdəki hadisələr yenidən gündəmə gətiriləcək, Şərqi Anadoludakı vilayətlərin ermənilərə "məxsus olmasına" diqqət çəkiləcəkdi. Ona görə də Türkiyəyə qarşı ərazi iddialarını daha sistemli və institusional müstəviyə qaldırmaq məqsədi aydın görünürdü. Qurultayda deyildiyi kimi, "o, öz ata-baba yurdlarına qayıtmaq üçün təşkilatlanmağa və Qərbi Ermənistan əhalisinin erməni olduğunu, vaxtilə bu bölgədən köçmüşlərin nəslinin mövcudluğunu və onların bu bölgədən işğala məruz qalma əzmini nümayiş etdirməyə səy göstərəcəkdi."

Yeni dövrdə "Qərbi Ermənistan" təxribatını davam etdirmək üçün başqa bir qurultay da olmuşdu. 2009-cu il noyabrın 21-22-də məkan olaraq Paris yaxınlığındakı Sevr (Fransa) şəhəri seçilmişdi (Konqresin Sevrdə düzənlənməsi də xüsusi məna kəsb edirdi). Militaristlərə məxsus "Samvel Murad" məktəbində təşkil olunan qurultayda Amerika Erməni Milli Komitəsinin (ANC) "Qərbi Ermənistan"dan və müxtəlif ölkələrdən nümayəndələri iki gün ərzində müzakirələrdə iştirak etdilər. Qurultayda çıxış edənlər arasında Erməni Milli Şurasının yaradıcılarından biri, BMT-də yaradılmış Yerli Xalqlar Forumunda "Qərbi Ermənistan"ın üzdəniraq nümayəndəsi, Qarabağda döyüşən erməni könüllülərinin təmsilçisi Armenak Abramyan da var idi. "Monte Melkonyan" Fondundan keçmiş terrorçu Alek Yenikomşyan, "İrs" partiyasından erməni parlamentari Zaruhi Postancyan, ANC üzvü, keçmiş terrorçu Jirayr Sefilyan, "Sərdarapat" hərəkatının lideri, tarixçi, "Qərbi Ermənistan"ın "Erməni Memarlıq Əsərlərinin Öyrənilməsi İnstitutu"nun direktoru Samvel Karapetyan, Dağlıq Qarabağ tarix-diyarşünaslıq muzeyinin direktoru Melan Balayan, Cavaxetiya (Gürcüstan – Ahıska) Erməniləri Assambleyasının prezidenti, birinci Qarabağ müharibəsində cinayətlər törətmiş Lüdviq Petrosyan, ultra-millətçi ASALA-nın törəmə şirkətlərindən olan "Uxt Ararati" təşkilatının koordinatoru Tiqran Paşabezyan iştirak ediblər. Bunların hamısı terrora bulaşmış adamlar idi. Onların bəziləri bu təxribatçı qurumun başına gətirildilər. Maraqlıdır ki, konqresin qonaqları arasında "Kürdüstan hökuməti"-nin (İraq) nümayəndəsi, eyni zamanda Paris Kürd İnstitutunun, müxtəlif milli cəmiyyətlərdə fəaliyyət göstərən gənclər və tələbə təşkilatlarının təmsilçiləri də vardı. Bu təxribat sonrakı illərdə də davam etdirildi. "Qərbi Ermənistan"ın növbəti III Konqresi 2010-cu il noyabın 27-28-də Marseldə (Fransa) keçirilib və "Mühacirətdə Qərbi Ermənistan hökuməti"nin yaradılması haqqında bəyannamə elan edilib.

**(ardı var)**

**Qafar ÇAXMAQLI,**
**"XQ"nin Türkiyə müxbiri**

# Sənayedə qeyri-neft sektorunun payı artır

(əvvəli 1-ci səhifədə)



Son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda iqtisadiyyatın şaxələndirilməsi məqsədilə qeyri-neft sənayesinin inkişaf etdirilməsi, eləcə də bu sahədə ixrac potensialının artırılması istiqamətində həyata keçirilən tədbirlər isə sözügedən sektorda mühüm növ malların istehsalının getdikcə artmasına səbəb olur. Qeyri-neft sənayesində məhsul istehsalının artması isə ölkənin ixrac potensialının genişləndirilməsinə mühüm töhfələr verir. Komitənin məlumatına əsasən, 2024-cü ilin ilk yarısında iqtisadiyyatın qeyri-neft-qaz sektorunda məhsul istehsalı 8 milyard 794 milyon manat təşkil edib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 7,4 faiz artıqdır. Yanvar–iyun aylarında sənayedə qeyri-dövlət sektorunun payı 81,6 faiz təşkil edib. Ümumi buraxılışın 89,7 faizi sənaye məhsullarının istehsalı, 10,3 faizi isə sənaye xarakterli xidmətlərin göstərilməsi hesabına yaradılıb.

Yanvar–iyun aylarında sənayenin mədənçıxarma sektorunda 20 milyard 468,6 milyon manatlıq məhsul istehsal olunub ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə bir qədər çoxdur. Hesabat dövründə sahənin əsas məhsulu olan əmtəəlik neft hasilatı 14,4 milyon ton, əmtəəlik təbii qaz hasilatı isə 19,1 milyard kubmetr təşkil edib. Ötən ilin müfafiq dövrü ilə müqayisədə əmtəəlik neft hasilatı 4,9 faiz azalıb, əmtəəlik qaz hasilatı isə 5,3 faiz artıb.

Göründüyü kimi, ölkə iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin müsbət nəticələri getdikcə artır. Elə cari ilin ilk 6 ayında ölkənin qeyri-neft sektorunda baş vermiş 7,4 faizlik artım da bunu təsdiqləyir. Yanvar-iyun aylarında ölkəmizin emal sənayesində 9 milyard 181,6 milyon manatlıq məhsul istehsal olunub və sənaye xarakterli xidmətlər göstərilib. Bəhs olunan sektor üzrə ən yüksək artım kompüter, elektron və optik məhsulların istehsalı sahəsində qeydə alınıb. Belə ki, ilin 6 ayında sözügedən sahədə 17,5 milyon manatlıq məhsul istehsal olunub ki, bu da əvvəlki ilin eyni dövründəkindən 74,4 faiz artıqdır. Bununla yanaşı, ilin ilk yarısında metallurgiya, kimya və əczaçılıq sənayesi sahələrində, tikinti materiallarının, mebellərin, elektrik avadanlıqlarının, hazır metal, rezin və plastik kütlə məmulatlarının, avtomobil, qoşqu və yarımqoşquların, kağız və karton, tütün məmulatlarının, eləcə də içki və qida məhsullarının istehsalında əhəmiyyətli artım baş verib. Sahənin digər məhsulları olan toxuculuq sənayesində, maşın və avadanlıqların istehsalı, quraşdırılması və təmiri, zərgərlik məmulatları, musiqi alətləri, idman mallarının və tibbi avadanlıqların, həmçinin poliqrafiya məhsullarının buraxılışında azalma qeydə alınıb.

Bu ilin 6 ayında neft məhsullarının istehsalının ümumi dəyəri 2 milyard 459,4 milyon manat təşkil etməklə əvvəlki ilin müvafiq dövrünün göstəricisini 1,9 faiz üstələyib. Mühüm növ neft məhsullarından olan ağ neft istehsalı 10,2 faiz, neft bitumu istehsalı 3,3 faiz, avtomobil benzininin istehsalı 2,1 faiz artıb, mazut istehsalı isə 75 faiz azalıb.

Ümumilikdə, 2024-cü ilin yanvar-iyun aylarında əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə ölkədə aralıq istehlak məhsullarının istehsalı 12,7 faiz, qısamüddətli istifadədə olan malların istehsalı 8,8 faiz, enerji məhsullarının istehsalı 0,1 faiz artıb. İstehsal vasitələrinin buraxılışı və uzunmüddətli istifadədə olan istehlak mallarının istehsalı isə əksinə, azalıb.

Cari ilin birinci yarısında sənayenin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda 1 milyard 551,6 milyon manat dəyərində məhsul istehsal olunub və xidmətlər göstərilib. Su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda istehsal edilmiş məhsulların həcmi isə 283,5 milyon manat təşkil edib. Bəhs olunan dövrdə elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda istehsalın həcmi 1,9 faiz azalıb, su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorunda isə 6,2 faiz artıb.

2024-cü ilin yanvar-iyun aylarında ölkə üzrə istehsal edilmiş sənaye məhsulunun böyük hissəsi istehlakçılara göndərilib. Əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla iyulun 1-nə sənaye müəssisələrinin anbarlarında 917,6 milyon manatlıq hazır məhsul ehtiyatı olub. Ehtiyatların 55,8 faizi Bakı, 12,5 faizi Sumqayıt, 3 faizi Gəncə, 2,3 faizi Şirvan şəhərlərinin, 1,5 faizi Naxçıvan Muxtar Respublikasının, qalan hissəsi isə digər şəhər və rayonların sənaye müəssisələrinin anbarlarında qalıb. Bundan əlavə, sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 94,9 milyon manat məbləğində digər məhsullar da mövcud olub.

Azərbaycanda qeyri-neft sənayesi müəssisələrinin yaradılması dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin prioritet istiqamətlərindən biri kimi xüsusi aktuallıq kəsb edir. Yerli xammal hesabına ölkənin qeyri-neft sənayesində rəqabətqabiliyyətli, ixrac yönümlü məhsulların istehsalı üçün isə imkanlar olduqca genişdir. Bu baxımdan son illər yaradılmış sənaye parkları və məhəllələri müstəsna rol oynayır. Təsadüfi deyil ki, sözügedən zonalarda yüksək texnologiyalar əsasında fəaliyyət göstərən müəssisələr ölkənin sənaye potensialının artmasında, ixrac yönümlü məhsulların istehsalında mühüm yer tutur.

Hazırda ölkəmizdə 7 sənaye parkı (Sumqayıt Kimya, Qaradağ, Pirallahı, Mingəçevir, Balaxanı, Ağdam və Cəbrayıl rayonunda yerləşən "Araz Vadisi İqtisadi Zonası") və 5 sənaye məhəlləsi (Hacıqabul, Masallı, Neftçala, Sabirabad və Şərur) fəaliyyət göstərir. İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, bu il iyulun 1-nə qədər Azərbaycanın sənaye zonalarından 13,5 milyard manatlıq məhsul satılıb ki, bunun da 4,4 milyard manatlıq hissəsi ixrac edilib. Satışın 1,4 milyard manatlıq, ixracın isə 0,45 milyard manatlıq hissəsi cari ilin ilk yarısının payına düşüb. Sənaye zonalarında istehsal olunan məhsullar 70-dən artıq ölkəyə ixrac edilib.

Agentliyin məlumatına əsasən, ölkənin sənaye zonalarında indiyədək ümumi investisiya dəyəri 8 milyard manat olan 151 sahibkarlıq subyektinə rezident statusu verilib. Sahibkarlar tərəfindən sənaye zonalarına 6,8 milyard manat investisiya yatırılıb və 10 min 500-dən çox daimi iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 1 milyard manat investisiya yatırılması və 7 min 100-dən çox yeni iş yerinin yaradılması nəzərdə tutulur.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

## Taxıl sahələrinin 90 faizində biçin yekunlaşıb

**Bu günədək ölkə üzrə payızlıq taxıl sahələrinin 90 faizində biçin prosesi başa çatıb.**



Kənd Təsərrüfatı Nazirliyində taxıl biçininin təşkili ilə bağlı yaradılmış operativ qərargahdan redaksiyamıza bildirilib ki, mexanizatorlar tərəfindən 907 min 845 hektar sahədə biçin aparılıb, sahələrdən ümumilikdə 2 milyon 795 min 112 ton məhsul yığılıb. Hazırda taxıl üzrə orta məhsuldarlıq 30,8 sentner təşkil edir.

Ölkə üzrə arpa əkini sahələrinin 96,9 faizində, buğda sahələrinin 84,5 faizində biçin başa çatıb. Arpa üzrə orta məhsuldarlıq 29,3 sentner, buğda üzrə orta məhsuldarlıq isə 32 sentner təşkil edir.

İyul ayında biçin prosesinə 575 kombayn cəlb olunub, bunlardan 204 kombayn "Aqroservis" ASC-nin, 371 kombayn isə fiziki və hüquqi şəxslərin mülkiyyətində olan kombaynlardır. İyulun 21-də kombaynlar vasitəsilə 6211 hektar ərazidə biçin aparılıb.

Cari il taxıl biçini mövsümündə taxıl üzrə ən yüksək məhsuldarlıq Hacıqabul rayonunda qeydə alınıb. Rayonda buğda üzrə orta məhsuldarlıq 55 sent/ha, arpa üzrə orta məhsuldarlıq isə 47 sent/ha təşkil edib.

## Sığorta bazarı 12 faiz böyüyüb

**Bu ilin yanvar–iyun aylarında Azərbaycandakı 17 sığorta şirkətinin xətti ilə 725,162 milyon manat sığorta haqqı toplanılıb.**



Mərkəzi Bankın məlumatına əsasən, bu, ötən ilin eyni dövrünə nisbətən 11,7 faiz çoxdur.

Hesabat dövründə sığorta şirkətlərinin həyata keçirdikləri ödənişlərin məbləği isə 356,633 milyon manat təşkil edib. Bu isə illik müqayisədə 58,5 faiz çoxdur.

6 ay ərzində sığorta bazarında toplanmış hər 100 manat sığorta haqqının 49,2 manatı ödəniş edilib. Ötən ilin eyni dövründə bu göstərici 34,7 manat olub.

## Ağdam Sənaye Parkında yeni istehsal sahəsi yaradılır

**İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, "Qarabağ Aqro 44" MMC-yə Ağdam Sənaye Parkının rezidenti statusu verilib. Müəssisədə sucuq istehsalı həyata keçiriləcək. İnvestisiya dəyəri 1,4 milyon manat olan "Qarabağ Aqro 44"də 20 nəfər işlə təmin ediləcək.**

İstehsal olunan məhsulların daxili bazara satılması ilə yanaşı, ixracı da nəzərdə tutulur.

Qeyd edək ki, 2023-cü ilin fəaliyyət yekunlarına həsr olunan mətbuat konfransında İqtisadiyyat Nazirliyi yanında İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) İdarə Heyətinin sədri Seymur Adıgözəlov bu il Ağdam Sənaye Parkında 5-dən artıq müəssisənin fəaliyyətə başlayacağını bildirib.



***XQ***

# Torpaq birgə zəhmətlə daha güclü və məhsuldar olur

**Dünya praktikasında torpaqların birləşdirilməsi (konsolidasiyası) torpaq islahatının həyata keçirildiyi ölkələrdə torpaq sahələrinin parçalanmasının aradan qaldırılmasına xidmət edən tədbir kimi qəbul olunur. Torpaqların konsolidasiyası vasitəsilə xırda təsərrüfatçılıqla mübarizə aparmaq, bu sahədə nisbətən iri və daha iri qurumların yaradılması məsələləri tək Azərbaycanda aktual məsələ deyil. Ölkəmiz bu istiqamətdə hələ ilk addımlarını atır. Bu proses hazırda bütün dünyada gedir. Bu sahədə 200 ildən artıq təcrübəsi olan Avropa və digər dünya ölkələrində bu məsələ indi də diqqətdə saxlanılır.**

Bu problemin dünyada aktuallığı ilə bağlı onu da demək istərdim ki, "Torpaqların konsolidasiyası" prinsipi BMT-nin "2030: Dayanıqlı İnkişaf Məqsədləri"-nin əsas hədəfləri sırasındadır. Bununla əlaqədar hər bir ölkənin konsolidasiya sahəsində milli strategiya hazırlaması və qanunvericiliyi təkmilləşdirməsi zəruridir.



Fikrimcə, Azərbaycanda tətbiq olunması nəzərdə tutulan torpaqların konsolidasiyası konsepsiyası özündə islahat nəticəsində parçalanmaya məruz qalmış torpaq parsellərinin birləşməsinə nail olunması, ümumdaxili məhsul və ixrac potensialının artırılmasına əsaslı təsir göstərilməsi, infrastrukturun qurulmaması səbəbindən əkin dövriyyəsindən kənarda qalan torpaqların dövriyyəyə qaytarılması, iri fermerlər və icarədarların formalaşmasına şərait yaradılması, suvarma sistemlərinin yenilənməsi kimi məsələləri əhatə etməlidir.

Bütün sadalanan bu məqamlarla yanaşı, torpaqların konsolidasiyası konsepsiyasında kadastr işlərinin yenilənməsi, texnikadan istifadənin səmərəliliyinin artırılması, torpaqların alqı-satqısı, torpaq bazarının düzgün idarə olunması, konsolidasiya layihələrinə həvəsləndirmə və proseslərin sadələşdirilməsi məqsədilə vahid Torpaq Bankının yaradılması öz ifadəsini tapmalı, kənd təsərrüfatına sərmayələrin cəlb edilməsi, məhsulun maya dəyərinin aşağı salınması və gəlirliliyin artırılması da diqqətdə saxlanılmalıdır.

Bütün bunlara nail olmaqdan ötrü kiçik pay torpaqları əsasında birgə təsərrüfat yaradılmalıdır. Ona görə də kəndlilər birləşməli və becərmə zamanı problem yaranmaması üçün eyni məhsulu yetişdirməlidirlər. Hazırda xırda torpaq mülkiyyətçiləri, fermerlər istəklərinə uyğun olaraq müxtəlif çeşiddə bitki becərir, hər biri onun yetişdirilməsində əziyyət çəkir. Çünki kiçik torpaq sahələrinin əkilib-becərilməsi çox zaman rentabelli olmur. Nümunə kimi Beyləqan-İmişli zonasında iri fermer təsərrüfatlarını göstərə bilərik. Konsolidasiyadan əvvəlki dövrdə fermerlərin hər hektardan 20-22 sentner taxıl alınırdısa, indi bu rəqəm 55-56 sentnerə çatıb.

Belə bir səhv təsəvvür var ki, Azərbaycan fermeri fərdiyyətçidir, öz torpağını yalnız özü becərməyə meyillidir və torpaqların birləşməsində maraqlı deyil. Bu səbəbdən də torpaq sahələrinin könüllü birləşdirilməsinə elə də ciddi maraq göstərilmir. Belə olan təqdirdə bu birləşmənin inzibati, yoxsa könüllü yolla aparılması sualı ilə üzləşilir.

Xırda torpaq mülkiyyətçilərinin məhsul istehsalında marağını artırmaqdan ötrü dövlət tərəfindən müəyyən addımlar atılmaqdadır. Bu, özünü texniki yardımlarda güzəştlərin edilməsində, aqrolizinq yaradılmasında və s. məsələlərdə göstərir. Bununla belə, xırda torpaq mülkiyyətçiləri də bilməlidirlər ki, yüksək məhsuldarlıq əldə etməkdən ötrü torpağın becərilməsində texniki yardımlar kifayət deyildir. Becərilən torpaq sahələrinin rentabelliyi onların ölçülərindən də asılıdır. Sahə kiçildikcə istifadəçiliyin rentabelliyi azalır, məsrəflər isə artır. İndiki halda əsas məsələ torpaqların iri təsərrüfat formalarında birləşdirilməsidir. Əlbəttə, heç bir məcburi birləşmədən söhbət getmir. Bu, könüllü olmalıdır. Bəzən elə başa düşülür ki, birləşmə deyəndə kolxoz-sovxoz nəzərdə tutulur. Amma qətiyyən ondan söhbət getmir. Məsələ insanların öz aralarında könüllü birləşib, yaxşı məhsuldarlıq əldə etmələri üçün birgə işləmələri ilə bağlıdır.

Hər bir Azərbaycan vətəndaşı, şübhəsiz ki, torpağı üzərində sahibkarlıq hüququna malikdir. Yuxarıda qeyd edildiyi kimi, ölkəmizdə kənd təsərrüfatının inkişafında böyük maneələrdən biri çox kiçik torpaq sahələrinin, ailə təsərrüfatlarının əkilib-becərilməsi nəticəsində az gəlir əldə olunmasıdır. Məlumdur ki, kəndlinin maliyyə imkanları məhduddur, torpaq sahələri kiçikdir, eyni zamanda, bazara çıxış imkanı yoxdur. Bu isə gəlirliliyi kifayət qədər aşağı salır və nəticədə bir çox hallarda bu torpaqlar istifadəsiz qalır, alternativ gəlir mənbələrinə müraciət edilir.

Beynəlxaq praktikada kənd təsərrüfatı istehsalının təxminən 90 faizi kooperativ fermer təsərrüfatları tərəfindən həyata keçirilir. Amma Azərbaycanda kənd təsərrüfatı istehsalının 80 faizdən çoxu ailə təsərrüfatlarının payına düşür. Kiçik ailə təsərrüfatlarının məhsuldarlığı, innovasiyaların tətbiq etmək imkanları, maliyyə əlçatanlığı aşağıdır. Bu isə kənd təsərrüfatının gəlirsizliyinə gətirib çıxarır. Təsadüfi deyil ki, ölkə əhalisinin məşğul əhalisinin 37-38 faizinin fəaliyyət göstərdiyi sferanın ölkə iqtisadiyyatında payı 6 faizdən aşağıdır. Gəlir baxımından da kənd təsərrüfatında çalışanlar ən az gəlirli kateqoriyaya malikdir.

Xırda torpaq sahələrinin konsolidasiyası prosesində fermerlərin maddi və fiziki imkanları birləşər və nəticədə onların təsərrüfat imkanları daha da çoxalar. Belə halda fermerlərin hansısa formada kənd təsərrüfatı təyinatlı sənaye məhsulu istehsal etmək, bazara çıxmaq, özlərinin nəqliyyatı, daha aşağı faizli kreditlərə müraciət imkanları artmış olar. Bu da öz növbəsində, kənd təsərrüfatının ekstensiv inkişaf modelindən intensiv inkişaf modelinə keçidə təkan verməklə yanaşı, daxili bazarda daha çox yerli məhsulun satılmasına yollar açar.

Son illər bu istiqamətdə müəyyən qədər işlər görülüb. İri fermer təsərrüfatlarında istehsalatda innovasiyanın imkanlarından istifadə edilərək müasir istehsal prosesi qurulub. Bu da məhsuldarlıq, gəlirlilik baxımından yüksək nəticə verməsi ilə müşahidə olunub. Amma kiçik təsərrüfatların bu imkanları olmadığı üçün onlar üçün yalnız birləşmə vacibdir.

Fikrimcə, birləşmə ilə bağlı əhalinin maarifləndirilməsinə böyük ehtiyac var. Fermerlər əslində bu birləşmənin hansı anlam daşıdığını, hansı üstünlükləri olduğunu bilməlidirlər. Düşünürəm ki, müəyyən zaman çərçivəsində artıq Azərbaycanda kənd təsərrüfatı torpaqlarının konsolidasiya olunması bir dönüş nöqtəsi olacaq, kənd təsərrüfatının daha gəlirli sferaya çevrilməsi şəraiti yaradacaq.

***Teymur NİZAMZADƏ,***
***Bakı Dövlət Universitetinin dosenti, coğrafiya üzrə fəlsəfə doktoru***




## “Yaşıl dünya” naminə həmrəylik



# II Şuşa Qlobal Media Forumunun COP29 mesajları




**“Yalan məlumatların ifşası: Dezinformasiyaya qarşı mübarizə” mövzusunda təşkil olunan 2-ci Şuşa Qlobal Media Forumu bir sıra əhəmiyyətli məqamları ilə yadda qaldı. Toplantıda COP29-un da BMT-nin iqlim dəyişikliyi ilə bağlı mübarizə prinsiplərinə sadiq qalacağı bir daha diqqətə çatdırıldı, bu nüfuzlu konfransın da, ümumiyyətlə, təkcə hökumətlərarası danışığı deyil, bütün cəmiyyəti əhatə etdiyi vurğulandı. Eyni zamanda, Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizəyə inklüziv yanaşması vurğulandı. Nəhayət, 2-ci Şuşa Qlobal Media Forumunda ölkəmizin bərpaolunan enerjiyə çox böyük üstünlük verməsinə baxmayaraq, Azərbaycanın neft-qaz istehsalçısı kimi bir çox xarici media tərəfindən qınaq obyektinə çevrildiyi təəssüflə qeyd edildi.**

Yeri gəlmişkən, forumda COP29-un Azərbaycanda keçirilməsinə qısqanclıqla yanaşılması xatırladılaraq, ölkəmizdə neft-qaz sənayesinin sürətli inkişafı ilə respublikamızın guya ekologiyaya böyük zərər verdiyi barədə fikirlər kəskin tənqid edildi. Bu məsələdə canfəşanlıq göstərən bir çox ölkələrin, o cümlədən ekoloji problemlərdən dəm vuran dövlətlərin isə təbiətə daha çox zərər yetirdikləri xatırladıldı.

Bu məqamda bildirək ki, Azərbaycana COP29-a evsahibliyi etmək etimadı göstərildiyi ilk günlərdən respublikamıza qarşı Qərbin qərəzli media prosesi başladı. Prezident İlham Əliyevin də 2-ci Şuşa Qlobal Media Forumunda vurğuladığı kimi, respublikamızın zəngin neft-qaz ölkəsi olması heç də onun günahı deyil. Azərbaycanın fəaliyyətinin bu səbəbə görə mənfi qiymətləndirilməsi, əslində, qərəzdən, məsələyə qeyri-obyektiv yanaşmadan irəli gəlir. Halbuki Qərb mediası məsələyə münasibətdə belə ədalətsiz, haqsız mövqe sərgiləməkdənsə, ölkəmizin iqlim dəyişikliyi ilə bağlı mübarizə tədbirlərindən, “yaşıl enerji” konsepsiyasına sadiqliyindən yazmalı idi.

Xatırladaq ki, Azərbaycan iqlim dəyişilkiyi mövzusunu daim diqqətdə saxlayır. Ölkəmizdə 2030-cu ilədək elektrik enerjisi qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 30 faizə çatdırılmasının qarşıya mühüm məqsəd kimi qoyulması, işğaldan azad olunmuş ərazilərin “yaşıl enerji” məkanına çevrilməsi istiqamətində çoxsaylı layihələrin gerçəkləşdirilməsi bunun bariz ifadəsidir. Məsələn, hazırda Azərbaycanın ümumi elektrik enerjisi istehsalında iri su elektrik stansiyaları da daxil olmaqla bərpaolunan enerji mənbələrinin payı 17 faizi ötüb. 2023-cü ildə respublikamızın su elektrik stansiyalarında 1 milyard 757,2 milyon-kilovat-saat, külək elektrik stansiyalarında 15,5 milyon kilovat-saat, günəş elektrik stansiyalarında 13,4 milyon kilovat-saat, Bərk Məişət Tullantılarının Yandırılması Zavodunda isə 62 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməsi yaxın illərdə bu sahədə daha çox artımın qeydə alınacağını deməyə əsas verir.

Azərbaycanı neft-qaz istehsalçısı olmaqda ittiham edən Qərbin media qurumları yaxşı bilirlər ki, yeni enerji siyasətinin əsas istiqamətlərindən biri də məhz respublikamızın Avropanın dekarbonizasiyasında fəal iştirakını təmin etməkdən ibarətdir. Bununla ölkəmiz, həm də Avropaya yeni enerji körpüsü salmaqla “köhnə qitə”nin mühüm elektrik enerjisi, əsasən də, “yaşıl enerji” təchizatçısına çevrilməsini hədəfləyir. Bunun isə yaxın illərdə reallaşacağı şübhəsizdir. Çünki bu istiqamətdə artıq ilk ciddi addımların atılmasına başlanılıb: 2022-ci il dekabrın 17-də Buxarestdə “Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş” imzalanıb. Əldə edilən razılaşma çərçivəsində Qara dəniz enerji sualtı elektrik kabelinin tikintisi nəzərdə tutulur. Həmin kabel Azərbaycanda hasil edilən “yaşıl” elektrik enerjisini Gürcüstan və Qara dəniz vasitəsilə Macarıstana və Avropanın qalan hissəsinə çatdırmaq üçün Rumıniyaya tədarük edəcək. Sözügedən saziş Azərbaycanın “yaşıl enerji”sinin Avropaya çatdırılmasını nəzərdə tutur.

Qeyd edək ki, həmin sənədə əsasən, Qara dənizin dibi ilə 4 qiqavat gücündə və 1195 kilometr uzunluğunda elektrik enerjisi kabeli çəkiləcək. Bu da ölkəmizdə istehsal olunan “yaşıl enerji”nin Avropaya ixracına imkan yaradacaq. Beləliklə də, Azərbaycan Avropa qitəsinin enerji təhlükəsizliyini daha dolğun və əhatəli şəkildə təmin edilməsində yaxından iştirak edəcək.

Prezident İlham Əliyev COP29-u dünyada, beynəlxalq arenada bir nömrəli konfrans kimi qiymətləndirdi. Eyni zamanda, bu nüfuzlu tədbirin ilk dəfədir ki, postsovet məkanında keçirildiyini, Azərbaycan üçün misilsiz bir şans olduğunu, həmçinin bu toplantı ilə respublikamızın ən yüksək liqaya yüksəldiyini bildirdi: “Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. 120 ölkənin iştirakı ilə orada yekdil şəkildə sədr seçilmişdik və sədrlik müddətimiz də uzadıldı. Sədrliyimiz dövründə biz böyük nüfuz qazandıq”.

Dövlətimizin başçısı fikirlərinə əlavə edərək xatırlatdı ki, Azərbaycan bəlkə də yeganə ölkədir ki, regionda və postsovet məkanında Avropa İttifaqı (Aİ) dövlətləri ilə, Aİ-nin 10 üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamələr imzalayıb. Respublikamız İslam Əməkdaşlıq Təşkilatına, “OPEC Plus” formatına üzv seçilib.

Yeri gəlmişkən, bu məsələ ilə əlaqədar Şuşa Qlobal Media Forumunda səsləndirilən bir fikri də xatırlatmaq istərdik. Tədbirdə bildirildi ki, Qərbin dünyanın həyatına təsir göstərmək istəyinə və dekarbonizasiya ilə bağlı iddialarına baxmayaraq, neft-qaz öz aktuallığını bu gün də saxlayır. Məsələn, ABŞ-da bu məsələyə 100 milyardlarla dollar xərclənir. Həmçinin ötən il Birləşmiş Ştatlar tarixində ilk dəfə olaraq neft-qaz sahəsində ən böyük hasilata nail olunub. Amma buna baxmayaraq ABŞ, eləcə də Azərbaycan “yaşıl enerji” məsələsinə sadiqdir.

Beləliklə, Azərbaycan COP29-a evsahibliyi missiyasını üzərinə götürməklə müsbət ekoloji dəyişikliklə bağlı beynəlxalq aləmə böyük töhfə verməyi, habelə bu istiqamətdə çıxış edən ölkələr üçün model nümunəsi göstərməyi qarşıya mühüm vəzifə kimi qoyub. Başqa sözlə, respublikamız artıq “yaşıl enerji” iqtisadiyyatını əməli fəaliyyəti ilə yeni müstəvidə formalaşdırmaq qərarını qətiləşdirib.

Bəşəriyyətin qlobal iqlim dəyişikiliyi ilə mübarizənin yeni mərhələsinə qədəm qoyduğu indiki şəraitdə COP29-dan gözləntilər çoxdur. Belə ki, “yaşıl dünya” ilə bağlı bir sıra yeni prioritetlərin məhz Azərbaycan paytaxtında müəyyənləşdiriləcəyi gözlənilir ki, bu da qlobal iqlim dəyişikliyinə əhəmiyyətli töhfə sayılacaq. Eyni zamanda, uzun illərdir ki, dünya ölkələri qlobal istiləşmənin, karbon emissiyalarının təsirlərinin azaldılması, uyğunlaşma və iqlimin möhkəmləndirilməsi kimi müxtəlif sahələrin maliyyələşdirilməsi ilə bağlı yekdil rəyə gələ bilmirlər. Belə ki, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr bu problemin həlli üçün 100 milyard dollarlıq fond yaradacaqlarını bildirsələr də, məsələnin həlli düyünə düşüb. Ekspertlərin fikrincə, COP29 bu düyünün açılmasına, iştirakçı ölkələrin maliyyə məsələsində razılığa gələ biləcəyinə böyük ümid bəsləyirlər.

Yeri gəlmişkən, dünya mediası da COP29 ərəfəsində Azərbaycanın bu mötəbər tədbirə ciddi hazırlaşdığını, eyni zamanda, ölkəmizin “yaşıl enerji”dən uzunmüddətli faydalar əldə etməyə çalışdığını bildirir. Bolqarıstanın “Standard” milli informasiya qəzetinin saytında yer alan məqalədə bununla bağlı deyilir: “Ötən il BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının (COP29) Tərəflərin 29-cu Konfransına evsahibliyi etmək hüququ əldə edən Azərbaycan növbəti onillikdə “yaşıl enerji”yə doğru irəliləməyi qarşısına məqsəd qoyub. Bu ölkə zəngin neft və qaz ehtiyatlarına malik olmasına baxmayaraq “yaşıl enerji”dən də uzunmüddətli faydalar əldə etməyə çalışır”.

Forumda yurnalistlərin ekoloji problemlərlə bağlı mesajlarını çatdırmaları üçün onların bacarıqlı olmalarının zəruriliyi, media nümayəndələrinin iqlim dəyişikliyinin çox ciddi və məsuliyyətli mövzu kimi daim diqqətdə saxlamalarının, bu məsələdə daha çox məlumatlı olmalarının vacibliyi vurğulanıb.

Bildirilib ki, dünyada iqlim dəyişmələrinin qarşısının alınması, ekoloji sabitliyin və tarazlığın yaradılması, dayanıqlı inkişafın təşviq edilməsi və bu istiqamətdə əhəmiyyətli nəticələrin əldə olunmasında media xüsusi rol oynayır. Bu səbəbdən media və kommunikasiya vasitələrinin mövcud proseslərdə düzgün istifadə edilməsi, hədəf auditoriyaya hesablanan təsirli mesajları ötürməsi, kütləvi fərqindəlik və məsuliyyət hisslərini formalaşdırması iqlim dəyişmələrinə qarşı kollektiv qabaqlayıcı tədbirlərin görülməsi və ya belə tədbirlərin effektivliyinin artırılmasında zəruridir.

2-ci Şuşa Qlobal Media Forumunda iqlim hərəkatında medianın rolu, yaşıl dünya naminə səmərəli məlumatlandırma mexanizmlərinin hazırlanması, iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində ictimai gündəmin yaradılmasında medianın əhəmiyyəti kimi mövzularda da müzakirələr aparıldı.

***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

**Tarixdə ən yüksək temperaturun qeydə alındığı 14 ildən 13-ü XXI əsrə aiddir. Buna səbəb isə, ilk növbədə, insan fəaliyyəti (antropogen) nəticəsində yaranan istixana qazları emissiyasının artmasıdır. Bu qazlar mədən yanacaqlarının istifadəsi, sənayenin doğurduğu fəsadlar, nəqliyyat vasitələrinin hərəkəti və meşələrin qırılması kimi insan fəaliyyəti nəticəsində yaranır. Bu mövzu ilə əlaqədar Azərbaycan Texniki Universitetinin kimya texnologiya, təkrar emal, ekologiya kafedrasının professoru Güləhməd Talıbovla söhbət etdik.**

*–Güləhməd müəllim, hansı qazlar istixana effektinə səbəb olur?*

– İstixana qazları təbii qazlardan fərqli olaraq insan fəaliyyəti nəticəsində atmosferə buraxılan və istixana effektinə səbəb olan qazlardır. Əsasən karbon qazı ($CO_2$), metan ($CH_4$), azot oksidi ($N_2O$) istixana qazları hesab olunur. İstixana qazlarına su buxarı (troposfer havasının rütubəti ($H_2O$), lərindən biri də aerozollardır. Bunlar avtomobil və sənaye tullantıları, həmçinin mədən yanacaqlarının yanması nəticəsində atmosferdə əmələ gələn kiçik hissəciklərdir. Mənbələri isə soyuducu sistemlərindəki xlorflüorokarbonlar və yanğınsöndürmə sistemlərində olan halonlardır. Aerozollar vulkan püskürmələri, meşə yanğınları kimi təbii proseslər zamanı da əmələ gəlir.

# İqlim dəyişikliyi ilə mübarizə ekoloji cəbhəyə çevrilib



həmçinin hidroflüorokarbonlar (HFCs), perflüorkarbonlar (PFC), kükürd heksaflüorid (SF6) və triflüor azot ( FN3) da daxildir.

***– Bəs istixana qazlarını artıran sahələr hansılardır?***

– Bu qazlar ən çox sənaye fəaliyyəti nəticəsində yaranır. Sənayenin inkişafı nəticəsində istehsalatda getdikcə daha çox yanacaqdan istifadə edilir. Əvvəllər daş kömürə üstünlük verilirdisə, sonra yanacaq vasitəsi kimi neft və qaz önə çəkildi. Yeni sənaye sahələri yarandıqca istifadə olunan yanacağın həcmi də artdı. Bu da karbon qazı və digər istixana qazlarının böyük miqdarda atmosferə buraxılmasına səbəb oldu.

Qeyd edim ki, istixana qazları emissiyasının təxminən ¼-i elektrik və istilik enerjisi istehsal etmək üçün kömür, təbii qaz və neftin yandırılması nəticəsində yaranır. Qara metallurgiya havanı çirkləndirən növbəti ən güclü mənbədir. Havanın çirklənməsinə poladəritmə sexlərindən atılan tullantılar da mənfi təsir göstərir. Böyük miqdarda karbohidrogenlər neft emalı və neft-kimya sənayesi emissiyalarının tərkibində olur. Neft emalı zavodlarında atmosferə zərərli maddələrin atılması avadanlıqların kifayət qədər möhürlənməməsi səbəbindən baş verir.

Atmosferin karbon qazı ilə çirklənməsinin əsas mənbələrindən biri də avtomobil nəqliyyatıdır. Avtomobili təkərli kimya fabriki adlandırmaq olar. Təkcə dünya avtonəqliyyat parkı ildə 2 milyard ton yanacaqdan istifadə edir ki, ondan da atmosferə 700 milyon ton zərərli maddələr, o cümlədən 420 milyon ton karbon 2-oksid (CO), 170 milyon ton karbohidrogenlər, 60 milyon ton azot oksidləri, 0,6 milyon ton qurğuşun buraxılır. Avtomobilin payı şəhər havasındakı bütün zərərli maddələrin 60 faizini təşkil edir, işlənmiş qazlar isə, təxminən, 200 maddənin qarışığıdır. Çirklənmənin 14 faizi nəqliyyat sektoru ilə bağlıdır, yəni daxiliyanma mühərriklərin fəaliyyətini tənzimləyən benzin, dizel yanacaqlarının yanmasından alınır.

Sement istehsalı da istixana qazlarının miqdarının artmasına səbəb olur: kalsium karbonat qızdırıldıqda atmosferə karbon qazı buraxılır. Orta hesabla hər min kiloqram sement istehsalı zamanı atmosferə 900 kiloqram $CO_2$ atılır. Bu sənaye növü qlobal antropogen karbon qazları emissiyasının 5-8 faizini yaradır.

Meşələrin kütləvi şəkildə qırılması isə atmosferdə karbon qazını udmaq qabiliyyətinə malik olan bitki örtüyünün məhvi ilə nəticələnir. Beləliklə, onilliklərdir ki, atmosferdəki karbon qazının səviyyəsi yüksəlir. Onun birbaşa istixana effekti yaradan qazların ümumi emissiyalarında payı 75 faizdən çoxdur.

İnsan fəaliyyəti sayəsində istixana qazlarını artıran sahələrdən biri də kənd təsərrüfatıdır. Qlobal istixana qazları tullantılarının, təxminən, 25 faizi kənd təsərrüfatı və digər torpaq istifadələrindən qaynaqlanır. Vəziyyətə həm də yem və heyvandarlıq məhsullarının istehsalı və emalı, həzm prosesi və peyinin parçalanması nəticəsində atmosferə atılan istixana qazları təsir edir.

İstixana effektinin artmasının səbəb- Metan və digər istixana qazlarının emissiyalarının artması ilə 2100-cü ilə qədər planetimizin səthinin orta temperaturu sənayedən əvvəlki səviyyələrlə müqayisədə 4,8 dərəcə yüksələ bilər.

***– İstixana qazlarının qatılığının artması nə kimi mənfi nəticələrə səbəb olur?***

– İstixana qazlarının atmosferdəki qatılığının mənbələri (insan fəaliyyətindən və təbii sistemlərdən yaranan qaz emissiyaları) və uducular (qazın başqa kimyəvi birləşməyə çevrilməsi yolu ilə atmosferdən çıxarılması) arasındakı balansla müəyyənləşdirilir. Əgər bu balans istixana qazlarının xeyrinə pozularsa, istixana effekti yaranır. Çünki bu qazlar troposferdə yığılır, Yerin ətrafında istixana tavanını xatırladan örtük əmələ gətirir. Yer səthindən qayıdıb gələn istini tutub saxlayaraq atmosferin yuxarı qatlarına keçməyə qoymur. Beləliklə, hava güclü qızır və bu isti yenidən Yerə qayıdır.

Planetin istiləşməsi, şübhəsiz, bir çox fəsadlara gətirib çıxarır. Temperaturun artması nəticəsində qasırğalar, quraqlıqlar, daşqınlar və tayfunlar tez-tez baş verir. İstiləşmə yağıntıların vəziyyətini daha da ağırlaşdırır: “yaş” bölgələr güclü yağışdan, quru bölgələr isə quraqlıqdan daha çox əziyyət çəkir. Quru torpaq isə güclü yağışa daha az hazırdır, bu da öz növbəsində daşqınlara səbəb olur.

İstixana effektinə cavabdeh olan əsas qaz komponentlərdən biri də su buxarıdır. Bu, yaşıllıq zonalarının azalmasına, meşə yanğınlarının intensivləşməsinə, su qıtlığının yaranmasına öz təsirini göstərir. Bütün bu amillər son nəticədə kənd təsərrüfatı və əhalinin ərzaq təhlükəsizliyi üçün risklər yaradır, sonuncu isə öz növbəsində insanların kütləvi miqrasiyasına və siyasi qeyri-sabitliyə səbəb olur. Bəzi bitki növləri isə iqlim dəyişikliyinə uyğunlaşmadan nəsli kəsilir.

***– Problemin həlli yollarını nədə görürsünüz?***

– İstixana qazları emissiyasının azaldılması qlobal iqlim dəyişikliyi ilə mübarizə sahəsində atılacaq ən mühüm addımlardan biridir. Onu reallaşdırmaq üçün istifadə olunan üsullar var. Məsələn, mədən yanacaqlarının həcmini tədricən azaltmaq üçün alternativ enerji mənbələrinə, o cümlədən günəş enerjisi və bioyanacaqdan istifadəyə keçməkdir. Ölkəmizin bu sahədə böyük potensialı var.

Yanacağa qənaət edən və elektriklə işləyən avtomobillərə üstünlük verilməlidir. Artıq bir çox şirkət, məsələn, “SOCAR AQŞ” MMC zərərli və istixana qazları emissiyalarını azaltmaq üçün nəqliyyat parklarındakı benzinlə işləyən avtomobillərin elektriklə işləyən avtomobillərlə əvəzləməyə başlayıb. Sərnişin daşımalarında elektrik avtobuslardan istifadə diqqətdə saxlanılır. Meşələrin bərpası və mövcud meşələrin mühafizəsi də bu gün çox aktualdır. Çünki karbon qazının müəyyən hissəsi atmosferdən təbii proses – fotosintez nəticəsində aradan qaldırılır. Bu, atmosferdəki istixana qazlarının tarazlaşdırılmasına kömək edir.

***Müsahibəni hazırladı:***
***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# İtaliyanın “yaşıl hidrogen” layihələrimizə marağı artır

**Azərbaycan “yaşıl hidrogen” istehsalı və nəqli sahəsində lazımi təcrübəyə və nou-hauya malik İtaliya şirkətləri ilə əməkdaşlıqda maraqlıdır.**




İqtisadiyyat Nazirliyinin məlumatına görə, bu barədə nazir Mikayıl Cabbarov və İtaliyanın ətraf mühit və enerji təhlükəsizliyi naziri Cilberto Piketto-Fratini ilə görüşdə bildirilib, energetika sahəsində əməkdaşlığın müsbət nəticələri qeyd olunub.

Vurğulanıb ki, enerji sahəsində əməkdaşlıq ölkələr arasında ikitərəfli iqtisadi əlaqələrin mühüm hərəkətverici qüvvəsidir. Cənub Qaz Dəhlizinin seqmentlərindən biri olan Trans-Adriatik Boru Kəmərinin (TAP) həyata keçirilməsi əlaqələrimizdə mühüm tarixi mərhələdir.

Görüşdə Azərbaycan vasitəsilə Mərkəzi Asiya ölkələrindən Avropaya “yaşıl enerji”nin ixracını nəzərdə tutan layihənin “yaşıl keçid”in dəstəklənməsində önəmi vurğulanıb.

Nazirlər, həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) prioritetləri, qlobal miqyasda faydaları və potensial tərəfdaşlıq imkanlarına dair fikirlərini bölüşüblər.

***XQ***

# Dağların daş nağılı – LAHIC

## Qədim yurdun dünəni, bu günü və qayğıları



**Lahıc haqqında az yazılmayıb. Yalnız xarici mətbuatda dərc edilən müxtəlif səpkili yazılar toplanılsa, bir neçə cildlik kitab alınar. Hər yazı isə, belə demək olarsa, Lahıcın dününinə açılan pəncərə, bu gününə bələdçi, sabahına gedən cığır, izdir.**

Girdimançayın sahilində, dəniz səviyyəsindən 1200 metr yüksəklikdə yerləşən Lahıc qəsəbəsi (İsmayıllı rayonu) nəinki ölkəmizdə, eləcə də dünyada məşhurdur. "Lahıc" deyiləndə ilk anda göz önünə uca dağlar, zümrüd donlu meşələr və bir də suyu ürəklərə sərinlik verən, rahatlıq bəxş edən bulaqlar gəlir.

2015-ci ildə “Lahıc misgərlik sənəti” UNESCO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilib.

### Suyun gur olsun, Namazgah bulağı

Xalq arasında deyirlər ki, Lahıc Namazgah bulağından başlayır. Yayda şəhərin nəfəs təntidən istisindən baş götürüb dağlara gələnlər Namazgahın suyundan içəndə sanki dağların, meşələrin sərinliyini məlhəm kimi canlarına çəkirlər. Çünki Namazgah bulağının bir qurtum suyu adamın canındakı ağrı-acını, göynərtini dağıdır, qoluna qüvvət, gözlərinə əlavə işıq verir.

Danışırlar ki, qədimlərdə Lahıcdan səfərə çıxanlar sübh namazını bu bulağın üstündə qılar, sonra yola düşərlərmiş. Səfərdən, alış-verişdən gələnlər də çox vaxt axşam namazını burada qılıb, doğma yurda qovuşarlarmış.

O gün bulağın üstü yenə adamla dolu idi. Kənara çəkilib növbə gözləməli olduq. Yeri gəlmişkən deyim ki, böyük tutumlu maşınlar bulağın yaxınlığındakı qayadan axıb və çənlərə toplanan sudan doldurub qonşu rayonlara və paytaxta satmağa aparırlar. Avtomobillə buradan keçənlər də qablarını doldurub, yol üçün ehtiyat su götürürlər.

Əvvəlcə bulağın ətrafına, sonra qarşı dağların arasından qıvrıla-qıvrıla çıxıb üzü aşağılara gedən Girdimançaya baxdım. Bulanıq sel suları daşları yuya-yuya arana, istidən qovrulan torpaqlara tələsirdi. Çayın o biri sahilində, bir qədər yuxarıda daşlarla hörülmüş yerlər diqqətimi çəkdi. O yol dağ bələnindən, sal qayanın altından keçərək neçə illər Lahıcı mərkəzi şosse yoluna qovuşdurub. Başqa sözlə, bu dar dağ yolu Lahıc üçün həyat yolu rolunu oynayıb. Payızın, qışın qarlı, çovğunlu günlərində o yolda ölüm, necə deyərlər, gözlə qaş arasında dolaşıb. Neçə insan yüklü atı, qatırı ilə ya Girdimançayın gur sularına, ya da çovğunun qarı sovurub doldurduğu dərənin dibinə gedib.

O anı göz önünə gətirirəm və bir anda bədənim üşüyür...

Ovuclarımı qoşalayıb bulağın gözünə tutur, sərin sudan içirəm. Dilimdən bu sözlər qopur:

– Suyun daim gur olsun, Namazgah bulağı!

### Lahıc tarixin səhifələrində

Akademik Nizami Cəfərov yazır: "Məlumdur ki, bütün xalqlar kimi, Azərbaycan xalqı da müxtəlif soy birləşmələrindən – həm yerli, həm də bu əraziyə gəlmiş, yaxud zorla köçürülmüş tayfaların, etnik qrupların getdikcə bir-birinə yaxınlaşması, qovuşub qarışması nəticəsində təşəkkül tapmışdır. Türk etnosunun qədimliyi və üstünlüyü nəticəsində Azərbaycan dili ümumxalq danışıq, ünsiyyət, tərəqqi dili kimi formalaşmışdır. Azərbaycan torpağının ululuğu, müqəddəsliyi, şirinliyidir ki, o neçə-neçə milli-etnik mənşəli insanların vətəni olmuş, yüzilliklər keçsə belə, onların (ruslar, yəhudilər, gürcülər, tatarlar, ləzgilər, avarlar, saxurlar, talışlar və b.) dillərinin, adət-ənənələrinin qorunub saxlanılmasına imkan vermişdir. Lahıclılar da bu qəbildəndir". Dağların əhatəsində yerləşən Lahıc dəfələrlə təbii fəlakətlərə məruz qalıb, böyük çətinliklərlə üzləşib, lakin öz varlığını qoruyub saxlayıb. Tarixçilər yazırlar ki, Lahıc yeni alban sülaləsinin əsasını qoymuş Mehran tərəfindən Vl əsrin axırları, Vll əsrin əvvəllərində tikilib. Allah Manaf müəllimə rəhmət eləsin. Bu torpağın yetirməsi olan yazıçı-alim Manaf Süleymanov "Azərbaycan diyarı: Lahıc" etnoqrafik bədii lövhələr əsərində yazır ki, XIX əsrin ortalarında Lahıcda 200-dən çox sənətkarlıq emalatxanası olmuşdur. Lahıc ustaları odlu (tüfəng, müxtəlif tipli tapançalar) və soyuq (xəncər, behbud, qılınc, bıçaq və s.) silahları da yüksək sənətkarlıqla düzəltmişlər. Bu silahlar ornamentlərlə bəzədilir, onlara sənətkarların möhürü vurulurdu. XIX əsrin ortalarında Rusiyanın İjevski silah zavodunda Lahıc ustalarının təcrübəsindən istifadə olunmuşdur.



### Lahıc sənət beşiyi, gözəlliklər məskənidir

Məlumata görə, vaxtilə Lahıcda çoxlu sənət (misgərlik, dəmirçilik, dabbaqlıq, çəkməçilik, papaqçılıq, sərraclıq, qalayçılıq, həkkaklıq, dulusçuluq, dərzilik, xalçaçılıq, bənnalıq və sair) inkişaf etmişdir. Bir sözlə, respublikamızda metal və xalq sənətkarlığının inkişafında Lahıcın xüsusi yeri var. Bu ərazi həm də tarixi abidələrlə zəngindir. Buna görə də Lahıc Tarix-Diyarşünaslıq Muzeyinin ekspozisiyası bu məkana gələn qonaqları çox cəlb edir.

Qəsəbəyə həm ticarət, həm ziyarət, həm də istirahət üçün gələnlər Bazar meydanında qarşılanır, gedənlər buradan yola salınır. Hazırda bu meydanda son illər inşa edilmiş yaraşıqlı bir bina var. 1985-ci ildə Lahıc Tarix-Mədəniyyət Qoruğunun nəzdində ictimai əsaslarla yaradılan və 5 il sonra respublika Nazirlər Kabinetinin qərarı ilə status verilən Lahıc Tarix-Diyarşünaslıq Muzeyi indi bu binada yerləşir. Onu da əlavə edək ki, muzey əvvəllər Mədəniyyət Nazirliyinin tabeliyində olub. Hazırda isə Dövlət Turizm Agentliyinə tabedir.

Muzeyin fondunun baş mühafizəçisi Marif Əliyev bizimlə söhbət zamanı bildirdi ki, muzey əvvəllər qəsəbədəki Ağolu məscidində fəaliyyət göstərirdi. Məscid binası qəzalı vəziyyətə düşdüyünə görə buraya – Lahıc İcma Evinə köçürüldü. Onu da deyim ki, Ağolu məscidinin binası təmir edildikdən sonra orada əlyazmalar muzeyinin yaradılması nəzərdə tutulur.

Muzeyimizdə minə yaxın eksponat var. Eksponatlar Qədim-Antik dövrə, Orta dövrə və Yaxın müasir dövrə bölünüb. Çoxlu yerli və xarici qonaqlarımız gəlir. Digər bölgələrimizdə fəaliyyət göstərən muzeylərlə də əlaqələrimiz var.

### “Xudo bərəkət!”

Qəsəbədə iş yerləri az olduğundan əhalinin çox hissəsi alış-verişlə məşğul olur. Bu, onların ailə büdcələri üçün yetərli olmasa da, müəyyən qədər çörəkpulu qazanırlar.

Qüdrət orta məktəbi bitirdikdən sonra dülgərliklə məşğul olub. Ailəsinə kömək üçün Lahıcda, rayonun kəndlərində, Bakıda da işləyib. Son üç ildə isə dağlarda bitən dərman bitkilərini toplayıb satmaqla məşğuldur. Dediyinə görə, əvvəllər qazancı pis olmayıb. Elə gün olub ki, 150 manatdan çox dərman bitkisi satıb. Amma bu mövsümdə vəziyyət ürəkaçan deyil. Tək bircə gün 101 manat satış edib. Onun fikrincə, bu, həm havaların xoşagəlməz keçməsi, həm də qəsəbəyə gələn yerli və xarici turistlərin sayının azalması ilə



bağlıdır. Quru sərhədlərin bağlı olması da turistlərin gəlişini xeyli əngəlləyib.

Qüdrət qonaqlara kəklikotu, yemişan çiçəyi, qırxbuğum, çobanyastığı, zəncirotu, dazıotu, dağ nanəsi, gülxətmi, itburnu, nanə, adaçayı, yarpız, sumaq, boymadərən, üzərlik və anasının hazırladığı gül suyu, gül mürəbbəsi və digər məhsulları satır. Alıcıya da hansı bitkinin hansı xəstəlik və ağrıya qarşı təsirli olduğu barədə məlumat verir.

O gün yağış yağırdı. Qüdrət "market"inin qarşısında fikirli-fikirli oturub yağışa baxırdı. Yaxınlaşıb bir qədər kəklikotu və sumaq aldım. Sonra gördüm ki, cibindəki pulları çıxarıb sayır. Soruşdum ki, bir şey çıxır? Gülümsəyib lahıclıların dilində dedi ki, Xudo bərəkət! Onun bu sözləri məni sevindirdi.

### Lahıcın turizm imkanları

Zəngin təbiəti, özünəməxsus memarlıq üslubu və adət-ənənəsi olan Lahıcın məhəllələrini gəzib-dolaşdıqca onun qonaqpərvər insanlarının şücaətinə, doğma yurda sevgisinə heyran olursan. Buna görə də turistlər bu qədim və şöhrətli məkana həvəslə gəlirlər. Məlumata görə, İsmayıllı rayonuna gələn yerli və xarici turistlərin hər on nəfərindən yeddisi Lahıca üz tutur. Son illər Lahıcın tanıdılması və təbliğində dövlət qurumları ilə yanaşı, özəl "Lahıctur" Turizm İnformasiya



Mərkəzi də əhəmiyyətli işlər görüb. Qurumun təsisçisi və rəhbəri Dadaş Əliyevdir. Dadaş müəllimlə söhbətimiz də əsasən Lahıcın inkişafına kömək edə biləcək məsələlər və bu məkanın turizm imkanları barədə oldu.

Həmsöhbətim bildirdi ki, Lahıcın zəngin mədəniyyəti və təbii qaynaqları var. Yayı sərin, qışı mülayım keçir. Günəşli günlərin sayı 300-dən çox olur. Elə bu dediklərimiz sübut edir ki, Lahıcın yaxşı turizm imkanları var. Bu isə qəsəbənin bəzi problemlərini həll etməyə, əhalinin güzəranının yaxşılaşmasına kömək edə bilər. İnformasiya Mərkəzini qurmaqda məqsədimiz də bu olmuşdur.

2006-cı ildə fəaliyyətə başlayan qurum ərazidə turizm xidmətlərini vahid mərkəzdən idarə etməyə başladı. İlk uğurlarımız bizi sevindirdi və həm turistlərin, yerli əhalinin bizə inamı artdı. Təəssüf ki, İnformasiya Mərkəzi qəsəbənin giriş və mərkəzi hissəsində deyil, əhalinin gur olmadığı ərazidə yerləşirdi. Mərkəzin fəaliyyəti onun yaxınlığında olan Tarix-Diyarşünaslıq Muzeyinin başqa səmtə köçürülməsi ilə zəiflədi. COVID-19 pandemiyası dönəmində Turizm İnformasiya Mərkəzinə müraciət edənlərin sayı da xeyli azaldı.

Lahıc elə bir turizm məkanıdır ki, hər bir turist burada özünə maraqlı bir yer, xidmət sahəsi tapa bilər. Çünki bu torpağın, qəsəbənin turizm imkanları dünyada bu sahənin qəbul edilmiş bütün siqmentlərinə inteqrasiya edə biləcək səviyyədədir.

***Səməd MƏLİKZADƏ***



# Baş prokuror Qırğızıstanda səfərdədir

**Baş prokuror Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türk Dövlətləri Təşkilatının və Şanxay Əməkdaşlıq Təşkilatının baş prokurorlarının növbəti iclaslarında iştirak etmək məqsədilə Bişkek şəhərinə işgüzar səfərə gedib.**

Qırğızıstanın Baş prokuroru Maksat Asanaliyevlə keçirilmiş görüşdə Kamran Əliyev eyni kökə, mədəniyyətə malik ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin hər iki ölkə prezidentlərinin birgə səyləri nəticəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini diqqətə çatdırıb.

Maksat Asanaliyev ölkəmizin hüquq-mühafizə, xüsusilə, prokurorluq orqanları ilə əməkdaşlığın səviyyəsindən məmnunluğunu bildirərək, cinayətkarlığa qarşı mübarizə sahəsində qabaqcıl təcrübə mübadiləsinin əhəmiyyətindən bəhs edib.

Görüş zamanı Baş Prokurorluqlar arasında Əməkdaşlıq Proqramı imzalanıb.

Həmin gün Kamran Əliyev Türkiyənin yeni təyin olunmuş Baş prokuroru Muhsin Şentürklə görüşüb. Görüşdə həm ikitərəfli formatda, həm də TDT Baş Prokurorlar Şurası çərçivəsində transmilli cinayətkarlığın müxtəlif formalarına qarşı mübarizə sahəsində əməkdaşlıq perspektivləri müzakirə edilib.

Səfər çərçivəsində Kamran Əliyev TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev ilə də görüşüb. Baş katib ölkəmizin türk dövlətlərinin həmrəyliyində aktiv rolu barədə danışaraq, son dövrlər əməkdaşlığın daha intensiv şəkildə inkişaf etdiyini vurğulayıb. Baş prokuror Azərbaycanla TDT arasında əməkdaşlığın əhəmiyyətini vurğulayıb, prokurorluq orqanları arasında əlaqələrin gücləndirilməsinin önəmli olduğunu bildirib.

Kamran Əliyev keçirdiyi görüşlərdə BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının – COP29-un, bu il sentyabrın 29-dan oktyabrın 2-dək Beynəlxalq Prokurorlar Assosiasiyasının 29-cu illik konfransı və ümumi yığıncağının ölkəmizdə keçiriləcəyini bildirərək həmkarlarını mötəbər tədbirdə iştiraka dəvət edib.

**XQ**

# İki sərhədçimizin həyatına qəsd olunub

**İyulun 24-də saat 03:30-da Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Göytəpə” sərhəd dəstəsinin xidməti ərazisində 2 nəfər naməlum şəxsin İrandan Azərbaycan istiqamətində dövlət sərhədini pozması müşahidə edilib.**

Sərhədçilərin qanuni tələblərinə məhəl qoymayan sərhəd pozucuları sərhəd naryadına qarşı silahlı müqavimət göstərərək havanın qaranlıq və relyefin mürəkkəb olmasından istifadə edib geri qaçıblar. Sərhəd naryadı tərəfindən “Dövlət sərhədi haqqında” Qanunun tələblərinə uyğun olaraq silah tətbiq edilməsi nəticəsində sərhəd pozucularından birinin güllə yarası aldığı müəyyənləşib. Silahlı insident nəticəsində sərhəd naryadının iki üzvü yüngül xəsarət alıb. Onlara zəruri tibbi yardım göstərilib.

Əraziyə baxış zamanı ümumi çəkisi 10 kiloqram 882 qram narkotik vasitə, sərhəd pozucularına məxsus gecəgörmə cihazı, 12 millimetr kalibrli tüfəng, giliz və patronlar aşkar olunub.

Hadisə yerində Azərbaycan və İran sərhəd nümayəndələrinin görüşü keçirilib.



**XQ**

# SOSİAL XƏBƏRLƏR

### DOST Müşahidə Şurasının iclası

DOST Agentliyinin Müşahidə Şurasının növbəti iclasında şuranın sədri, / Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin 7 DOST mərkəzi, 1 DOST filialı və 1 “Smart DOST” məntəqəsi ilə ötən dövrdə 2 milyon 800 mindən çox vətəndaşa xidmət göstərdiyini, vətəndaş məmnunluğunun 98,2 faiz təşkil etdiyini qeyd edib.

Nazir DOST konsepsiyası sayəsində Azərbaycanda dövlət sosial xidmətlərinin müasir və çevik, tam şəffaf mexanizmlər üzərindən, “bir pəncərə”dən, innovativ əsasda təqdim edildiyini vurğulayıb. O bildirib ki, Regional DOST infrastrukturunun qurulması ilə bütün ölkə əhalisi bu xidmətlərlə tam əhatə olunacaq. Hazırda respublikanın bir sıra bölgələrində DOST mərkəzlərinin açılması üçün hazırlıq işləri aparılır.

İclasda Azərbaycanın uğurlu sosial islahat nümunəsi olan DOST modelinin beynəlxalq səviyyədə də yüksək qiymətləndirildiyi və ötən dövrdə agentliyin bir çox beynəlxalq mükafat və sertifikatla təltif edildiyi vurğulanıb. Qeyd olunub ki, hazırda bır sıra ölkələr DOST təcrübəsini öyrənərək onu tətbiq etməyə maraq göstərir və bu sahədə həmin ölkələrlə təcrübə mübadiləsi aparılır.

İclasda “Konsolidə edilmiş Maliyyə Hesabatları və Müstəqil Auditor Hesabatı” qəbul edilib. Agentliyin fəaliyyəti ilə bağlı 2024-cü il üzrə yarımillik hesabat da təqdim olunub.

### BƏT nümayəndəsi ilə görüş

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Beynəlxalq Əmək Təşkilatının (BƏT) Layiqli əmək üzrə Texniki Dəstək Qrupunun müəssisələrin inkişafı və yaşıl iş yerləri üzrə baş mütəxəssisi Kristina Martinezlə görüş keçirilib.

Nazir müavini Anar Əliyev ölkəmizdə əmək, məşğulluq və sosial müdafiə sahəsində aparılan islahatlarda BƏT-lə əməkdaşlığa xüsusi önəm verildiyini diqqətə çatdırıb. Ötən dövrdə Azərbaycanın BƏT-in 60-dək Konvensiyasına qoşulduğu, BƏT-lə birgə Layiqli Əmək üzrə iki Ölkə Proqramının uğurla icra edildiyi, növbəti proqram layihəsinin hazırlandığı qeyd edilib. Azərbaycanın COP29-a evsahibliyi edəcəyi vurğulanıb. COP29-un BƏT-in gündəliyini daha irəli aparmaq üçün də önəmli platforma olacağı bildirilib.

K.Martinez Azərbaycanın BƏT-lə fəal əməkdaşlığının, uğurlu birgə layihələrin BƏT tərəfindən rəğbətlə qarşılandığını bildirib. Görüşdə ətraf mühitin dayanıqlığına doğru genderə həssas ədalətli keçidin təşviqi məsələlərinə, bu istiqamətdə tərəfdaşlığın və əməkdaşlığın genişləndirilməsinə dair fikir mübadiləsi aparılıb.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

# Teatr dünyamızın Şuşa cövhəri

**Otuz il köçkün həyatı yaşadı, aşırı çətinliklərlə qarşılaşdı, ancaq öz statusunu saxlamağı bacardı. Bütün əziyyətlərə baxmayaraq, daşıdığı şərəfli adı və sənət dünyasındakı yerini qorudu. Şuşasız yaşadı, ancaq səhnəsiz qalmadı Şuşa teatrı.**



Mədəniyyət paytaxtımızın azadlığına qovuşması Şuşa Dövlət Musiqili Dram Teatrını (ŞDMDT) doğma ünvanda yenidən coşğun yaradıcılıq mühitinə qaytardı. Bu gün həm paytaxt Bakıda, həm də əziz Şuşada rəngarəng repertuarla çıxış edən teatr 150-ci mövsümünü də uğurla geridə qoydu.

Teatrın direktor müavini, Əməkdar artist Azad Məmmədov bizə təmsil etdiyi sənət ocağının ötən mövsümdə iş fəaliyyəti, yenilikləri və qastrolları barədə məlumat verdi.

– 150-ci mövsümün açılışını "Molla Nəsrəddini tapın" əsərinin premyerası ilə etdik və yeni səhnə əsəri – "Dağılan tifaq" tamaşası ilə yekun vurduq. Ümumilikdə, ötən mövsüm teatrın yaradıcı heyəti bir neçə yeni səhnə əsəri hazırladı. Belə ki, Əbdürrəhim bəy Haqverdiyevin "Dağılan tifaq", Xalq yazıçısı Elçinin "Şekspir" və Asif Kəngərlinin "Bəla" əsərlərinə, Ağaddin Babayevin "Üç qardaş" ("İki qardaş və Divin nağılı") pyesinə, habelə Astrid Lindqrenin "Balaca və Karlson" əsərinə səhnə həyatı verdi. Eyni zamanda, 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbənin 3-cü ildönümü ilə əlaqədar Azərbaycan və türk şairlərinin şeirləri əsasında hazırlanmış yeni səhnə əsəri "Dəmir yumruq" ədəbi-bədii kompozisiyası nümayiş olundu.

Onu da öyrəndik ki, ötən mövsümdə sənət ocağının kollektivi Şamaxı, Quba, Lənkəran, Masallı, Füzuli şəhərlərində qastrol səfərlərində olub və bir sıra festivallarda çıxış edib. Bu il ŞDMDT-nin həyatında əlamətdar bir hadisə də yaşanıb – teatra aparıcı status verilib və bu, yaradıcı heyəti daha da ruhlandırıb.

Azad Məmmədov söylədi ki, ötən mövsüm sənət ocağı bir beynəlxalq teatr bayramında – Türkmənistanın paytaxtı Aşqabad şəhərində keçirilən "Xoşbəxtlik dövrünün teatr sənəti" adlı IV Beynəlxaq Teatr Festivalında ölkəmizi təmsil edib və Xalq yazıçısı İlyas Əfəndiyevin "Boy çiçəyi" əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşanı göstərib. Əməkdar artist yaradıcı heyətin Şuşa şəhərində keçirilən festivallarda, mədəni tədbirlərdə də böyük həvəslə çıxış etdiyini bildirdi.

– Bildiyiniz kimi, dövlətimiz dünyaya səs salan Böyük Zəfəri qazandıqdan və suveren ərazisini tam bərpa etdikdən sonra Şuşamızda beynəlxalq tədbirlərin təşkili ənənə halını alıb. Biz Şuşa teatrı olaraq, "Xarıbülbül" festivalında, "Vaqif Poeziya Günləri"ndə müxtəlif kompozisiyalarla çıxış edirik. Builki poeziya bayramında teatrın baş rejissoru, Əməkdar artist Loğman Kərimovun quruluşunda İlqar Fəhminin qələmə aldığı "Füzuli hücrələri" və "Vaqiflə səyahət" ədəbi-bədii kompozisiyaları ilə təmsil olunduq. İndiyədək azad Şuşada 10-dan artıq səhnə əsəri təqdim etmişik. Bundan sonra daha böyük layihələrlə çıxış edərək, teatrımızın əvvəlki şan-şöhrətini geri qaytaracağıq. Bunun üçün bütün gücümüzü səfərbər etmişik. İstər paytaxt tamaşaçıları, istərsə də şuşalı teatrsevərlərin etimadını doğrultmağa davam edəcəyik.

***Ceyhun ALIŞLI***

# Mərамı vətənpərvərlik olan "Vətən"






**Ümumrusiya azərbaycanlılarının "Vətən" mədəni-ictimai jurnalının ilk nömrəsi çapdan çıxıb.**

Bu jurnal 2002-ci ildən fəaliyyətə başlayan "Vətən" qəzetinin davamçısıdır. Dərginin təsisçisi və baş redaktoru iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent Namiq Muraddır. Baş ofisi Rusiya Federasiyası Mari-El Respublikasının paytaxtı Yoşkar-Ola şəhərində yerləşir. Həmin şəhərin "String" mətbəəsində nəşr olunan dərgi ayda bir dəfə işıq üzü görəcək.

"Vətən"in məramı 30 il yalnız Moskvada deyil, bütün Rusiya məkanında ilk ictimai qurum olan "Ocaq" Azərbaycan Mədəniyyət Cəmiyyətinin fəaliyyəti fonunda ölkəmizin ictimai, siyasi, mədəni həyatında baş verən hadisələri təbliğ etməkdir. Jurnal Rusiyada Azərbaycan və rus dillərində yayımlanır.

Loqosunda Bakının əfsanəvi "Qız Qalası"nı əks etdirən dərginin ilk nömrəsinin üz qabığında böyük mütəfəkkir, filosof-şair İmadəddin Nəsiminin portreti və şairin məşhur "Məndə sığar iki cahan" misrası yer alıb. Dərgi Azərbaycanın Milli Qəhrəmanı Polad Həşimovun həyat yoluna həsr olunmuş məqalə ilə başlayır. "Qafqazın Mirvarisi – Bakı" adlı yazıda isə Azərbaycanın COP29 Beynəlxalq konfransına evsahibliyi etməsindən qürurla söhbət açılır.

Jurnalın səhifələrində qitə yarışlarında parlaq qələbələrə imza atan "Qarabağ" futbol komandasının uğurları, eləcə də bu klubun şəhid kapitanı Allahverdi Bağırov və baş məşqçisi Qurban Qurbanov haqqında məqalələr yer alıb.

Son səhifələrdə Azərbaycan milli mətbəxinin təamları təqdim edilir. Eləcə də dərginin arxa qabığında "Şeyx Səfi" və "Ərdəbil" xalçalarının sehirli ilmələri nümayiş olunur. Jurnalın ilk nömrəsi 68 səhifədən ibarətdir, amma növbəti nömrələrin 100 səhifədən ibarət olması nəzərdə tutulub.

***Kəmalə ABDİNOVA***
***XQ***

Xatirələr işığında

# ATOM REAKTORU VƏ TELESKOP MƏSƏLƏSİ

**Ötən ilin oktyabrında növbəti 74-cü Beynəlxalq Astronavtika konqresinin 50 ildən sonra yenidən Bakıda keçirilməsi ölkəmizə göstərilən diqqətin daha bir təzahürü idi. Bu əlamətdar hadisə Lənkəran Dövlət Universitetinin (LDU) keçmiş rektoru, texnika elmləri doktoru, professor Mirzə Bağırovun 1973-cü ildə Bakıda keçirilən 24-cü Konqreslə bağlı xatirələrini yada saldı.**

O zaman mən LDU-da mətbuat xidmətinin rəhbəri idim və rektorun ümummilli lider Heydər Əliyevin iştirak etdiyi həmin konqreslə bağlı maraqlı söhbətlərini çox dinləmişdim. EA partiya komitəsinin katibi işlədiyi 8 il müddətində onun Ulu öndərlə yadda qalan, xeyli unudulmaz xatirələri olub. Uzaqgörən siyasətçinin təşəbbüsü ilə "Kosmik tədqiqatların elm və texnologiyaya təsiri" devizi altında keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresini, oradakı tarixi nitqini də xüsusi qeyd edirdi.

Konqresdən sonra, 1974-cü ilin may ayında professor Mirzə Bağırov Azərbaycan EA Radiasiya tədqiqatlar bölməsinin rəhbəri təyin olunub. Burada radiasiya və elektrofizika istiqamətində elmi işlər aparılırdı. Qarşıya bir məqsəd kimi Azərbaycanda atom-nüvə reaktoru yaradılması ideyası qoyulmuşdu. Bu, respublikada həm nüvə fizikasının, həm də elmin başqa sahələrinin inkişafında mühüm rol oynayacaqdı.

Söhbət həmin reaktorun yaradılmasından düşəndə professor dedi:

– Atom-nüvə reaktorunun Sumqayıtın yaxınlığında – Ceyranbatan gölü ətrafında salınması nəzərdə tutulmuşdu. İlkin planlaşdırma da aparılmışdı. Amma tikintisinə SSRİ EA-nın razılığı olmalı idi. Akademiyanın prezidenti ilə danışıq aparmaq mənə tapşırılmışdı. SSRİ EA-nın prezidenti ilə Qazaxıstanın ovaxtkı paytaxtı Alma-Atada görüşdüm. EA Qazaxıstanda mühüm elmi konfrans təşkil etmişdi. İşinin çoxluğuna baxmayaraq, SSRİ EA-nın prezidenti məni qəbul etdi və məsələ ilə əlaqədar onu məlumatlandırdım. O, işimizi yüksək qiymətləndirdi, bildirdi ki, məsələ rəhbərlik qarşısında qaldırılacaq. Bu sahə üzrə kadrların və lazımi vəsaitin olmaması hələlik çətinlik yaradırdı. EA-nın prezidenti bildirdi ki, işə diqqəti artıracaq, lazımi kömək göstərəcək.

Professor Mirzə Bağırovun söhbətindən aydın oldu ki, sonralar SSRİ-nin tənəzzülü və müttəfiq respublikalar arasında əlaqələrin pozulması üzündən bu məsələ öz həllini tapmadı. Amma alim ümidini itirməmişdi. Deyirdi ki, vaxt gələr, Azərbaycanda kosmik sahənin öyrənilməsinə də yeni imkanlar açılar. Budur, illər keçəndən sonra ölkəmizdə kosmik sənaye quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilib. Azərbaycan beynəlxalq kosmik ailənin fəal üzvünə çevrilib.

Beləcə, 74-cü Beynəlxalq Astronavtika konqresi professor Mirzə Bağırovun daha bir xatirəsini yada saldı. Həmin xatirəni də oxuculara çatdırmaq istəyirəm.



### Azərbaycan akademiyasının qələbəsi

– N.Tusi adına Şamaxı Astrofizika Rəsədxanası üçün müasir tipli teleskop almaq lazım idi, – professor Mirzə Bağırov dedi. – Az sonra eşitdik ki, Azərbaycan üçün ayrılmış müasir tipli teleskop Ermənistan EA-ya veriləcək. Bu məsələnin SSRİ hökumətində yüksək vəzifələrdə işləyən və həmişə öz millətini dəstəkləyən Anastas Mikoyanın vasitəsilə onların xeyrinə həll edildiyi bildirilirdi.

Yuxarı təşkilatlara müraciətimiz heç bir səmərə vermədi. EA partiya komitəsinin yığıncağında qəbul edilmiş qərar da cavabsız qaldı. Bir partkom kimi fikrimi akademiyanın prezidenti Yusif Məmmədəliyevə çatdırdım. Rəyasət heyətinin üzvləri də partiya təşkilatının qərarını müdafiə etdilər. Amma məsləhət görüldü ki, məsələni yoluna qoymaq üçün şəxsən Azərbaycan EA-nın prezidenti özü Moskvaya getməlidir. Mən onda Polşa Respublikasına elmi səfərə hazırlaşırdım. Akademik Mikayıl Hüseynov da Moskvada idi. Yusif müəllim mənə dedi ki, Polşadan qayıdanda Moskvada ona baş çəkim.

Yusif Məmmədəliyev SSRİ Ali Sovetinin deputatı idi və onun "Rossiya" mehmanxanasında daimi bron yeri vardı. Elmi ezamiyyətdən qayıdan kimi Yusif Məmmədəliyevə zəng etdim. Dəstəyi akademik Mikayıl Hüseynov götürdü. Səsimi eşidən kimi sevincək dedi:

– Mirzə, teleskopu almışıq, təcili yanımıza gəl!

Qapını Yusif Məmmədəliyev açdı, qucaqlaşıb bir-birimizi təbrik etdik. Əlbəttə, bu böyük qələbə idi – Azərbaycan EA-nın Ermənistan EA-nın üzərində qələbəsi. Hətta yuxarı dairələrdə işləyən ermənilər və onların havadarları da Azərbaycan EA-nın prezidenti, görkəmli şəxsiyyət, tanınmış alim Yusif Məmmədəliyevin şəxsi hörməti və nüfuzu qarşısında istədiklərinə nail ola bilməmişdilər.

Sən demə, teleskop məsələsi Sov.İKP MK Siyasi Bürosu səviyyəsinə çıxıbmış. Mən birinci dəfə idi ki, Siyasi Büro qərarının surətini görürdüm. Gözümə inanmadım, amma bu, həqiqət idi. Maraqlı burası idi ki, erməni millətinin havadarı Anastas Mikoyan da qərarın 2-ci nüsxəsinə "Mən dəstəkləyirəm" sözlərini yazaraq imza atmışdı.

***Hacı Etibar ƏHƏDOV,***
***Lənkəranda çıxan "Aşkarlıq" qəzetinin baş redaktoru***

# İncəyurdun incə ruhu

**Bu günlərdə 70 yaşı tamam olan şair, publisist, Prezident mükafatçısı Rafail İncəyurdun "Bu da belə" adlı şeir kitabı işıq üzü görüb. Şairin oxucuları qarşısında bir növ yaradıcılıq hesabatı olan yeni toplusunda tarixin, bəşər övladının keçdiyi yollar mükəmməl poetik nümunələr kimi ipə-sapa düzülüb.**



Atatürk Mərkəzi ilə "Qazax" Xeyriyyə İctimai Birliyinin birgə təşkil etdikləri təqdimat mərasimində Rəfail İncəyurdun həm incə ruhlu, həm də döyüşkən poeziyasından ətraflı söhbət açılmaqla bərabər, xüsusi qeyd olunub ki, "Bu da belə" kitabında şairin əsasən müdrik çağında yazdığı şeirlər yer alıb. Mərkəzin rəhbəri, akademik Nizami Cəfərov, İlham Pirməmmədov,Əkbər Qoşalı, Rövşən Babanlı, Məti Osmanoğlu, Bəsti Əlibəyli, Musa Ələkbərli, Ağacəfər Həsənli, Rüstəm Kamal və başqaları çıxışlarında onun insani keyfiyyətlərinə, vətənpərvərlik və turançılıq motivli əsərlərinə diqqəti cəlb ediblər, poeziyamız qarşısında xidmətlərini yada salıblar.




Rəfail İncəyurd Azərbaycan Dövlət Universitetinin (indiki BDU) mexanika-riyaziyyat fakültəsinin məzunudur. Müəllim də işləyib, proqramçı da olub. Amma fikrində, zikrində kəsrlər, teoremlər, tənliklər deyil, təşbehlər, bənzətmələr, qafiyələr dolaşır onun. 1975-ci ildən mətbuatda müntəzəm çıxış edir. Türkiyə və Rusiyada da çap olunub. "Ömürdən oyana yollar uzanır", "Könül dünyam", "Köhnə kişilər", "Köz yaşı", "15-imdən 55-ə varanda…" kimi kitabları ilə oxucuların sevgi, ədəbi tənqidin təqdir hədəfi olub.

Ötən həftə Şuşada keçirilən növbəti Vaqif Poeziya Günlərində birgə iştirakımız zamanı daha yaxından tanıya bildiyim Rəfail İncəyurd mənə də yeni kitabını hədiyyə etdi. Ədəbiyyat yanğısına, gənclik ruhuna, təvazökarlığına heyran qaldım.

***Dönüb məhəbbətin bəyaz tacına,***
***Könlümdə bir şeir tumurcuqlayır.***
***Qoşulub dünyanın bir ağacına,***
***Bilirəm nə deyir – tumurcuqlayır.***

Beləcə, indi də tumurcuqlayıb gül açan poetik etiraflarını bizə qızırğanmadı, bildiklərini həvəslə paylaşdı. Poeziya bayramına toplaşdığımız Vaqif babasından gözəl misallar çəkdi, varisanə söhbətlər elədi. "Sözün Vətəni – Qarabağ" müasir poeziya saatındakı çıxışı da böyük maraqla qarşılandı şairin. Tac-şəhərdəki digər unudulmaz görüşlərimiz, ulduzlu axşamların duyğulu könül lafları ömrümüzə-günümüzə yazıldı. Tədbirlərdən sonra Şuşanın bir qədər yuxarı hissəsində yerləşən "Xarıbülbül" otelinin yoxuşlu yollarında onun özü kimi ağsaqqal qələm dostu – AYB-nin Qazax Bölməsinin sədri Barat Vüsalla necə qıvraqcasına öndə getməsi də bizlərə bir ibrət dərsi idi. Baxıb "Maşallah!" dediyimizə belə cavab verdi:

*Məhəbbət gərəkdi qocaya, gəncə,*
*Eşqi görən kədər çəkilər küncə.*
*Ay həkim, xəstəyə həblərdən öncə*
*Könlünü oxşayan kəlmə lazımdı...*

Bu da onun müdriklik poeziyasının öyüd-nəsihətidir:

*Dar gününü gen günündən uca tut,*
*Söz var, onu bayraq elə, söz var, ud.*
*Gördüyünü görübsən, ay İncəyurd,*
*Yaxşı günlər çətin çağın üstədi.*

Rəfail İncəyurdun şeirlərində maraqlı janr eksperimentlərinə rast gəlmək olur. Akademik Nizami Cəfərovun da kitaba yazdığı "Ön söz"də qeyd etdiyi kimi, incəli şairlərin əksəriyyəti üçün səciyyəvi cinas (təcnis) yaratmaq məharəti diqqətdən yayınmır.

*Əgər Allah eşqi canda yoxdusa,*
*Onda imana nə, dinə nə, gözəl?!*
*Sözünü vaxtında deyə bilməyən*
*Sonda dinməyə nə, dinə nə, gözəl?!*

Canında, ruhunda həyat eşqi çağlayan Rəfail İncəyurdun təzə kitabı onun hələ çox illər təzə-tər şeirlər yaza bilmək hünərindən soraq verir.

*Ay İncəyurd, sınma, düzəl,*
*Əzəl sondu, hər son əzəl.*
*Yenə həyat eşqi gözəl,*
*Yenə yaşamaq gözəldi.*
*Gözəldi, vallah, gözəldi!*

...Şairin yeni kitabındakı şeirləri oxuyuram və mən də "Gözəldi, vallah, gözəldi! – deməkdən özümü saxlaya bilmirəm.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Xüsusi təqaüd proqramı həyata keçiriləcək

**Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın Tədbirlər Planında "Mədəniyyət və Yaradıcı Sənayelərin (MYS) dinamik inkişafının təmin edilməsi və bu sahədə ixrac potensialının gücləndirilməsi" fəaliyyət istiqaməti üzrə yer alan məsələlərdən biri MYS sahəsində kadr potensialının inkişaf etdirilməsidir.**

Tədbirlər planında sözügedən fəaliyyət istiqaməti üzrə öz əksini tapan "Müasir və rəqabətli MYS sahələrinin tələblərinə uyğun sertifikat proqramlarının və xaricdə təhsil üçün xüsusi təqaüd proqramının yaradılması" tədbiri ilə əlaqədar Mədəniyyət Nazirliyi əsas icraçı qurum olaraq müəyyənləşdirilib.

"Mədəniyyət və yaradıcı sənayelər üzrə xüsusi Təqaüd Proqramı" çərçivəsində "Təhsil alacaq şəxslərin seçilməsi meyarları, prosedurları və təhsilin maliyyələşdirilməsi Qaydaları" Mədəniyyət Nazirliyi Kollegiyasının qərarı ilə təsdiq olunub.




Mədəniyyət Nazirliyindən verilən məlumata görə, təqaüd proqramı çərçivəsində bakalavriat səviyyəsi üzrə xaricdə təhsil, magistratura səviyyəsi üzrə xaricdə təhsil, xaricdə keçirilən qısamüddətli təlim, kurs və proqramlar (o cümlədən distant (məsafədən) formada) üzrə təhsil və Azərbaycan Respublikası ərazisində keçirilən qısamüddətli təlim, kurs və proqramlar üzrə təhsil seçimləri mümkündür.

MYS üzrə xaricdə təqaüd proqramı çərçivəsində 60 nəfər tələbənin təhsil alması, 1000 nəfər sahə üzrə mütəxəssisin sertifikatlaşdırılması, eləcə də tədris mərkəzinin yaradılması və hər il ən azı 100 gəncin təhsilə cəlb edilməsi, sahə üzrə tədris olunan ixtisasların sayının 10 faiz artırılması və məzmununun yaxşılaşdırılması nəzərdə tutulur.

Təqaüd proqramı audiovizual (musiqi, kino, o cümlədən animasiya, videoqrafiya və fotoqrafiya), dəb sənəti, dizayn, kuratorluq, memarlıq, tədbirlərin təşkili, mədəni və yaradıcı sahə üzrə menecment, nəşriyyatlarla işin təşkili, oyun sənayesi, teatr, komediya və performans və yaradıcı texnologiyalar sahələri üzrə ixtisaslaşma istiqamətlərini əhatə edir.

Proqrama yaradıcı potensialını inkişaf etdirmək istəyən yaşı 15-dən yuxarı şəxslər müraciət edə bilərlər.

Qeyd edək ki, təqaüd proqramı üzrə müsabiqəyə müraciət qaydası, proqram iştirakçılarının seçimi ilə bağlı meyar və prosedurlar haqqında ətraflı məlumat yaxın vaxtlarda nazirliyin rəsmi internet informasiya ehtiyatlarında yerləşdiriləcək.

***XQ***

Beynəlxalq həyat

# ABŞ-də prezident seçkiləri: milyarder, yoxsa keçmiş prokuror?



**Bu qızmar yay günlərində Birləşmiş Ştatların ictimai-siyasi həyatında ciddi proseslər baş verir. Axı amerikalılar bu il noyabrın 5-də ölkənin yeni dövlət başçısını seçməlidirlər. Budəfəki seçki kampaniyası isə bir çox sürprizlərlə başlayıb.**

Ağ evin hazırkı sahibi Co Bayden prezidentlik uğrunda mübarizədən kənara çəkilib. Bu hadisə prezidentlik uğrunda yarışda rəqiblər arasında "intriqa"nı daha da gücləndirib. Yaranmış "fors-major" vəziyyəti ölkə vətəndaşlarını dilemma qarşısında qoyur. Onlar respublikaçı Donald Trampla bu dəfə artıq demokratların yeni namizədi Kamala Harris arasında seçim etməli olacaqlar.

Beləliklə, ortada iki rəqib var. Kim qələbə qazanacaq? Milyarder, yoxsa keçmiş prokuror? K.Harris elə indidən rəqibi ilə potensial məhkum kimi davranmağa hazır olduğunu bildirir. D.Tramp isə onun üçün əlçatmaz zirvələr olmadığını iddia edir. Seçki gününə isə cəmi 100 gün vaxt qalır.

C.Baydenin seçkilərdən geri çəkilməsi və özünün vitse-prezidentini dəstəkləməsi xəbəri bir neçə gündür ki, qlobal medianın gündəmini zəbt edib. Hətta Rusiya qoşunlarının Ukrayna cəbhəsində bir neçə istiqamətdə müəyyən ərazi irəliləyişlərinə nail olması, Qəzzada humanitar fəlakətin acımasızcasına davam etməsi, Böyük Britaniyanın Qırmızı dənizdə husi terrorçularını cəzalandırması və sair bu kimi "qaynar" xəbərlər belə arxa plana keçib.

Görünən budur ki, K.Harris kifayət qədər ciddi rəqibdir. O, Demokratlar partiyasının vahid namizədi olmaq üçün artıq kifayət qədər dəstək əldə edib. "Associated Press" agentliyinin dünən yayımladığı məlumata görə, Harris artıq 2200-dən çox nümayəndənin dəstəyini qazanıb və namizədliyi təmin etmək üçün qurultayda zəruri olan 1976 səs çoxluğunu asanlıqla ötüb.

Yeri gəlmişkən, vitse-prezident potensial prezidentliyə namizəd kimi çərşənbə axşamı ilk kampaniya tədbirini keçirib. Maraqlıdır ki, seçki kampaniyası tədbiri prezidentlik yarışı kontekstində mühüm ştatlardan sayılan Viskonsin ştatında təşkil olunub. Ölkə əhalisi demokrat namizədin çıxış və bəyanatlarını diqqətlə izləyir.

K.Harris Viskonsində auditoriya qarşısında açıqlamasında deyib: "Bu seçkidə biz gələcəyə 2 fərqli baxış arasında seçim etməliyik. Tramp ölkəmizi bir çoxlarımızın tam azadlığa və bərabər hüquqlara malik olmadığı dövrə qaytarmaq istəyir. Mən demokratiyamızı gücləndirən, reproduktiv azadlığı qoruyan və hər bir insanın nəinki dolanışığını təmin etmək, həm də rifah əldə etmək imkanını təmin edən gələcəyə inanıram". O, həmçinin deyib ki, qarşıdakı 3 ay ərzində ölkəni gəzəcək və "doğma amerikalılarla hazırda gündəmdə olan bütün məsələlər ilə bağlı məsləhətləşmələr aparacaq".

K.Harris özünə kimi vitse-prezident seçə bilər? Bu sual da indi çoxlarını düşündürür. Məlumatlı mənbələrə görə, namizədlər arasında Kentakki ştatının qubernatoru Endi Beşir, nəqliyyat naziri Pit Buttiçiç, Arizona senatoru Mark Kelli və başqalarının adları var. Tale quşu kimin başına qonacaq, hələlik məlum deyil.

Bu arada o da məlum olub ki, K.Harris bu günlərdə keçirilən çoxsaylı sorğuların nəticələrinə görə, rəqibini 2 faiz üstələyir. Üstəlik, son sorğuda ABŞ-də qeydiyyatdan keçmiş seçicilərin 56 faizi 59 yaşlı Harrisin "kəskin zehni və çətinliklərin öhdəsindən gəlmək bacarığı" olduğunu deyib. Vitse-prezident 2 gündən az müddətdə yenidən seçki kampaniyası üçün 100 milyon dollar toplayıb. Bu, ciddi məsələdir. Heç kəs üçün sirr deyil ki, seçkiləri udmaq üçün həm də pul xərcləməlisən. Bu, dünyanın hər yerində belədir, xüsusilə də özünü çağdaş demokratiyanın beşiyi sayan Amerikada!

ABŞ mətbuatı yazır ki, bu günlər Demokratlar partiyasının milli komitəsi və onun maliyyə yığma komitələri pulların toplanmasında iştirak edirlər. Bundan əlavə, Harrisin kampaniyasında könüllü olmaq üçün, təxminən, 58 min nəfər müraciət edib ki, bu da gündəlik orta göstəricidən dəfələrlə çoxdur.

Vitse-prezidentin ölkənin ən ali postuna sahiblənmək naminə atdığı ilkin uğurlu addımlar D.Trampı narahat etməyə başlayıb. O, dünən "Newsmax" telekanalında deyib ki, xanım Harris Amerikanın yeni prezidenti olacağı təqdirdə Birləşmiş Ştatları məhv edəcək: "Onun fikirlərinə baxın. Harris qalib gəlsə, yenə sərhədləri açıb ölkəni məhv edəcək". Xatırladaq ki, D.Tramp demokrat siyasi rəqiblərindən fərqli olaraq, qeyri-leqal miqrantlara qarşı sərt mövqeyi ilə seçilir.

Beləliklə, ABŞ-də prezidentlik uğrunda yarış günbəgün güclənir. Prezidentliyə namizədlər əhalidən daha çox dəstək almaq üçün seçicilərlə yeni görüşlərə can atırlar. Lakin ölkənin Məxfi Xidməti Trampa sui-qəsd cəhdindən sonra hər 2 namizədə mitinqləri müstəsna olaraq qapalı yerlərdə keçirməyi tövsiyə edib. Bu barədə mənbələrə istinadən "The Washington Post" məlumat yayıb.

Okeanın o tayında hamı başa düşür ki, builki seçkilər super dövlətin, eləcə də bütün dünyanın taleyinə həlledici təsir göstərə bilər. Ona görə də ölkədə seçkilərin yüksək seçici fəallığı şəraitində keçəcəyi gözlənilir. Kimin qalib olacağını isə indidən demək çox çətindir.

*Məsaim ABDULLAYEV*
*XQ*

Maraq dünyamız

# Mana qövsü və "İynəli buzlar"

**Təbiət bu gözəlliyi Rusiya Federasiyasının Kranoyarsk diyarındakı Mana çayının "əli ilə" yaradıb. Çay dağlar, nəhəng qayalar və hüdudsuz meşələr arasındakı ucsuz-bucaqsız axını ilə yuxarıdan baxanda at nalına bənzəyən bir qövs yaradıb. Xatırladaq ki, təkcə türklər deyil, dünyanın müxtəlif ölkələrini təmsil edən alimlər də sübut edirlər ki, rus dilində Krasnoyarskiy kray adlanan bu yerin qədim adı türkcə Kızıl Yar olub. Yəni burada türk kökənli insanlar yaşayıb. Rəvayətə görə Mana çayının yaratdığı qövs də türk atlarının hansınınsa ayaq izidir. Təbii ki, yüz kilometrlərlə uzunluğu olan at nalı qədim nağıl və dastanlarda təsvir oluna bilərdi. Çar Rusiyası Kızıl Yarı işğal edəndən sonra bu diyarın adını Krasnoyarsk qoyub. Şəhərin köhnə adı isə hələ də unudulmur.**



Elə Mana çayının nəhəng qayalar massivi ətrafında dolanmasından yaranmış gözəlliklər haqqında da rəvayətlər danışılır. Rəvayətə görə, qüdrətli və xeyirxah cəngavər olan Beloqorixinin Mana adında qızı var imiş. Qız o qədər gözəl idi ki, ona baxanlar gözünü çəkə bilmirdi. Atası qızını göz bəbəyi kimi qoruyurdu. Bir dəfə onların ölkəsinə Yenisey adlı yaraşıqlı bir oğlan gəlir. Mananı sevənlər yüzlərlə olsa da, o, Yeniseyə vurulur. Öz gözəl qızından ayrılmaq istəməyən cəngavər Mananın Yeniseylə qovuşmasına icazə vermir və qız öz sevgisinin dalınca qaçmalı olur. Bir tərəfdə atanın, o biri tərəfdə qızın ah-naləsindən sonra yaranan dəhşətli fırtına, tufan və qasırğa yeri-göyü, dağı-daşı bir-birinə qatır.

Əfsanəyə görə, indi Krasnoyarsk milli parkındakı asılı qalmış nəhəng qaya, Mana sütunları adlı möcüzəli şiş qayalar, Baba, Nəvə qayaları, eləcə də "Çin səddi" adlandırılan uzun qayalar sistemi, nəhayət, Mana qövsü və ilin yeddi-səkkiz ayında hamını heyran edən "İynəli buzlar" həmin fırtına və qasırğa nəticəsində yaranmışdır. "İynəli buzlar"ın qeyri-adiliyi ondadır ki, bu çayın üzündəki buz planetin şimal və ya cənub qütblərindəki buzlara qətiyyən oxşamır. Burada altı-yeddi ay hansı tərəfə baxırsansa, çayın səthindən aralanıb 25-30, bəzən əlli metr hündürə qalxan buz "iynələr" vahimə yaradır. Əslində, orada qorxulu heç nə yoxdur. Sadəcə, donmuş sudur. Ancaq nə üçün bu su başqa yerlərdəki kimi donmur? Elə çoxminli turistləri buraya gətirən də həmin sualdır.

Rəvayətin sonunda deyilir: Mana və Yenisey yüz illərdir ki, bir-birindən aralı, göz yaşları ilə axıb gedirlər. Mananın atası isə üzləşdiyi faciədən sonra (öz günahına görə) həm mənəvi, həm də fiziki cəhətdən donmuş, sonra daşa dönərək yay aylarında belə zirvəsindəki qar əriməyən Mana Ağdağına (Манское Белогорье) çevrilmişdir.

Yazı rusiyalı mütəxəssislərin tərtib etdiyi https://kras-stolby.ru/about/ portalının materialları əsasında hazırlanmışdır.

*İttifaq MİRZƏBƏYLİ*

# Özbəkistanın Xəzər sevdası

**Özbəkistanın Nəqliyyat Sisteminin İnkişafı Strategiyasında 2035-ci ilə qədər yerli yüklərin dəniz limanlarına, xüsusən də Xəzər limanlarına sürətlə çatması üçün nəqliyyat dəhlizlərinin formalaşdırılmasına xüsusi diqqət yetirilir.**




İlk addım 2023-cü il noyabrın əvvəlində Daşkənddə Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Birinci Nəqliyyat Forumu çərçivəsində atılıb. Sonra Rusiya –Xəzər dənizi – Türkmənistan – Özbəkistan – Qırğızıstan beynəlxalq multimodal nəqliyyat dəhlizinin formalaşdırılması və inkişafı məsələsinə dair Anlaşma Memorandumu imzalanıb. Bu, Özbəkistana Azərbaycan, İran və Gürcüstan vasitəsilə Türkiyəyə tədarük marşrutları qurmağa imkan verir.

Xəzər – Avrasiya Beynəlxalq və Sosial-Siyasi Tədqiqatlar Mərkəzinin eksperti Aleksandr Alekseyev deyir: "Özbəkistanın satış bazarı MDB standartlarına uyğun olsa da, hüdudsuz deyil. Dar bir çərçivə ilə məhdudlaşa bilməz. İxracın artırılması, o cümlədən Avropaya məhsulların göndərilməsi çox vacibdir. Bəs Özbəkistan, sözün həqiqi mənasında, hər tərəfdən çöllər və səhralar, keçilməz dağlarla əhatə olunubsa necə? Yalnız bir çıxış yolu var – qonşularla, ən böyük tərəfdaşlarla, o cümlədən Rusiya, Çin, Türkiyə, İran, Pakistan, Zaqafqaziyada xarici bazarlara yeni yolların axtarışında və yaradılmasında əməkdaşlıq etmək".

İndi əsas vəzifə Qazaxıstandan yan keçməklə Xəzər dənizi ilə marşrut yaratmaqdır. Bu, birincisi, Qazaxıstan sərhədində sıxlığın qarşısını almağa, ikincisi, yük axınının bir hissəsini Həştərxan, Mahaçqala və Bakı limanlarına köçürməyə imkan verəcək. Bu istiqamət Özbəkistandan Rusiya və Avropaya malların tədarükü üçün ən qısa və ən sərfəli marşrutdur.

Xatırladaq ki, son vaxtlar Rusiya ilə ticarət dövriyyəsinin artımı 26,5 faiz (8 milyard 300 milyon dollara qədər) artıb. Üstəlik, Özbəkistandan ixrac 50 faiz artaraq 2 milyard 800 milyon dollara çatıb!

Daşkəndin son vaxtlar maraq göstərdiyi nəqliyyat marşrutlarından biri də "Xəzər dənizi - Qara dəniz" beynəlxalq nəqliyyat marşrutudur. Bu marşrutla bağlı 2019-cu ildə Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan xarici işlər nazirlərinin Buxarestdə keçirilən yığıncağında Bəyannamə imzalanmışdı. Bu günlərdə isə Türkmənistan, Azərbaycan, Gürcüstan və Rumıniya 2024-cü ildə Buxarestdə "Xəzər dənizi – Qara dəniz" beynəlxalq nəqliyyat marşrutunun yaradılması haqqında dördtərəfli hökumətlərarası saziş imzalamağı planlaşdırır. Dəhliz Azərbaycan, Gürcüstan, Rumıniya və Türkmənistan əraziləri boyunca Asiya dövlətlərindən Xəzər dənizi və Qara dəniz vasitəsilə Avropaya malların səmərəli daşınmasını hədəfləyən digər regional layihələrini tamamlayacaq.

Beləliklə, Xəzər və Qara dənizi regiononunun inkişaf etmiş infrastrukturu bilavasitə bura daxil olan ölkələrin maraqları çərçivəsindən çıxır. Özbəkistan kimi ölkələrin də marağına səbəb olur. Bəs Özbəkistan bu marşruta necə qoşulacaq?

Qeyd edim ki, bu marşrut Avropa İttifaqının (Aİ) Avropa və Asiyanın birləşməsi və Mərkəzi Asiya üzrə yeni Strategiyasında yer alır. Bu strategiyada Özbəkistanın da yeri var. Onun "Xəzər dənizi – Qara dəniz" beynəlxalq nəqliyyat marşrutuna qoşulması üçün geniş imkanları var. Məsələn, Özbəkistan və Türkmənistanı sıx birləşdirən avtomobil və dəmir yolları var. Bu, Orta Asiya dövlətinin praktiki olaraq bütün dünya bazarları ilə birləşdirən iqtisadi cəhətdən rəqabətə dözümlü transmilli nəqliyyat dəhlizlərinə çıxış imkanlarını artırır.

Özbəkistan üçün nəqliyyat dəhlizləri arasında ən perspektivlisi isə Nəvai–Türkmənbaşı – Bakı – Qars və "Xəzər dənizi – Qara dəniz" marşrutlarıdır. Onlar Avropa, Şimali Afrika və Yaxın Şərqdəki bazarlara çıxışı təmin edir. Aİ ilə mövcud və digər potensial əməkdaşlıq formatlarından ən yaxşı şəkildə yararlanmağa imkan verir.

"Xəzər dənizi –Qara dəniz" beynəlxalq marşrutu həm Özbəkistana Uzaq Şərqə çıxışına imkan verəcək, həm də Şərq – Qərb və Cənub– Qərb nəqliyyat dəhlizlərinə bağlantı qazandıracaq. Habelə Qara dənizə giriş imkanı yaradacaq.

Bu marşrut Daşkənd ilə Bakı arasındakı ticarət dövriyyəsinin artmasına da xidmət edəcək. Hazırda iki ölkə arasında ticarət dövriyyəsi ötən ilin nəticələrinə görə 231,6 milyon dollardır. 2024-cü ilin göstəricilərinə görə, 15 faiz artım müşahidə olunur. Ticarətin 1 milyard dollara çatdırılması üzrə tədbirlər, o cümlədən tələbat olan malların təhlili əsasında idxalın dəyişdirilməsi, mütəmadi ticarət və işgüzar missiyaların keçirilməsi müzakirə edilir.

Beləliklə, Özbəkistan vaxtında yeni nəqliyyat dəhlizlərinə inteqrasiya olunarsa və bütün Mərkəzi Asiya üçün tranzit ölkəyə çevrilərsə, bundan yalnız xeyir götürəcək. Bu, dövlət gəlirlərinin artmasına, yeni iş yerlərinin açılmasına, əhalinin rifahının yüksəlməsinə təminat verəcək.

Qeyd etmək lazımdır ki, Özbəkistan dənizə çıxışı olmayan ölkədir. Dünya okeanlarına çıxmaq üçün isə, ən azı, qonşu 2 dövlətin ərazisindən keçmək lazımdır.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

Replika

# Bu da divarın sonu...

## Ermənipərəst senatorun gözlənilən acı aqibəti

**Başqa necə olmalı idi ki? On illər boyu ermənilərdən aldığın pulların müqabilində Azərbaycana qarşı ədalətsizliyə, haqsızlığa rəvac ver, supergücün qanunverici orqanının tribunasından işğalçıya "züy" tut, işğala məquz qalanın ünvanına hədyanlar yağdır, sonra da erməni konyakından içib rahat yat? Axı haqsızlıq kərpiclərindən hördüyün o "divar"ın qurtaracağı bir nöqtə var. Hə, indi sən də gəlib o nöqtəyə çatdın. Bütün oğruların, rüşvətxorların, riyakarların və haramzadaların sonda başının əhlət daşına dəyəcəyi nöqtəyə!**



Korrupsiyada, çirkli pulları yuyanlara lobbiçikdə, ABŞ-a qarşı xarici agent kimi fəaliyyətdə təqsirli bilinən Nyu-Cersi ştatından olan ermənipərəst demokrat senator Robert Menendez istefa ərizəsini yazmağa məcbur olub. Bu barədə məlumatı yayan "Reuters" agentliyi vətən xaininin avqustun 20-də Senatı tərk edəcəyini bildirməyi də unutmayıb.

Oxuculara arvadı erməni olan ispan əsilli senatorun bəd əməlləri, anti-Azərbaycan fəaliyyəti barədə bir neçə dəfə məlumat vermişdik. Bu məlumatı isə xüsusi həvəs və rahatlıqla çatdırırıq. Bir neçə gün əvvəl Nyu-York Məhkəməsi amerikalı ermənipərəst senator Menendezi rüşvətxorluq, maliyyə fırıldaqçılığı, ədalət mühakiməsinə mane olmaq və xarici agent kimi fəaliyyət göstərmək də daxil olmaqla, ümumilikdə, 16 maddə üzrə təqsirini sübuta yetirib. Bu işdə senatorun həyat yoldaşı, erməni əsilli Nadine Menendez də ittiham olunub. İntəhası, onun məhkəməsi xəstəliyi səbəbindən qeyri-müəyyən müddətə təxirə salınıb.

2006-cı ildən Nyu-Cersi ştatının senatoru olan Robert Menendez hələ Konqresdə fəaliyyət göstərdiyi zaman federal agent kimi müttəhimlər kürsüsünə çıxarılan ilk senatordur. Yəni bu adam vətənə xəyanətdə ittiham olunub. Üzdəniraq senator bu postda dələduzluqla məşğul olduğu, təxminən, 20 il ərzində ikinci dəfə idi federal Femidanın ittihamları ilə üzləşirdi. Birinci işdə "sudan quru çıxmağı" bacaran rüşvətxor "haypərəst" hakim heyətinin barəsində yekdil hökm çıxara bilməməsi səbəbindən azadlıqda qalmağı bacarmışdı. Amma bu dəfə onu, azı, 20 il dəmir barmaqlıqlar arxasında "xoş əyyamlar" gözləyir.

Doqquz həftə davam edən məhkəmədə münsiflər heyəti müzakirələrə üç gün ərzində 12 saat vaxt sərf edib. Proses barədə keçmiş federal prokuror Neama Rəhmaninin fikirləri maraqlıdır: "Bu, tarixi bir hökmdür. Çünki senator Menendez təkcə korrupsiyada deyil, həm də xarici hökumətin agenti kimi fəaliyyətdə ittiham olunur". Rəhmani hesab edir ki, bu ittiham və hökm Bob Menendez kimi nüfuzlu və yüksək rütbəli senator da daxil olmaqla, heç kimin qanundan üstün olmadığını göstərir: "Əgər qanunu pozsan, rüşvət alsan, həbs ediləcəksən".

Beləliklə, ermənilərin lobbi tələsinin növbəti qurbanı olan 71 yaşlı Menendezə ədalətin zəfər çalması münasibətilə başsağlığı vermək yerinə düşər. İndi onun düşdüyü acı aqibətin əsl səbəbləri barədə düşünməyə xeyli vaxtı olacaq.

*İ.HƏSƏNQALA*
*XQ*

## "Bakı Toxucu" QSC səhmdarlarının nəzərinə!

7 sentyabr 2024-cü il saat 12.00-da "Bakı Toxucu" QSC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:
1. "Bakı Toxucu" QSC-nin 2023-cü ilin hesabatı və digər məsələlər.
2. Dividendin bölüşdürülməsi.
Telefon – 012-458-14-21.
Ünvan – Bakı şəhəri, Bül-bülə qəsəbəsi, S.Bəhlulzadə küçəsi 47.

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 155 (30559) 25 iyul 2024-cü il, cümə axşamı

SAĞLAMLIQ

# Qan damarlarını zədələnməkdən qoruyaq

**Bədənin ən vacib sistemlərindən biri qan damarlarıdır. Onlar orqanizmin bütün nöqtələrinə qida maddələrinin, oksigenin çatdırılmasında, həmçinin tullantıların çıxarılmasında iştirak edirlər. Bu incə, xüsusi tənzimlənmiş sistemin pozulmasının qarşısını almaq üçün pəhrizə sağlam yağlarla zəngin qidalar əlavə etmək, eləcə də qeyri-sağlam qidaların (yüksək miqdarda duz, şəkər, doymuş yağlar və trans yağlar) qəbulunu azaltmaq vacibdir.**



Rusiyalı tibb elmləri doktoru, kardioloq Lyudmila Salamatina jurnalistlərə müsahibəsində bildirib ki, bütün nasazlıqlar, o cümlədən damar xəstəlikləri kimi ateroskleroz da qidalanma ilə sıx bağlıdır.

Kardioloq deyib: "Qan tədarükünə cavabdeh orqan olan damarların divarlarına təhlükəli yağların çökməsi nəticəsində bir çox xəstəliklər yaranır. Bir tədqiqatda elm adamları çərəzlərlə zənginləşdirilmiş Aralıq dənizi pəhrizinə riayət edənlərin 5 il ərzində ateroskleroz riskinin 28 faiz azaldığını aşkarlayıblar. Pəhrizə təbii zeytun yağı daxil edildikdən sonra, bu rəqəm 31 faizə yüksəlib".

Onun sözlərinə görə, bu pəhrizin keyfiyyəti ürək-damar xəstəliklərinin inkişafı və vaxtından əvvəl ölüm riskinin 10 faiz azalması ilə əlaqələndirilir. Həmçinin, bitki əsaslı qidaların üstünlük təşkil etdiyi bir pəhrizə əməl etmək; qırmızı ət, süd məhsulları və doymuş yağları az istehlak etmək könüllülər arasında bütün səbəblərdən ölüm hallarını 8 faiz azaldıb.

Mütəxəssis xatırladıb ki, alimlər həftədə 1 və ya 2 dəfə balıq, gündə 30 qram duzsuz çərəz yeməyi, qırmızı ət istehlakını həftə ərzində 350–500 qrama endirməyi tövsiyə edirlər. Yağlı qidaların tərkibində Omeqa-3 turşularının olmaması damar divarlarının daralmasına, qanın laxtalanmasına gətirib çıxarır ki, bu zaman sağlamlıq və uzunömürlülüklə əlaqəli digər proseslər də pozulur. Kətan toxumu və yağı, qoz və balıq ən yaxşı Omeqa-3 mənbəyidir.

***Z.HÜSEYNLİ***
***XQ***

# OXUCULARIN NƏZƏRİNƏ!

## "Xalq qəzeti"

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. "Azərmətbuatyayımı" ASC (012)-440-16-26.
2. "Azərpoçt" MMC (012)-598-49-55, (051)-225-02-13.
3. "Qaya" firması (012)-566-77-80, (050)-214-40-53.
4. "SƏMA-M" MMC (012)-594-02-52, (050)-333-69-69.
5. "ZİYA" LTD (012)-497-76-96, (050)-306-77-44.
6. "PRESSİNFORM" MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

Hörmətli abunəçilər!
*Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.*

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Süni intellekt – lal və karların köməkçisi

**Hazırda dünyada 70 milyon insan tamamilə kar, 230 milyon insan isə autizm və ya insult kimi xəstəliklər səbəbindən eşitmə və ya nitq pozuntusu yaşayır. Bundan əlavə, nəzərə almaq lazımdır ki, kar uşaqların 90 faizi normal eşitmə qabiliyyətinə malik valideynlər tərəfindən doğulur. Bu valideynlərin isə yalnız 25 faizi işarət (əl və barmaqlarla hərəkət) dilində danışır. Digərlərinin isə ünsiyyətdə ciddi problemləri olur.**



Bundan başqa, eşitmə problemi olan insanların yalnız 2 faizinin ünsiyyət üçün lazım olan texnologiyaya çıxışı var. Çünki bu, ya çox bahadır, ya da onların fərdi ehtiyaclarına uyğunlaşdırıla bilmir. Buna görə də xəstələrin fərdi ehtiyaclarına uyğunlaşdırıla bilən ucuz "ağıllı əlcək" hazırlanıb. Bu əlcəkdən əsas ünsiyyət vasitəsi kimi işarət dilindən istifadə edən eşitmə və ya nitq qüsuru olan insanlar istifadə edə bilər.

Əlcəklər istifadəçinin fərdi əl hərəkətlərini ölçən, izləyən və qeyd edən çoxsaylı sensorlarla təchiz olunub. İstifadəçilər, həmçinin əlcəyin "danışacağı" dili (məsələn, ingilis, fransız, ərəb) və səs növünü (məsələn, kişi, qadın, uşaq) seçmək imkanına malikdirlər. Əlcək jestləri bilək qurğusunda yerləşən displeydə görünən mətnə, sonra isə bilək montajında yerləşən mini dinamik vasitəsilə ötürülən nitqə çevirir.

***PÜNHAN***
***XQ***

# XXXIII Yay Olimpiya Oyunlarına start verilib

**Dünən Parisdə 2024-cü il XXXIII Yay Olimpiya Oyunları çərçivəsində yarışlara start verilib. Builki Oyunlarda idmançıların ənənəvi yürüşü əvəzinə, Sena çayında qayıq paradı nəzərdə tutulub. Orada 10 mindən çox idmançı qayıqlarda üzəcək. Rəsmi hissə Eyfel qülləsinin düz yanındakı müvəqqəti stadionda – "Place du Trocadéro"da keçiriləcək.**




Parisdə Olimpia Oyunları rəsmi olaraq iyulun 26-da açılacaq. Ancaq yarışlar daha əvvəl başlayıb. İlk yarışlar 24 iyulda keçirilib. Dünən kişilər arasında futbol turnirinin qrup mərhələsinin 1-ci turunun oyunları baş tutub və 8 oyun olub. Kişilər iyulun 24-də qrup mərhələsində 12 oyun keçiriblər.

Kişilər arasında futbol turnirinin qrup mərhələsi iyulun 30-dək davam edəcək, pley-off mərhələsi isə avqustun 2-də başlayacaq. Medallar avqustun 8-9-da veriləcək.

Dünən Yay Olimpiya Oyunlarının proqramı çərçivəsində reqbi üzrə qrup mərhələsi yarışlarına da start verilib. İlk medal dəsti şənbə günü, iyulun 27-də 10 metrdən pnevmatik tüfənglə atıcılıq yarışında veriləcək.

Dörd ildən bir keçirilən planetin ən nüfuzlu idman yarışında Azərbaycan idmançıları da iştirak edirlər. XXXIII Yay Olimpiya Oyunlarında ölkəmiz 48 idmançı ilə 15 idman növü üzrə təmsil olunacaq.

İyulun 17-də Paris Olimpiadasında mübarizə aparacaq Azərbaycan Milli Olimpiya Komandasının yolasalma mərasimi baş tutub. Tədbirdən əvvəl dövlət himni səsləndirilib, Vətən müharibəsi şəhidlərinin və idman ictimaiyyətindən vəfat edənlərin xatirəsi yad edilib. Milli Gimnastika Arenasında (MGA) baş tutan tədbirdə gənclər və idman naziri Fərid Qayıbov idmançılara uğurlar arzulayıb.

***Paşa ƏMİRCANOV***
***XQ***

# "Olimpiadaya gedən yol çox çətin oldu"

**"Mənim üçün Olimpiadaya gedən yol çox çətin və uzun oldu". Bunu qadın güləşi üzrə Azərbaycan yığmasının lideri Mariya Stadnik Dünya Güləş Birliyinə (UWW) müsahibəsində deyib. O, Fransa paytaxtında tarix yaza biləcəyinə ümid etdiyini bildirib: "Paris-2024 Yay Olimpiya Oyunlarında iştirak etmək üçün son şansım idi və şansımı reallaşdıra bildim. Ümid edirəm ki, Parisdə yeni tarix yazmağa davam edəcəyəm".**




Dünya Güləş Birliyinin yetkilisi Mariya Stadnikin 5-ci olimpiya medalını qazanmaq şansının olduğunu bildirib. Bu da güləş üzrə rekord nəticə olacaq: "Heç bir güləşçi 5 olimpiya medalı qazanmayıb. Mariya Stadnik öz olimpiya tarixini yaratmaq ərəfəsindədir.

Xatırladaq ki, Stadnikin 2 gümüş və 2 bürünc medalı var.

***PÜNHAN***
***XQ***



# Kamandan oxatanımız mübarizəyə başlayır

**Bu gün Azərbaycanın ilk təmsilçisi Paris Yay Olimpiya Oyunlarında mübarizəyə başlayır.**

Kamandan oxatma üzrə idmançımız Yaylagül Ramazanova sıralama turuna 30-cu cütdə başlayacaq. Bu mərhələ Bakı vaxtı ilə saat 11:30-da start götürəcək. Təmsilçimiz B zolağından hədəfi nişan alacaq.

Sıralama turunda mübarizə aparacaq 64 oxatan 1/32 final cütlərini müəyyənləşdirəcək.

Yaylagül Ramazanova 2024-cü il iyununda Antalya şəhərində Dünya Olimpiya Təsnifat Turnirinin nəticələrinə əsasən olimpiya lisenziyasına sahib olub. O, Azərbaycan kamandan oxatma məktəbinin yetirməsi kimi olimpiadaya vəsiqə qazanan ilk idmançıdır.

***L.QURBANOVA***
***XQ***

Hava

# Yağıntı, duman və külək

***Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, iyulun 25-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində şimşək çaxacağı, leysan xarakterli intensiv olacağı ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi əsəcək. Gecə 20-25°, gündüz 28-31° isti olacaq.***



Atmosfer təzyiqi normadan aşağı 752 mm civə sütunu, nisbi rütubət gecə 80-90 , gündüz 60-70 faiz olacaq. Abşeron çimərliklərində gözlənilən dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 24–25° isti, Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 25–26° isti olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir leysan xarakterli yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv və güclü olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq rayonlarda arabir duman olacaq. Şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 20–25°, gündüz 28–33°, dağlarda gecə 12–17°, gündüz 18–23° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# ALLAH RƏHMƏT ELƏSİN

Vüqar Əhmədov və "Azərişıq" ASC-nin kollektivi Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

ADPU-nun biologiya və onun tədris texnologiyası kafedrasının əməkdaşları kafedranın dosenti Həqiqət Hacıyevaya bacısı

**GÜLAFƏT XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Pirallahı rayonundan Vasif İmanov Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri Natiq Əmirova anası

**ŞİRİNNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3168
SİFARİŞ 1629
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00